RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 73 (8389) ŞƏNBƏ, 18 aprel 2020-ci il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az





# Dövlətimiz üçün prioritet məsələ insanların sağlamlığı və sosial müdafiəsidir

## İLHAM ƏLİYEV: "Biz xalq olaraq, dövlət olaraq çətin günlərdə maksimum həmrəylik nümayiş etdiririk, bir-birimizə kömək edirik, xüsusilə aztəminatlı ailələrə kömək göstəririk"

## Prezident İlham Əliyevin çıxışı

**Aprelin 17-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Əmək və Əhalinin Sosial Müdafiəsi naziri Sahil Babayev və İqtisadiyyat naziri Mikayıl Cabbarovun iştirakı ilə videobağlantı formatında iclas keçirib.**

**AZƏRTAC xəbər verir ki, dövlət başçısı iclasda çıxış etdi.**

- Aprelin 14-də birinci rübün yekunlarını müzakirə edərkən mən bir çox tapşırıqlar verdim. Təbii ki, bu tapşırıqların hamısı yerinə yetirilməlidir və siz tapşırıqların yerinə yetirilməsi ilə əlaqədar mənə müntəzəm olaraq məlumat verməlisiniz. Bu gün əlavə tapşırıqlar veriləcək, çünki pandemiya davam edir. Baxmayaraq ki, Azərbaycanda vəziyyət nəzarət altındadır, biz öz tədbirlərimizi vəziyyətə uyğun şəkildə görməliyik. Bizim üçün prioritet məsələ, - mən bunu qeyd etmişəm, bir daha demək istəyirəm, - insanların sağlamlığıdır, insanların həyatıdır və insanların sosial müdafiəsidir. Eyni zamanda təbii ki, biz bu şəraitdə iqtisadi sahəyə də daha çox diqqət verməliyik. Çünki hər kəs bilməlidir, əgər güclü iqtisadi imkanlarımız olmasa, biz öz sosial siyasətimizi uğurla apara bilməyəcəyik, xüsusilə pandemiya dövründə ki, bu xəstəlik və bu xəstəlikdən yaranan fəsadlar böyük maliyyə vəsaiti tələb edir. Ona görə bir daha demək istəyirəm, bu pandemiya dövründə bizim üçün əsas prioritetlər insanların sağlamlığı, onların sosial müdafiəsi və vəziyyətə uyğun şəkildə iqtisadi fəallığın artmasıdır.

Hər kəs bilməlidir ki, bu böyük bəla bütün dünyanı böyük sınaq qarşısında qoyubdur. Bu günə qədər dünyada 140 mindən çox insan həyatını itirib və bu xəstəlik sərhədlər tanımır. Əgər ilkin mərhələdə bu xəstəlik Azərbaycana xaricdən gətirilibsə, hazırda daxili yoluxma prosesi gedir. Ancaq bildirməliyəm ki, sərt və qabaqlayıcı tədbirlər nəticəsində biz bu vəziyyəti nəzarət altında saxlaya bilirik. Son üç-dörd günün statistikası müəyyən mənada nikbinlik üçün əsas yaradır. Bildirməliyəm ki, son günlərdə yoluxanların sayı ilə sağalanların sayı arasında dinamika artıq müsbətdir. Yəni daha çox insan sağalır, nəinki bu xəstəliyə yoluxur.

Bunun başlıca səbəbi görülmüş tədbirlərdir. Mən bunu bir daha demək istəyirəm, əgər biz vaxtında qabaqlayıcı tədbirlər görməsəydik, bu gün Azərbaycanda xəstələrin sayı min yox, bəlkə on min, iyirmi min, bəlkə də daha çox olardı. Biz indi inkişaf etmiş ölkələrin təcrübəsini görürük. Bu ölkələrdə səhiyyə sistemi bir çox ölkələr üçün həmişə nümunə olub. Amma demək olar ki, böyük imkanlara malik ölkələrin səhiyyə sistemi böhran içindədir. Bu da təbiidir. Çünki xəstəliyin yayılma sürəti o qədər genişdir, xəstəlik o qədər tez yayılır ki, heç bir ölkənin səhiyyə sistemi buna davam gətirə bilməz, o cümlədən Azərbaycanın. Ona görə bizim əsas məqsədimiz yoluxma hallarında müşahidə olunan artımın qabağını almaq idi, yoluxma zəncirini qırmaq idi. Görülmüş bütün tədbirlər bu məqsədi güdürdü ki, biz bu vəziyyətdən az itkilərlə çıxaq, vətəndaşlara kömək göstərək, onları bu bəladan qoruyaq və onların sosial müdafiəsini təmin edək. Bu günə qədər həm məhdudlaşdırıcı tədbirlərin görülməsi, bu tədbirlərin mərhələ-mərhələ sərtləşdirilməsi, eyni zamanda, pandemiyadan ziyan çəkmiş sahələrdə çalışan insanların sosial müdafiəsinin təmin edilməsi hesab edirəm ki, bizim düzgün siyasətimizi əks etdirir. Çünki bir daha demək istəyirəm ki, son üç-dörd gün ərzində müsbət dinamika var. Ancaq biz bundan sonra da vəziyyəti nəzarətdə saxlayacağıq, görək ki, bu dinamika nə qədər çəkəcək, bu, davamlıdır, yoxsa yox və hansı əlavə tədbirlər görülməlidir. Çünki dünya böyük çağırışla üzləşib və biz görürük ki, bir çox hallarda ölkələr bu bəla ilə təkbaşına mübarizə aparır.

Azərbaycan, əlbəttə, dünya birliyinin məsuliyyətli və etibarlı üzvü kimi bu sahədə həm ölkə daxilində, həm də beynəlxalq müstəvidə həmrəyliyin gücləndirilməsi üçün çox önəmli addımlar atmışdır. Deyə bilərəm ki, ölkəmizdə milli həmrəylik bu günə qədər müşahidə edilməyən dərəcədə artıb. Bu, bir daha bizim xalqımızın böyüklüyünü göstərir. Göstərir ki, biz xalq olaraq, dövlət olaraq çətin günlərdə maksimum həmrəylik nümayiş etdiririk, bir-birimizə kömək edirik, xüsusilə aztəminatlı ailələrə kömək göstəririk. Təbii ki, ilk növbədə, dövlət, eyni zamanda, sahibkarlar, ictimai təşkilatlar, ayrı-ayrı şəxslər - biz xalqımıza xas olan ən ülvi xüsusiyyətləri bir daha nümayiş etdiririk.

Bildiyiniz kimi, Azərbaycanın hazırda sədrlik etdiyi Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurası dünya miqyasında ilk təşkilat idi ki, Zirvə görüşünü videokonfrans şəklində keçirib. Bu Zirvə görüşü bir daha bizim həmrəyliyimizi, birliyimizi göstərmişdir. Göstərmişdir ki, biz ağır günlərdə bir-birimizin yanındayıq.

*Ardı 2-ci səh.*

# Multikultural dəyərlərə sadiqlik

## Azərbaycanın pravoslav xristian icmasına

Hörmətli həmvətənlər!

Sizi - Azərbaycanın bütün xristian icmasını müqəddəs Pasxa bayramı münasibətilə ürəkdən təbrik edir, hamınıza ən səmimi arzu və diləklərimi yetirirəm.

Fərqli sivilizasiyaların qovuşuğunda yerləşən Azərbaycanda yüz illərdir ki, müxtəlif xalqların və dinlərin nümayəndələri əmin-amanlıq, mehriban qonşuluq, qarşılıqlı etimad və anlaşma şəraitində yaşayırlar. Dərin tarixi köklərə malik tolerantlıq ənənələrimizin qorunub saxlanılması, multikultural dəyərlərə söykənən ictimai münasibətlərin təbliği və təşviqi Azərbaycan dövlətinin həyata keçirdiyi siyasətin başlıca istiqamətlərindən biridir.

Azərbaycan Respublikasında formalaşmış nümunəvi dövlət-din münasibətləri cəmiyyətin bütün təbəqələri kimi, xristian icmasına da öz dini-mənəvi dəyərlərindən lazımınca faydalanmaq imkanı yaradır. Məmnunluq hissi ilə qeyd etmək istəyirəm ki, cəmiyyətimizdə özünəməxsus yeri olan pravoslav xristianlar ölkəmizdə gedən böyük inkişaf və quruculuq prosesinin fəal iştirakçılarıdır.

Əziz həmvətənlər!

Builki Pasxa bayramı bütün dünyanı bürümüş təhlükəli epidemiyanın bəşəriyyəti təhdid etdiyi bir vaxta təsadüf edir. Əminəm ki, üzləşdiyimiz qlobal bəla ilə mübarizədə həmvətənlərimiz yüksək məsuliyyət, həmrəylik və mütəşəkkillik nümayiş etdirəcək, xalqımız bu çətin sınaqdan da uğurla çıxacaqdır.

Yeniliyin, dirçəlişin, birlik və bərabərliyin rəmzi sayılan nurlu Pasxa bayramı günündə bir daha hər birinizə cansağlığı, xoşbəxtlik, ailələrinizə əmin-amanlıq arzulayıram.

Bayramınız mübarək olsun!

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri,17 aprel 2020-ci il*

# Çətin sınaq anlarında xalqların bir-birinə dəstək göstərməsi - dostluq və qardaşlığın ən gözəl təzahürüdür

### Birinci vitse-prezident Mehriban Əliyeva Tbilisi teleqülləsində dövlət bayrağımızın işıqlandırılması ilə əlaqədar Gürcüstana minnətdarlıq edib



**Birinci vitse-prezident Mehriban Əliyeva rəsmi "Facebook" səhifəsində Gürcüstanın paytaxtı Tbilisidə yerləşən teleqüllədə Azərbaycan Respublikasının dövlət bayrağının işıqlandırılması ilə əlaqədar qardaş ölkəyə minnətdarlığını bildirib.**

AZƏRTAC xəbər verir ki, paylaşımda deyilir: "Tarixən təşəkkül tapmış mehriban dostluq münasibətlərimiz olan Gürcüstana dərin minnətdarlığımı bildirirəm! Çətin sınaq anlarında xalqların bir-birinə dəstək göstərməsi - dostluq və qardaşlığın ən gözəl təzahürüdür. Əminəm ki, xalqlarımızın möhkəm iradəsi və həmrəyliyi sayəsində biz dünyamızın bu gün üzləşdiyi bütün çətinlikləri tezliklə geridə qoyacağıq! Hamıya möhkəm cansağlığı arzulayıram!"

# Azərbaycan vətəndaşlarının 94.5 faizi Prezident İlham Əliyevə inanır və etimad göstərir

**Prezident İlham Əliyevin son dövrdə ölkədə həyata keçirilən inqilabi islahatlarla bağlı cəmiyyətin ictimai rəyinə müstəsna əhəmiyyət verməsini nəzərə alaraq, Sosial Tədqiqatlar Mərkəzi (STM) 2019-cu ildən etibarən yeni formatlı sosioloji sorğulara start verib.**

Bu sorğular islahatlarla bağlı ictimai rəyin rüblük (3 aylıq) monitorinqi baxımından ölkədə bir ilk olmaqla yanaşı, həm də sosial proseslərin dinamikasını və ictimai rəydə dəyərləndirilməsini daha operativ izləməyə imkan verir.

Sosial Tədqiqatlar Mərkəzindən AZƏRTAC-a bildirilib ki, təqdim edilən növbəti hesabat, 2020-ci ilin ilk rübünü (yanvar-mart) əhatə edir.

*Ardı 3-cü səh.*

# Xalq Sizinlə həmrəydir, cənab Prezident!

### İlham Əliyevin "Biz birlikdə güclüyük!" çağırışı ölkə vətəndaşlarının devizinə çevrilib

**Dünya dəhşətli bəla ilə üz-üzədir. "Gözəgörünməz düşmən"ə qarşı vaksin tapılmayana qədər yəqin ki, vəziyyət heç də ürəkaçan olmayacaq.**

Ancaq hər kəs şahiddir ki, əksər dövlətlərdən fərqli olaraq Azərbaycan Respublikası bu qlobal problemdən az itki ilə çıxmaq üçün çox ciddi addımlar atır. Bütün bunlar əlbəttə ki, Prezident İlham Əliyevin koronavirus infeksiyasının ölkəmizdə geniş yayılmaması üçün həyata keçirdiyi effektiv tədbirlərin nəticəsidir. Görülən bu işlər, dövlət başçısının göstərdiyi diqqət və qayğı ölkə əhalisi tərəfindən də rəğbətlə qarşılanır. Prezidentin ünvanına respublikanın hər yerindən gələn və ardı-arası kəsilməyən təşəkkür dolu məktublar bunu bir daha təsdiqləyir. Həmin məktublardakı sətirlər onu deməyə əsas verir ki, xalq dövlətinə və onun rəhbərinə hər zaman güvənib.

*Ardı 5-ci səh.*

# İlham Əliyevin Milli Məclisin işi ilə bağlı verdiyi tövsiyələr bundan sonra da ardıcıl yerinə yetiriləcək

### Sahibə QAFAROVA: "Parlament Azərbaycanın dayanıqlı inkişafının təmin edilməsinə yönələn strateji xəttin həyata keçirilməsinə öz töhfəsini verəcək"

**Aprelin 17-də Milli Məclisin növbəti plenar iclası keçirildi. İclası açıq elan edən Milli Məclisin Sədri Sahibə Qafarova ilk olaraq 2020-ci ilin birinci rübünün sosial-iqtisadi yekunlarına həsr olunan müşavirə ilə bağlı fikirlərini bildirdi.**

### Düşünülmüş siyasət insanlarımızın sağlamlığını qorumağa imkan verəcək

Sahibə Qafarova qeyd etdi ki, bu müşavirə bir çox vacib məqamları ilə diqqəti cəlb edir: "Möhtərəm Prezidentimiz özünün dərin məzmunlu nitqində ölkə iqtisadiyyatının vəziyyətini və inkişaf perspektivlərini ətraflı təhlil etdi.

*Ardı 4-cü səh.*

# Siyasi partiyalar bəyanat qəbul ediblər

**Siyasi partiyalar COVID-19 pandemiyasının qarşısının alınması və sosial-iqtisadi nəticələrinin aradan qaldırılması tədbirləri ilə əlaqədar bəyanat qəbul ediblər. AZƏRTAC bəyanatı təqdim edir:**

"Biz, bu bəyanatı imzalayan siyasi partiyalar COVID-19 pandemiyasının bütün dünyada tüğyan etdiyi, yüz minlərlə insanın həyatını itirdiyi, pandemiyanın nəticəsində son onilliklərin ən dərin böhranının meydana gəlməsi təhlükəsinin yarandığı, sosial və iqtisadi həyatın çox ciddi təsirlərə məruz qaldığı, pandemiyanın fəsadlarının Azərbaycanda da özünü göstərdiyi bir zamanda koronavirus infeksiyasının yayılmasının qarşısının alınması, insanların sağlamlığının qorunması, meydana çıxan sosial-iqtisadi problemlərin aradan qaldırılması sahəsində ölkəmizdə həyata keçirilən kompleks və qabaqlayıcı tədbirlərin əhəmiyyətini və onların müsbət nəticələrinin əldə olunmasında siyasi partiyaların məsuliyyətini dərk edərək, milli birliyin və həmrəyliyin daha da möhkəmləndirilməsinin xüsusi əhəmiyyətini vurğulayaraq, aşağıdakıları bəyan edirik:

*Ardı 7-ci səh.*

▪ *Özünü, doğmalarını və dostlarını qorumaq:*
▪ *Koronavirusa qalib gəlmək üçün*

**EVDƏ QAL!**

*Biz birlikdə güclüyük!*



# Dövlətimiz üçün prioritet məsələ insanların sağlamlığı və sosial müdafiəsidir

## İLHAM ƏLİYEV: "Biz xalq olaraq, dövlət olaraq çətin günlərdə maksimum həmrəylik nümayiş etdiririk, bir-birimizə kömək edirik, xüsusilə aztəminatlı ailələrə kömək göstəririk"

Əvvəli 1-ci səh.

Son günlər ərzində mənə ünvanlanan minlərlə məktub göstərir ki, Azərbaycan xalqı dövlət tərəfindən görülmüş işlərə çox böyük qiymət verir. Əlbəttə ki, bu, bizi daha da ruhlandırır. Bu, onu göstərir ki, baxmayaraq insanların həyatı çətinləşib, normal həyata müdaxilə edən karantin rejimi bir çoxları üçün problemlər yaradıb, yenə də xalqımızın böyük əksəriyyəti bu vəziyyəti dərk edərək dövlətə öz dəstəyini göstərməkdədir. Biz isə bundan sonra da bu bəla ilə mübarizədə fəal olmalıyıq, qabaqlayıcı tədbirlər görməliyik və elə etməliyik ki, bu ağır vəziyyətdən az itkilərlə çıxa bilək.

Karantin rejiminə gəldikdə, bildiyiniz kimi, karantin rejimi aprelin 20-nə qədər nəzərdə tutulurdu. Ancaq mütəxəssislərin vahid fikrinə görə, karantin rejimi uzadılmalıdır. Mən hesab edirəm ki, bu, düzgün addım olacaqdır. Çünki müsbət dinamika hələ ki, ilk təzahürlərini göstərməkdədir. Biz bu dinamikanı dayanıqlı etməliyik. Ona görə hesab edirəm ki, Operativ Qərargah yaxın vaxtlarda bu məsələ ilə bağlı məlumat verəcək. Hesab edirəm ki, karantin rejiminin uzadılması yeganə düzgün qərardır.

Bunu nəzərə alaraq, biz əlbəttə ki, insanların sosial müdafiəsini daha da gücləndirməliyik. Azərbaycan xalqı yaxşı bilir ki, biz dərhal bu məsələ ilə ciddi məşğul olmağa başlamışıq. Pandemiyadan ən çox zərər çəkən sahələrdə işləyən insanların əməkhaqlarının əhəmiyyətli hissəsi dövlət tərəfindən qarşılanır. Bu kateqoriyaya aid olan insanların sayı 300 mindən çoxdur. Eyni zamanda 300 minə yaxın mikrosahibkarın maliyyə vəziyyətinin təmin edilməsi üçün dövlət böyük maliyyə vəsaiti ayırıb. Beləliklə, ancaq bu kateqoriyalara aid olan 600 minə yaxın insan dövlətdən maddi dəstək alır. Dövlət sektorunda işləyənlərin əməkhaqları tam ödənilir. Hazırda bir milyona yaxın insanın böyük əksəriyyəti işləmir, ancaq dövlət onların maaşını verir. Yəni bu, bir daha Azərbaycan dövlətinin humanist mahiyyətini göstərir. Onu göstərir ki, - mən bunu dəfələrlə demişəm, hələ koronavirusdan daha əvvəl demişəm, - bizim siyasətimizin mərkəzində Azərbaycan vətəndaşı dayanır. Bugünkü ağır vəziyyət bir daha onu göstərir ki, sözümüzlə əməlimiz arasında heç bir fərq yoxdur, nəyi bəyan ediriksə, onu da edirik.

Ancaq nəzərə alsaq ki, karantin rejimi uzadılacaq və karantin rejimindən çıxış da gərək bəribaşdan planlaşdırılsın. Sizə də bu məsələ ilə bağlı müvafiq göstərişlər verirəm ki, biz karantin rejimini mərhələli yollarla sərtləşdirmişdik və bu rejimi eyni qaydada - mərhələli yollarla yumşaltmalıyıq. Bu, hansı formada olacaq? Gərək bu məsələ üzərində hökumət və o cümlədən nazirliklər işləsin, təkliflər versin. Yumşalma hansı sahələrdən başlamalıdır, biz indidən bunu planlaşdırmalıyıq. Çünki ümid edirəm, hətta uzadılmış karantin rejimi dövründə müəyyən yumşalma istisna deyil. Amma yenə də biz addımlarımızı vəziyyətə uyğun şəkildə atmalıyıq.

Əlbəttə, məni indiki vəziyyətlə bağlı ən çox narahat edən insanların sağlamlığıdır. Bizim həkimlərimiz insanlara kömək göstərmək üçün əllərindən gələni edirlər. Bildiyiniz kimi, bizim səhiyyə sistemimiz böyük sınaq qarşısındadır. Səhiyyə sistemimizin çökməməsi, ilk növbədə, onunla bağlıdır ki, biz xəstəliyin yayılma sürətini nəzarət altında saxlaya bildik. Əgər bu, nəzarətdən çıxsaydı, bizim səhiyyə sistemimiz buna davam gətirə bilməzdi. Bu gün inkişaf etmiş bəzi ölkələrin, - indi oradakı vəziyyət televiziya və internet resurslarında göstərilir, - insanları ümumiyyətlə müalicə etmək imkanı yoxdur. Bəzi xəstələr dəhlizlərdə yerləşdirilir, yerə uzadılır, uzanıblar yerlərdə və sadəcə olaraq, xəstəxana binasında qalırlar. Ən inkişaf etmiş ölkələrdə yüzlərlə, bəzi hallarda mindən çox insan vəfat edir. Nəyə görə? Sadəcə olaraq, səhiyyə sistemi buna davam gətirə bilmir, xəstəxanalarda yer yoxdur, bəzi hallarda lazım olan avadanlıq çatışmır. Əgər bu ölkələrin səhiyyə sistemi normal fəaliyyət göstərsəydi, o insanların böyük əksəriyyətinin həyatını xilas etmək olardı.

Bizim səhiyyə sistemimiz son illərdə böyük inkişaf yolu keçibdir və bu gün 20-dən çox dövlət xəstəxanasında koronavirus xəstələri müalicə olunur. Bu xəstəxanaların mütləq əksəriyyəti son 16 il ərzində tikilibdir. O cümlədən 575 çarpayılıq "Yeni klinika" bu gün ölkəmizin ən müasir səhiyyə ocağıdır və indi orada 100-dən çox xəstə müalicə alır. Eyni zamanda Azərbaycan Tibb Universitetinin vaxtilə mənim təşəbbüsümlə tikilmiş Tədris-Terapevtik və Cərrahiyyə klinikalarında da bir çox xəstə müalicə alır. Son illər ərzində bölgələrdə inşa edilmiş mərkəzi rayon xəstəxanalarında bir çox xəstələr müalicə alır. O cümlədən bu ilin mart ayında Goranboy, Qazax, Şəmkir şəhərlərində açılan 3 yeni xəstəxanada xəstələr müalicə alır, orada da 500 çarpayı imkanı vardır. Yəni mindən çox çarpayı ancaq mart ayında istifadəyə verilibdir. Mənim göstərişimlə hazırda ölkəmizdə modul tipli 10 xəstəxana inşa edilməkdədir. Hesab edirəm ki, bu xəstəxanalar işə düşəndən sonra yaxın 1-2 ay ərzində orada da 2 min əlavə çarpayı istifadəyə veriləcək.

Yəni biz bütün hazırlıq işlərini görürük. Biz indi həkimlərimizin peşəkarlığını əyani şəkildə görürük. Sirr deyil ki, səhiyyə işçilərinin fəaliyyətinə bəzi hallarda tənqidi yanaşmalar da müşahidə olunurdu. Sanki Azərbaycanın səhiyyə sistemi bərbad vəziyyətdədir, Azərbaycanda xəstələrə lazımi müalicə göstərilmir, imkanlı xəstələr xaricə üz tuturlar. Bəli, belə hallar var, təkcə Azərbaycanda yox, bizdən qat-qat zəngin olan ölkələrdən də imkanlı adamlar Avropanın, Amerikanın aparıcı klinikalarında müalicə alırlar. Bu, dünya praktikasıdır. Ancaq bu gün biz yalnız öz imkanlarımıza arxalanırıq. Bizim səhiyyə sistemimiz ancaq Azərbaycan həkimləri tərəfindən dövlət dəstəyi ilə inkişaf edir. Bu gün Azərbaycanda ən mürəkkəb əməliyyatların keçirilməsi, koronavirusla bağlı müxtəlif müayinələrin aparılması, 18 laboratoriyamız - bütün bunlar bizim gücümüzü artırır. Yəni bu gün tam əmin ola bilərik ki, bizim səhiyyə imkanlarımız və həkimlərin peşəkarlığı lazımi səviyyədədir. Göstərdikləri fədakarlığa, qəhrəmanlığa görə həkimlərə bir daha təşəkkürümü bildirirəm. Ona görə mən tam əminəm ki, karantin rejiminin uzadılması nəticəsində biz müsbət dinamikanı gücləndirə bilərik.

Bununla əlaqədar əlbəttə ki, biz aztəminatlı ailələrin problemlərini daha geniş şəkildə həll etməliyik. Bu günə qədər biz nəzərdə tuturduq ki, karantin rejimi aprelin 20-dək davam edəcək, ancaq indi uzadılacaq. Yardım üçün müraciət edənlərin sayı kifayət qədər artmışdır. İndi bu təkliflər, bu sifarişlər geniş təhlil olunur və maksimum şəffaflıq təmin edilməlidir. İlkin mərhələdə nəzərdə tutulurdu ki, 200 min insan dövlətdən 190 manat yardım alacaqdır. Mən hesab edirəm ki, ümumi vəziyyəti nəzərə alaraq və insanların sosial müdafiəsini gücləndirmək üçün bu kateqoriyaya aid olan insanların sayını biz 600 minə çatdırmalıyıq. Yəni 200 min əvəzinə, 600 min insana dövlət iki ay ərzində hər ay 190 manat vəsait verməlidir. Bu kateqoriyaya aid olan insanlar aztəminatlı təbəqənin nümayəndələridir, eyni zamanda, koronavirusla bağlı işini itirən və qeyri-formal məşğulluqla məşğul olan insanlardır. Onların da problemlərini dövlət öz üzərinə götürür. Baxmayaraq, mən dəfələrlə onlara müraciət etmişəm ki, qeyri-formal məşğulluğa son qoyun, çünki bu, sizin üçün problem yaradacaq. Siz işsizlikdən sığorta, işsizlik müavinəti, pensiya, tibbi sığorta ala bilməyəcəksiniz. Son vaxtlar Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, İqtisadiyyat Nazirliyi və digər aidiyyəti qurumların fəaliyyəti nəticəsində on minlərlə yeni əmək müqaviləsi bağlanıldı. Mən ümid edirəm ki, bu ağır vəziyyətdən sonra bunu nəzərə alaraq bu gün hələ də kölgə iqtisadiyyatında çalışan insanlar da dərk edəcəklər ki, yeganə çıxış yolu kölgə iqtisadiyyatından çıxmaqdır. Sahibkarlara müraciət edirəm, qeyri-formal məşğulluğa son qoyun. İşçilərə müraciət edirəm bir daha, əmək müqaviləsi olmadan işləməyin, tələb edin. Əgər hansısa sahibkar sizinlə əmək müqaviləsi bağlamaq istəmirsə, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinə, İqtisadiyyat Nazirliyinə, Prezident Administrasiyasına dərhal məlumat verin. Biz o sahibkarların dərsini verəcəyik. Çünki dövlətin bütün resurslarını səfərbər etdiyi indiki şəraitdə dövləti aldatmaq, vergilərdən yayınmaq və öz maddi marağını, öz tamahını təmin etmək xəyanətdir. Bunun başqa adı ola bilməz. Ona görə tapşırıq verirəm ki, aprel-may aylarında - iki ay ərzində 600 min insan dövlətdən ayda 190 manat alsın. Bu vəsaiti alacaq vətəndaşlardan xahiş edirəm ki, onlar ikinci ödənişi almaq üçün bank hesabları açsınlar. Birinci ödəniş bu ay veriləcək, ona görə yəqin bəzi insanların imkanı olmayacaq ki, bank hesabları açsınlar. Ancaq ikinci ödəniş may ayında veriləcək. O vaxta qədər bu 600 min insanın hər biri bank hesabı açsın və ikinci ödənişi bank köçürmə yolu ilə alsın. Bu, bizim xahişimizdir, bu, bizim tələbimizdir.

Ona görə bu məsələ ilə bağlı indi sizin nazirlik qarşısında çox ciddi vəzifələr durur. Siz qısa müddət ərzində bu ödənişləri təmin etməlisiniz. Sual vermək istərdim Əmək və Əhalinin Sosial Müdafiəsi nazirinə, indi ayın sonuna 13 gün vaxt qalıb, 600 min insana bu ödənişlər nə dərəcədə operativ şəkildə edilə bilər və gündə neçə min insana bu ödənişlər verilə bilər? Məlumat verin.

Nazir **Sahil BABAYEV** dedi:

-Möhtərəm cənab Prezident, Sizin təşəbbüsünüzlə təsdiq edilmiş Tədbirlər Planı çərçivəsində işsiz şəxslərə, xüsusi karantin rejiminə görə iş yerini itirmiş qeyri-formal işləyən şəxslərə, habelə qeyd etdiyiniz kimi, aztəminatlı ailədən olan insanlara dəstək mexanizmi artıq aprelin 7-də Nazirlər Kabinetinin müvafiq qərarı ilə təsdiq olunub. Aprelin 9-dan biz ödənişlərə başlamışıq. İlk vaxtlar hər gün 10 min insana ödəniş köçürülürdüsə, artıq son günlər biz bu rəqəmi 20-25 minə çatdıra bilmişik. Dünən axşamadək artıq 140 min insana ödəniş edilibdir. Bugünkü plana əsasən əlavə 25 min insana ödəniş ediləcəkdir. Biz Sizin tapşırığınıza əsasən ayın sonuna qədər gündəlik rəqəmi 25-30 minə çatdırmağa çalışarıq ki, maksimum sürətlə icra olunsun, aprelin sonu, mayın əvvəllərində artıq 600 min insanın hər biri bu vəsaiti alsın. Əsas sual, eyni zamanda vətəndaşlarımızın bu vəsaiti götürməsi ilə bağlıdır. Çünki bir gündə ödəniş həddən artıq çox olanda istənilən şəkildə vətəndaşların müraciəti və sıxlığı yarana bilər bizim bank şöbələrimizdə, poçt şöbələrimizdə. Ona görə biz onu da Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi ilə birgə tənzimləməyə çalışdıq və əsas yük poçt şöbələrimizin üzərinə düşür. Onlar da həqiqətən bu günədək bu missiyanı çox uğurla icra edirlər. Amma biz düşünürük ki, ən geci mayın ilk həftəsində bütün ödənişlər yekunlaşacaqdır. Sizin tapşırığınıza uyğun olaraq ikinci ödənişin böyük bir hissəsi köçürmə yolu ilə həyata keçirilsə, əlbəttə ki, daha sürətlə icra ediləcəkdir.

**Prezident İlham ƏLİYEV:**

- Yaxşı. Onda birinci ödənişi alan vətəndaşlara bir daha tövsiyə olunmalıdır ki, bank hesabları açsınlar. Bizim banklara da indi müraciət edirəm ki, onlar, - düzdür, bu, böyük iş tələb edir, - burada maksimum operativlik göstərsinlər. Çünki əgər 600 min insanın hamısı bank hesabı açarsa, - biz bunu istəyirik, tövsiyə edirik, - bu, əlbəttə ki, müəyyən problemlər yarada bilər. Ona görə bank sektoru da buna hazır olmalıdır. Beləliklə, bundan sonra artıq həmin insanlar öz maaşlarını köçürmə yolu ilə alacaqlar, şəffaf şəkildə alacaqlar və öz vətəndaşlıq borcunu yerinə yetirmiş olacaqlar. Çünki bu, ən düzgün yoldur. Bu məsələ ilə, yəni görüləcək əlavə işlərlə bağlı sizin başqa sözünüz var?

Nazir **Sahil BABAYEV:**

- Möhtərəm cənab Prezident, işsiz və qeyri-formal məşğul insanlar, xüsusi karantin rejimində iş yerini itirmiş insanlar ilə bağlı bir sıra digər proqramlar da var - Sizin təşəbbüsünüzlə elan edilən haqqı ödənilən ictimai iş yerləri proqramı. Bu proqramın əhəmiyyətli dərəcə artırılmasını tapşırmışdınız və əlavə 50 min ictimai iş yerinin yaradılması nəzərdə tutulmuşdur. Bu proqramın da icrasına artıq başlanıbdır. Məruzə edirəm ki, bu günədək 5 min işsiz şəxs artıq bu işlərə cəlb edilibdir, onlarla əmək müqavilələri yekun imzalanma mərhələsindədir. Biz bunu da 10 gün ərzində tam şəkildə icra etməyə çalışacağıq. Cənab Prezident, digər bir proqram özünüməşğulluq proqramıdır. Sizin tapşırıqlarınıza uyğun olaraq özünüməşğulluq proqramına həm Dünya Bankı cəlb edilibdir, həm də Azərbaycan bankları artıq fəal şəkildə qoşulubdur. Bu il biz 12 min ailə üçün mikro-təsərrüfatın yaradılmasını planlaşdırırıq. İşsizlərlə bağlı bu qədər, cənab Prezident.

**Prezident İlham ƏLİYEV:**

- Çox yaxşı. Ödənişli ictimai iş yerlərinin açılması ilə bağlı əvvəlki illərin təcrübəsinə əsaslanaraq, biz ilin əvvəlində 37 min iş yerinin açılmasını nəzərdə tuturduq. Onu da bildirməliyəm ki, artıq bu proqram 3-4 ildir həyata keçirilir. Artıq bəzi insanlar, hansılar ki, ilkin mərhələdə bu işlərə cəlb edilmişdilər, sonra daha da yüksək maaş imkanına malik başqa iş yerlərinə keçdilər. Ona görə biz bu proqramı təqribən 30-40 min ətrafında nəzərdə tuturduq. Ancaq pandemiyaya görə və işsizliyin qaçılmaz artımını nəzərə alaraq mən göstəriş vermişdim ki, biz ilkin mərhələdə bu rəqəmi 50 minə çatdıraq. Amma indi hesab edirəm ki, biz daha böyük rəqəmə çatmalıyıq və bu il 90 min ödənişli ictimai iş yeri yaradılmalıdır. Bu sahəyə də çox ciddi nəzarət olmalıdır. Bu məsələ ilə bağlı biz sizinlə əvvəllər də danışmışıq. İndi mexanizm daha şəffafdır. Çünki əfsuslar olsun ki, ilkin mərhələdə burada nəzarət sıfır səviyyəsində idi və bir çox hallarda yerli icra orqanları bundan sui-istifadə edərək, aztəminatlı təbəqə üçün nəzərdə tutulmuş vəsaiti də mənimsəyirdilər. Bu, vicdansızlığın zirvəsidir. Məhz buna və digər cinayətlərə görə artıq 3 icra başçısı həbs olunub və onların çirkin əməlləri sənədləşdirilib, ictimaiyyətə təqdim edilib. Onlar özlərini, öz əcdadlarını biabır ediblər, öz yaxınlarına, dövlətə böyük ziyan vurublar. Biz bu vəsaiti ayırırdıq ki, iş tapa bilməyən, yaxud da iş qabiliyyəti yüksək olmayan insanlar heç olmasa minimum əməkhaqqı səviyyəsində əməkhaqqı alsın, evinə çörəkpulu aparsın. Nəzərə alsaq ki, biz minimum əməkhaqqını 250 manata qaldırdıq, ancaq onu da mənimsəyib, kartları özündə saxlayıb, kartlardan pul çəkib varlanırdılar. Bu, həm cinayətdir, həm də mənəvi eybəcərlikdir. Buna başqa ad vermək olmaz. Ona görə bütün aidiyyəti orqanlar bundan sonra bu məsələyə çox böyük diqqət verməlidirlər. Mən vətəndaşlardan da xahiş edirəm, kimin ki, adı bəlkə indi də yazdırılır və əməkhaqqı almır, onlar da bu məlumatı bizə versinlər. Beləliklə, biz 90 min işsizi ictimai işlərlə təmin edəcəyik.

Özünüməşğulluq proqramına gəldikdə, biz keçən dəfə də bu məsələ ilə bağlı danışmışıq. Hesab edirəm ki, 12 min insanı bu il bu proqrama cəlb etməyimiz çox yaxşı rəqəmdir. Bizim təşəbbüsümüzlə həm Dünya Bankı bu proqrama qoşulub, həm də Azərbaycan bankları ilk dəfədir ki, bu proqrama qoşulur. Ümid edirəm, Azərbaycan bankları gələn il bu kateqoriyadan olan daha çox sayda insana kömək göstərəcəklər.

Bir də mən sizə tapşırmışdım ki, ünvanlı sosial yardımı alanların sayı artırılsın. Son müddət ərzində bu sahədə vəziyyət və artım dinamikası necədir?

Nazir **Sahil BABAYEV** dedi:

- Möhtərəm cənab Prezident, artıq 80 min ailə, 330 mindən çox fərd ünvanlı sosial yardım proqramı ilə əhatə olunubdur. Aprelin 1-i ilə müqayisədə artım 10 min ailədir və ya 36 min şəxsdir. Bu dinamika da Sizin tapşırığınıza uyğun olaraq mütəmadi şəkildə artırılacaq. Ünvanlı yardım bizim aztəminatlı ailələrimizə önəmli bir dəstək mexanizmi kimi yenə də Sizin təşəbbüsünüzlə icra ediləcəkdir.

**Prezident İlham ƏLİYEV:**

- Çox yaxşı. Eyni zamanda ayın 14-də keçirilmiş müşavirədə mən bildirdim ki, şəhid ailələrinə nəzərdə tutulmuş evlərin təmin edilməsi həyata keçirilsin. Siz də bu məsələ ilə bağlı məlumat verdiniz. Əlbəttə ki, indi karantin rejiminə görə kütləvi tədbirlər keçirilə bilməz. Ancaq bilməliyik ki, biz ilin sonuna qədər müəyyən edilmiş rəqəmə çatmalıyıq, 1500 şəhid ailəsi bu yardımdan faydalanacaq. Belə olan halda növbədə daha nə qədər ailə qalacaq? Bu barədə məlumat verin.

Nazir **Sahil BABAYEV:**

- Möhtərəm cənab Prezident, 2014-cü ildə proqramın ilkin icrasına başlanan zaman, yəni 2014-cü il yanvarın 1-nə qədər növbədə olan şəxslərdən artıq bu ilin sonuna cəmi 1500 nəfər qalacaqdır.

**Prezident İlham ƏLİYEV:**

- Yəni bu il 1500 ailə təmin olunandan sonra hələ də 1500 qalacaq. Yəqin ki, biz 1-2 ilə bu məsələni də həll edə bilərik. Beləliklə, bu kateqoriyadan olan bütün insanlara dövlət tərəfindən mənzillərin verilməsi proqramı başa çata bilər.

Eyni zamanda DOST mərkəzlərinin tikintisi ilə bağlı maraqlanmaq istərdim. Düzdür, indiki şəraitdə bu mərkəzlər fəaliyyət göstərmir. Ancaq bizim proqramımızda bu il bir neçə mərkəzin tikintisi nəzərdə tutulurdu. Karantin rejimi başa çatandan sonra bu mərkəzlər mütləq fəaliyyətə başlamalıdır. Bu sahədə hansı işlər görülüb? Çünki mən iki mərkəzin açılışında iştirak etmişəm. Ondan əlavə, neçə mərkəzin tikintisi nəzərdə tutulub bu il və hazırdırmı, yoxsa yox?

Nazir **Sahil BABAYEV:**

- Möhtərəm cənab Prezident, bu il əlavə 7 mərkəzin tikilməsi üzərində iş aparılır. Onların dördünün bu il açılması nəzərdə tutulurdu və biri artıq hazırdır. Bu, Nizami, Suraxanı və Sabunçu rayonlarını əhatə edən 3 saylı DOST mərkəzidir. Biz onu açılış üçün tam şəkildə hazırlamışıq, xüsusi karantin rejimi bitən kimi fəaliyyətə başlayacaq. Həmin mərkəzimiz gündəlik əsasda təqribən 700 insan qəbul edə biləcək və ən həssas kateqoriyadan olan insanlarımıza dəstək verəcək. Digər mərkəzlərimiz Sumqayıt şəhərində, Abşeron, Bərdə, Quba və Şəki rayonlarında planlaşdırılır. Onların da hər birinin üzərində müvafiq işlər aparılır. İnşallah, bu mərkəzlərin tikintisi sürətli şəkildə yekunlaşdırıldıqca Sizə məruzə ediləcək.

**Prezident İlham ƏLİYEV:**

- Yaxşı. İndi biz iqtisadi sahə ilə bağlı, əlbəttə, öz addımlarımızı elə atmalıyıq ki, hazırkı çətin şəraitdə iqtisadi fəallığı müəyyən mənada qoruyub saxlayaq. Hər kəs yaxşı bilir ki, demək olar bütün ölkələr indi pandemiya ilə əlaqədar öz sərhədlərini bağlayıblar, ancaq ticarət və yük daşımaları sahəsində işlər davam edir. Düzdür, indi ticarət obyektləri bağlı olduğu üçün burada tənəzzül var. Yükdaşımalarda isə vəziyyət nisbətən normaldır. Əlbəttə ki, iqtisadi sahədə apardığımız siyasət və iqtisadi sabitlik pandemiyaya qarşı mübarizədə bizə əlavə imkanlar yaradır. Bu ilin 3 ayının yekunları haqqında biz üç gün bundan əvvəl danışdıq, təkrar etmək istəmirəm. Hələ ki, müsbət dinamika var. Ancaq istisna olunmur ki, aprel, may, iyun aylarında tənəzzül müşahidə ediləcək. Çünki biz iki ayın yekunlarını üç ayın yekunları ilə müqayisə edəndə görürük ki, həm ümumi daxili məhsulda azalma var, eyni zamanda qeyri-neft sektorunda tənəzzül var. Baxmayaraq, hələ ki, biz artımı görürük, ancaq növbəti aylarda necə olacaq, əlbəttə, bu da karantin rejiminin nə vaxta qədər davam etməsinə bağlıdır. Ancaq, eyni zamanda nəzərə alın ki, karantin rejimi hələ müəyyən qədər davam edəcək. Karantin rejimi çərçivəsində biz hansı əlavə addımları atmalıyıq ki, iqtisadi fəallığı, heç olmasa müəyyən dərəcədə qoruyaq və karantin rejimi başa çatandan sonra vaxt itirmədən iqtisadi fəallığı artıraq. Ona görə mən deyəndə ki, biz karantin rejimindən mərhələli yollarla çıxmalıyıq, bu, eyni zamanda bizim iqtisadi sahəyə də aiddir. Çünki bu sahədə də sizdə artıq prioritetlər olmalıdır. Hətta mən bir daha demək istəyirəm, istisna edilmir ki, aprelin 20-dən sonra uzadılacaq karantin rejimi çərçivəsində belə biz müəyyən sahələri aça bilərik. Çünki biz indi dünya praktikasına da baxırıq, artıq bir neçə ölkədə, o cümlədən inkişaf etmiş ölkələrdə belə təşəbbüslər irəli sürülür. Ona görə ki, bu karantin rejimi hər bir ölkənin iqtisadiyyatına çox mənfi təsir göstərir və bu təsir nə qədər davam edəcək, biz bunu deyə bilmərik. Ona görə biz addımlarımızı elə atmalıyıq ki, bu müddət ərzində postkarantin rejiminə daha hazırlıqlı olaq. Hesab edirəm ki, bayaq qeyd etdiyim məsələlər öz müsbət həllini taparsa, qeyri-formal məşğulluq karantin rejimindən sonra təbii olaraq düşəcək. Çünki bu müddət ərzində on minlərlə əmək müqaviləsi bağlanmışdır və bu gün qeyri-formal sahədə işləyənlər artıq görəcəklər ki, yeganə çıxış yolu kölgə iqtisadiyyatından çıxmaqdır. Əlbəttə, qeyd etdiyim kimi, indiki şərait bundan sonra iqtisadi sahədə qanunları pozmaq istəyənlərin üzərinə çox böyük mənəvi yük qoyacaqdır. Çünki bir daha demək istəyirəm ki, indiki şəraitdə dövləti aldatmaq cəhdləri xəyanətə bərabər tutulacaqdır. Ona görə siz sahibkarlarla müntəzəm əlaqə saxlayın, o cümlədən maarifləndirmə, onların vicdanla fəaliyyət göstərməsi ilə əlaqədar mütləq təmasları davam etdirin. Bir daha onlara göstərilməlidir ki, dövlət nə qədər böyük yükü öz üzərinə götürüb. Mən indi Azərbaycanı heç kimlə müqayisə eləmək istəmirəm, amma baxın görün, bu pandemiyadan zərər çəkmiş sahələrdə işləyənlərin əməkhaqqı dövlət tərəfindən ödənilir, 300 min adamdır, az deyil. Mikrosahibkarların da sayı 300 minə yaxındır, onlara da dövlət tərəfindən vəsait ödənilir. İndi vergi güzəştləri, vergi tətilləri ilə bağlı mən göstəriş vermişəm və istəyirəm ki, siz bu məsələ ilə bağlı məlumat verəsiniz, hansı tədbirlər hazırlanıb və bu paket Milli Məclisə nə vaxt təqdim ediləcək.

İqtisadiyyat naziri **Mikayıl CABBAROV** dedi:

- Təşəkkür edirəm, möhtərəm cənab Prezident. İlk növbədə, onu vurğulamaq istərdim ki, Sizin iki tapşırığınıza uyğun olaraq biz bütün işləri planlaşdırıb həyata keçiririk. Birincisi, ilk növbədə, mövcud olan iqtisadi strukturu və məşğulluğu qorumaqdır. İkincisi, yeni şəraitdə fəaliyyəti təmin etməkdir.

Ardı 3-cü səh.

# Dövlətimiz üçün prioritet məsələ insanların sağlamlığı və sosial müdafiəsidir

## İLHAM ƏLİYEV: “Biz xalq olaraq, dövlət olaraq çətin günlərdə maksimum həmrəylik nümayiş etdiririk, bir-birimizə kömək edirik, xüsusilə aztəminatlı ailələrə kömək göstəririk”

*Əvvəli 2-ci səh.*

Operativ məlumat olaraq diqqətinizə məruzə etmək istərdim ki, pandemiyadan zərər çəkmiş müəssisələrə və fərdi, o cümlədən mikrosahibkarlara dövlətin maliyyə dəstəyinin çatdırılması prosesi uğurla gedir, proses onlayn keçirilir. İzahedici videoçarxlar, “Qaynar xətt” fəaliyyət göstərir. Bu günə olan rəqəmlər bundan ibarətdir ki, artıq 11 min 567 vergi ödəyicisinə - toplam sayda 123 min 343 nəfər muzdlu işçisi olan müəssisələrə və 22 min 949 fərdi sahibkara Maliyyə Nazirliyi və agent banklar vasitəsilə maliyyə dəstəyi göstərilib.

İkinci tapşırığınıza uyğun olaraq Vergi Məcəlləsinə dəyişikliklər paketi hazırlanıb. O, aşağıdakı hissələrdən ibarətdir və bütün dövlət qurumları ilə razılaşdırılıb. Birincisi, pandemiyanın bilavasitə təsir etdiyi fəaliyyət sahələri üzrə vergi ödəyicilərinə 2021-ci il yanvarın 1-dək olan dövr üzrə bir sıra vergi güzəştləri və vergi tətilləri təklif olunub. Burada əmlak və torpaq vergiləri üzrə tam məbləğdə vergi güzəştlərinin verilməsi, əldə edilən mənfəətin, gəlirin 75 faiz miqdarında vergi güzəşti kimi, fiziki şəxslərdən daşınmaz əmlakın icarəsi üzrə ödəmə mənbəyində tutulan verginin dərəcələrinin 50 faiz, yəni 14 faizdən 7 faizə endirilməsi, ictimai iaşə və ölkədaxili sərnişindaşıma fəaliyyəti üzrə sadələşdirilmiş vergi məbləğinə 50 faiz güzəştin verilməsi və digər tədbirlər.

İkinci istiqamət, mikrosahibkarlıq subyektlərinə 2020-ci il yanvarın 1-dən 2021-ci il yanvarın 1-dək sadələşdirilmiş vergi üzrə 50 faiz vergi güzəştinin, yəni 2 faiz dövriyyədən 1 faiz dövriyyəyə endirilməsi, həmçinin vergilərin, cari vergiödəmələrin hesablanması və ödənilməsi üzrə vergi tətillərinin verilməsi.

Nəhayət, üçüncü istiqamət, bütün sahibkarlıq subyektlərinə şamil edilməsi proqnozlaşdırılır və 2021-ci il yanvarın 1-dək olan dövr üzrə aşağıdakı vergi güzəştlərini təqdim edirik: Epidemiyanın qarşısının alınması, əhalinin həyat və sağlamlığının qorunması məqsədilə vergi ödəyiciləri tərəfindən həyata keçirilən zəruri profilaktik, o cümlədən dezinfeksiya tədbirlərinə görə çəkilmiş xərclərin məhdudiyyəti nəzərə alınmadan gəlirlərdən çıxarılması, həmçinin əhalinin bir sıra ərzaq və tibbi ehtiyacları üçün zəruri olan və siyahısı, cənab Prezident, Sizin tərəfinizdən təsdiq olunan bəzi məhsul növlərinin idxalının əlavə dəyər vergisindən müddətli azad edilməsi. Yəni bu, kifayət qədər geniş paketdir və bu paketdə artıq Siz qeyd etdiyiniz kimi, yeni rejimdə fəaliyyət göstərilməsi də müəssisələr tərəfindən nəzərə alınıb.

**Prezident İlham ƏLİYEV:**

- Sahibkarlarla bu məsələ ilə bağlı müzakirələr aparılıb?

Nazir **Mikayıl CABBAROV:**

- Möhtərəm cənab Prezident, Sizin sərəncamınıza uyğun olaraq yaradılmış işçi qruplarında sahibkarlıq subyektləri, Sahibkarlar Konfederasiyası, Azərbaycan Banklar Assosiasiyası və bütün aidiyyəti dövlət orqanlarının iştirakı ilə müzakirələr aparılıb və sahibkarların rəyi nəzərə alınıb.

**Prezident İlham ƏLİYEV:**

- Yəni sahibkarların bu təkliflər paketinə münasibəti nədən ibarətdir, bu, onları qane edir, yoxsa bundan daha böyük güzəştlər istəyirlər? Bu barədə məlumat verin.

Nazir **Mikayıl CABBAROV:**

- Möhtərəm cənab Prezident, vergi güzəştlərinə gəldikdə, bu, geniş və əhatəli vergi güzəşti paketidir. Məlum olduğu kimi, bu, yeganə dəstək mexanizmi deyil. Nümunə kimi, bu gün Maliyyə Sabitliyi Şurasında müzakirəsi gözlənilən məsələ ondan ibarətdir ki, bütün digər biznes fəaliyyətinə də pandemiyanın təsirsiz ötüşməməsini nəzərə alaraq, misal üçün, bank kreditləri olan və bank kreditlərinə də requlyativ tədbirlərin yumşaldılması. Bu, sahibkar üçün nə deməkdir? Bu, o deməkdir ki, banklara imkan verir ki, onların cari kredit ödənişlərini yumşaldır, restrukturizasiya edir, dövr verir, müddət verir. Bu iş Mərkəzi Bankın, Banklar Assosiasiyasının təşəbbüsü ilə işçi qrup çərçivəsində, aidiyyəti digər işçi qrup çərçivəsində İqtisadiyyat Nazirliyində sahibkarların iştirakı ilə həyata keçirilir. Bu qərarın da qısa müddətdə Sizin diqqətinizə təqdim edilməsi nəzərdə tutulur.

**Prezident İlham ƏLİYEV:**

- Yaxşı. Verdiyim tapşırıqları operativ, şəffaf şəkildə yerinə yetirmək lazımdır. Əminəm ki, bu tədbirlərin görülməsi nəticəsində biz həm əhalinin sosial müdafiəsini gücləndirəcəyik, eyni zamanda sahibkarlara əlavə dəstək verəcəyik və ən önəmlisi, insanların həyatını, sağlamlığını qoruyacağıq.

Əminəm ki, Azərbaycan xalqı karantinin uzadılmasını düzgün başa düşəcək. Bir daha demək istəyirəm ki, bu, hər birimiz üçün böyük çətinliklər törədir. Ancaq insanların sağlamlığı, həyatı hər şeydən üstündür. Nə qədər lazımdır, dözməliyik. Onu da bildirməliyəm ki, insanların vəziyyətini yaxşılaşdırmaq üçün çox böyük sosial və iqtisadi paket təqdim olunur. Əvvəlki dövrlərdə 1 milyard manat məbləğində dəyərləndirilirdi, ondan sonra 2,5 milyard manat həcmində dəyərləndirilirdi. İndi verdiyim tapşırıqlar nəticəsində bu iqtisadi paket 3 milyard manatı, bəlkə də 3,5 milyard manatı ötəcək. Nə qədər lazımdır, biz bunu edəcəyik. Azərbaycan bütün imkanları səfərbər edib ki, bu vəziyyətdən az itkilərlə çıxsın, insanların həyatını qorusun və postpandemiya dövrünə hazır olsun. Əminəm ki, biz bunu təmin edəcəyik. Sağ olun.

---

# “Azərbaycan Respublikası Hökuməti ilə Bolqarıstan Respublikası Hökuməti arasında pensiya təminatı haqqında” Sazişin təsdiq edilməsi barədə

## Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 95-ci maddəsinin I hissəsinin 4-cü bəndini rəhbər tutaraq **qərara alır:**

“Azərbaycan Respublikası Hökuməti ilə Bolqarıstan Respublikası Hökuməti arasında pensiya təminatı haqqında” 2019-cu il noyabrın 6-da Bakı şəhərində imzalanmış Saziş təsdiq edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 30 mart 2020-ci il*

---

# A.Ə.Məmmədovun “Şöhrət” ordeni ilə təltif edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikasında mülki aviasiyanın inkişafında xüsusi xidmətlərinə görə Arif Əhməd oğlu Məmmədov “Şöhrət” ordeni ilə təltif edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 17 aprel 2020-ci il*

---

# Azərbaycan Respublikası Hökuməti ilə Rusiya Federasiyası Hökuməti arasında gənclər siyasəti sahəsində əməkdaşlıq haqqında Sazişin təsdiq edilməsi barədə

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 17-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Azərbaycan Respublikası Hökuməti ilə Rusiya Federasiyası Hökuməti arasında gənclər siyasəti sahəsində əməkdaşlıq haqqında 2019-cu il noyabrın 14-də Bakı şəhərində imzalanmış Saziş təsdiq edilsin.

2. Bu Fərmanın 1-ci hissəsində göstərilən Saziş qüvvəyə mindikdən sonra Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyi onun müddəalarının həyata keçirilməsini təmin etsin.

3. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi Sazişin qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirildiyi barədə Rusiya Federasiyası Hökumətinə bildiriş göndərsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 17 aprel 2020-ci il*

---

# Azərbaycan vətəndaşlarının 94.5 faizi Prezident İlham Əliyevə inanır və etimad göstərir

*Əvvəli 1-ci səh.*

Sosioloji sorğu əsaslı bu analitik hesabatın məqsədi bəhs edilən müddətdə dövlət başçısının daxili və xarici siyasətinin başlıca məqamları, ölkədəki ictimai-siyasi proseslərin vəziyyəti ilə bağlı xalqımızın rəyinin operativ öyrənilməsi, qanunverici, icraedici hakimiyyət və hüquq-mühafizə sistemində gedən proseslərə cəmiyyətin münasibətini çevik dəyərləndirməklə ümumi mənzərənin göz önündə canlandırılması, müvafiq qərarların qəbulunda mötəbər mənbə kimi həm də ictimai rəyə istinad edilməsinə şərait yaratmaqdır.

Rəy sorğusunda dövlət başçısının həm daxili, həm də xarici siyasət sahəsində çoxşaxəli fəaliyyətini izləməyə imkan verən, siyasi təqvimdə tarixi əhəmiyyətə və xüsusi çəkiyə malik olan, rəsmi xronikada, eləcə də yerli və xarici mediada geniş işıqlandırılan hadisələr əksini tapıb.

2020-ci ilin yanvar-mart ayları ərzində də, həmişə olduğu kimi, Azərbaycanın dövlət başçısının fəaliyyətində yerli və beynəlxalq ictimai rəydə gündəmə çevrilən və yadda qalan hadisələr baş verib. Bu hadisələr Prezident İlham Əliyevin dövlətçiliyin gücləndirilməsi naminə daxili və xarici siyasət sahəsində həyata keçirdiyi fəaliyyəti diqqət mərkəzinə gətirməklə yanaşı, ona olan inam və etibarın daha da yüksəlməsini təmin edib.

Beləliklə, 2020-ci ilin birinci rübü ərzində Prezident İlham Əliyevin daxili və xarici siyasət sahəsində həyata keçirdiyi fəaliyyətə ictimai rəyin münasibətinin və Prezidentə inam indeksinin öyrənilməsi üçün Sosial Tədqiqatlar Mərkəzi (STM) tərəfindən keçirilən sorğunun nəticələri ən qısa şəkildə belə ifadə edilə bilər:

Bütün dünyada neft qiymətlərinin aşağı düşməsi, beynəlxalq geosiyasi qarşıdurmaların kəskinləşməsi, II Dünya müharibəsindən sonra dünyada ilk dəfə ən dərin sosial, siyasi, iqtisadi böhran vəziyyətini yaradan yeni qlobal pandemiyanın sürətlə yayılması fonunda Prezident İlham Əliyevə cəmiyyətin inam və etibarı, onun həyata keçirdiyi düzgün siyasət nəticəsində daha da artıb, xalqımızın rifahı və firavanlığının daha da yaxşılaşmasına yönələn islahatlar kursuna dəstək yüksələn xətt üzrə gedir.

Təqdim edilən “İnam indeksi” ictimai rəy sorğusuna əsaslanan analitik hesabat həmin qənaəti təsdiq edir.

### Sorğunun metodoloji prinsipləri

■ Keçirilən ictimai rəy sorğusunda ümumilikdə 1212 respondent iştirak edib.

■ İctimai rəy sorğusu klaster seçmə metoduna əsaslanıb. Ümumilikdə, ölkə üzrə seçilmiş ünvanlarda 101 klaster təsadüfi seçim əsasında müəyyən edilib və hər birində sorğuda iştirak etməyə müsbət cavab verən ilk 12 nəfər əsas seçimə daxil edilib.

■ Sorğuda iştirak üçün ailədə doğum günü sorğu keçirilən vaxta yaxın olan şəxs seçilib.

■ Sorğunun nəticələri 95 faiz əminlik intervalı, statistik xəta əmsalının 3 faiz olması nəzərə alınaraq təhlil edilib.

■ Sahə işi 2020-ci ilin mart ayı ərzində keçirilib.

Regionlar. Sorğu aşağıdakı iqtisadi-coğrafi rayonlarda həyata keçirilib: Bakı, Abşeron, Quba-Xaçmaz, Dağlıq Şirvan, Şəki-Zaqatala, Aran, Gəncə-Qazax, Yuxarı Qarabağ, Lənkəran. Sorğu Naxçıvan Muxtar Respublikasında və işğal edilmiş regionların ərazisi istisna olmaqla bütün ölkəni əhatə edib. Eyni zamanda, işğal edilmiş rayonların etnik azərbaycanlı əhali qrupu da sorğuya cəlb olunub.

### Nəticə

■ 2020-ci ilin birinci rübü ərzində Prezident İlham Əliyevin daxili və xarici siyasət sahəsində həyata keçirdiyi fəaliyyətə ictimai rəyin münasibətinin, Prezidentə “İnam indeksi”nin öyrənilməsi ilə bağlı keçirilmiş sorğunun nəticələrinin təhlili göstərir ki, Prezident İlham Əliyevə cəmiyyətin inam və etibarı, onun həyata keçirdiyi düzgün siyasət nəticəsində daha da artıb, xalqımızın rifahı və firavanlığının daha da yaxşılaşmasına yönələn islahatlar kursuna dəstək yüksələn xətt üzrə davam edib.

■ Hakimiyyətin digər qolları (qanunverici və məhkəmə hakimiyyəti) ilə müqayisədə respondentlərin mütləq əksəriyyəti (94.7 faiz) Prezidentə etibar edir.

■ Prezidentə “tam etibar edirəm” deyənlər respondentlərin mütləq çoxluğunu (90.8 faiz) təşkil edir.

■ Respondentlərin 57.4 faizi parlamentə, 46.2 faizi yerli icra hakimiyyətinə, 49 faizi məhkəməyə etibar edir. Bu üç hakimiyyət qolu içərisində ən aşağı etibarlılıq icra hakimiyyətinədir. Bu, onu deməyə əsas verir ki, ölkə əhalisi hakimiyyətin digər strukturları ilə müqayisədə Prezidentə daha çox etibar edir.

■ Ölkə başçısının hərbi, siyasi və sosial-iqtisadi sahələrdəki fəaliyyəti ümumilikdə böyük əksəriyyət tərəfindən müsbət dəyərləndirilib. Prezidentin ordu quruculuğu və silahlı qüvvələrin modernləşdirilməsi (96 faiz) və xarici siyasət (95 faiz) sahələrindəki fəaliyyəti respondentlərin mütləq əksəriyyəti tərəfindən daha çox müsbət qiymətləndirilir.




■ 2019-cu ildə keçirilən tədqiqatın nəticələri ilə yeni nəticələri müqayisə etdikdə aydın olur ki, keçən bir neçə ay ərzində Prezidentin müxtəlif sahələrdəki fəaliyyətinə əhalinin münasibəti müsbətə doğru daha da yüksəlib. Digər önəmli məqam odur ki, Prezidentin müxtəlif istiqamətlərdəki fəaliyyətini “çox yaxşı” qiymətləndirənlər nəzərəçarpacaq dərəcədə artıb.

■ Əhalinin gündəlik həyatına birbaşa təsir edən, yaxud təsiri hiss edilən məsələlərin sosial-iqtisadi sahədə korrupsiyaya qarşı mübarizə səviyyəsinin ictimai rəydə qiymətləndirilməsinin nisbətən aşağı olması bu sahənin, eləcə də işsizlik və sosial vəziyyətin yaxşılaşdırılması kimi məsələlərin yaxın dövr üçün dövlət siyasətinin əsas hədəflərindən biri kimi qalmalı olduğuna dəlalət edir.

■ 2020-ci ilin fevral ayında Münxen Təhlükəsizlik Konfransındakı çıxışında (“Valday” Beynəlxalq Diskussiya Klubunda Prezidentin çıxışının davamı kimi) Ermənistanın baş nazirini və işğalçılıq siyasətini tarixi həqiqətlərlə ifşa etməsi ictimai rəydə vətəndaşların Prezidentə olan münasibətinə müsbət təsir göstərməklə bərabər, ərazi bütövlüyümüzün bərpa edilməsinə olan inamı da yüksəltmişdir.

■ Prezidentin Münxen Təhlükəsizlik Konfransındakı çıxışı Ermənistanın baş nazirinin növbəti dəfə aciz duruma düşməsi (56.7 faiz), Prezidentin növbəti diplomatik qələbəsi (48.5 faiz), Dağlıq Qarabağ probleminin həlli istiqamətində yeni bir mərhələ (44.3 faiz ) kimi qiymətləndirilib.

■ Rəyi öyrənilən respondentlərin əhəmiyyətli bir hissəsi (75,9 faizi) dünya neft bazarlarındakı volatillik fonunda valyuta məzənnəsinin sabit saxlanılması istiqamətində həyata keçirilən məqsədyönlü tədbirləri əhəmiyyətli dərəcədə səmərəli hesab edir.

■ Ölkədə maliyyə-bank sektorundakı sabitliyin təmini ilə bağlı nəticə əsaslı tədbirləri müvafiq olaraq respondentlərin 63,1 faizi kifayət qədər səmərəli hesab edir.

■ COVID-19 pandemiyasının və eləcə də qlobal neft böhranının (neft qiymətlərindəki kəskin eniş) dərinləşdiyi bir dövrdə ölkədə ərzaq təhlükəsizliyi ilə təminat sahəsində reallaşdırılmış genişmiqyaslı işləri vətəndaşlar yüksək dəyərləndirir (87.8 faiz).

■ Rəyi öyrənilənlərin 87.8 faizi müvafiq dövlət qurumlarının sosial-iqtisadi islahatlarla bağlı ictimaiyyəti periodik məlumatlandırmasını səmərəli qiymətləndirir.

■ 89.2 faiz respondent ölkə Prezidentinin milli genofondun qorunması, sosial səhiyyə və sağlamlığın daha da möhkəmləndirilməsi məsələlərinə xüsusi həssaslıqla yanaşmasını, daima diqqət mərkəzində saxlamasını olduqca yüksək qiymətləndirərək bu istiqamətdə dövlət siyasətini təqdir edir.

■ Respondentlərin mütləq əksəriyyəti (93 faiz) dövlətin koronavirusla bağlı ilkin mərhələdə həyata keçirdiyi tədbirləri müsbət dəyərləndirərək yetərli sayır.

■ Respondentlərin böyük əksəriyyəti (87.8 faiz) pandemiyanın mövcud olduğu vəziyyətdə hər hansı problemlə qarşılaşdığı zaman dövlətin onlara dəstək göstərəcəyinə inanır.

■ Respondentlərin böyük əksəriyyəti pandemiyaya qarşı mübarizə tədbirləri çərçivəsində atılan addımlara karantin məhdudiyyətlərinin tətbiq edilməsinə, bir sıra qonşu ölkələrlə sərhədlərin bağlanmasına (85.6 faiz), kütləvi tədbirlərin qadağan edilməsinə (84 faiz) tədrisin dayandırılmasına (82.4 faiz) daha müsbət münasibət bildirib.

■ Ümumilikdə, respondentlərin mütləq əksəriyyəti (92.8 faiz) ictimai qınağa səbəb olan hadisələrə Prezidentin reaksiyası ilə həmrəydir.

■ Respondentlərin əksəriyyəti (88.9 faiz) yerlərdə baş verənlər barədə Prezidentin ümumilikdə məlumatlı olması fikrindədirlər. Lakin nə dərəcədə məlumatlı olub-olmaması barədəki fikri birmənalı deyil - “tam məlumatlıdır” (44.3 faiz) və “qismən məlumatlıdır” (44.6 faiz) cavablarını seçənlərin çəkisi demək olar ki, eynidir.

■ Qeyd etmək lazım gəlir ki, respondentlərin 10 faizinin Prezidentin yerlərdə baş verənlər barədə tam məlumatsız olduğunu hesab etməsi düşündürücü məqamdır. Bu nəticəyə əsasən ölkə rəhbərinin çıxışlarında tez-tez vurğuladığı ictimai nəzarətin vacibliyi ilə bağlı fikrinin əhəmiyyətli olduğunu bir daha görə bilərik. Sorğunun nəticəsi bunu da deməyə əsas verir ki, yerlərdə gedən proseslərin və mövcud problemlərin ən yuxarı instansiyalara çatdırılması mexanizmlərinin bir daha nəzərdən keçirilməsinə, təkmilləşdirilməsinə ehtiyac var. Məsələn, vətəndaşların müraciətlərinin müvafiq ünvana çatmaması bu cəhətdən əsas problemlərdən biridir.

■ Respondentlərin nəzərində Prezidentin yerlərdə baş verənlərlə bağlı məlumatlılığı onun qərar qəbul etməsində əsasən qanunazidd hərəkətlərə yol verən məmurların cəzalandırılmasında (67.5 faiz), korrupsiyaya qarşı mübarizədə (48.7 faiz) və kadr islahatlarında (43.2 faiz) özünü büruzə verir.

■ Sosial problemlərin həllində və onlara çevik reaksiya verilməsində Prezidentin məlumatlılıq səviyyəsinin mühüm əhəmiyyətə malik olmasını yalnız hər üç respondentdən birinin ifadə etməsi düşündürücü məqam hesab edilə bilər.

■ Əhalinin böyük əksəriyyəti (81.8 faiz) “tam əminliklə” bu qənaətdədir ki, yerli icra hakimiyyəti başçılarının Prezident tərəfindən vəzifədən azad edilməsində ictimai fikrin birbaşa təsiri var. Bu fikirdə olanların ümumi göstəricisi isə 95.2 faiz təşkil edir. Əhali arasında belə qənaətin yayılması Prezident-vətəndaş münasibəti cəhətdən müsbət səciyyələndirilə bilər.

■ Ümumilikdə, respondentlərin üçdə ikisindən bir qədər çox hissəsi ölkə rəhbərinin ictimai qınağa səbəb olan məsələlərə reaksiyasından tam razıdırsa, dörddə biri qismən razıdır. Nəticələrə əsasən, insanlar ölkə başçısının özünün fəaliyyətində ictimai rəyə həssas olduğunu düşünür.

■ İslahatlar və korrupsiyaya qarşı mübarizə siyasəti çərçivəsində Dövlət Təhlükəsizlik Xidməti tərəfindən yerli icra başçılarına qarşı aparılan əməliyyatlar xüsusilə regionlarda yaşayan vətəndaşlarda müsbət gözləntilərin yaranmasına səbəb olub. Bəzi hallarda vəziyyətin dəyişməyəcəyi, məmur özbaşınalığının davam edəcəyini düşünənlərin belə fikirləri dəyişməkdədir. İnsanlar bu kimi addımları da islahatların əsas qolu kimi qiymətləndirir və bunun davamlı olmasını arzulayırlar.

■ Həmçinin Prezidentin etimadını doğrultmayan məmurların bu şəkildə cəzalandırılması onu göstərir ki, islahatlar dönməz və ardıcıl xarakter daşıyır, xalqa xidmət fəaliyyətin yeganə meyarıdır. Eləcə də, qanun qarşısında hər kəs bərabərdir. İnsanlarda da qanunun aliliyinə inam artmaqdadır.

■ Respondentlərin yarıdan çoxu (54.4 faiz) bu əməliyyatlardan sonra rayon icra hakimiyyəti başçılarının korrupsiyaya yol verməkdən çəkinəcəyini düşünür. Bir o qədər də respondentdə vətəndaşların qanunun aliliyinə inamının artacağı gözləntisi (50.3 faiz) var.

■ Respondentlərin əksəriyyəti (85 faiz) Dövlət Təhlükəsizlik Xidməti tərəfindən aparılan əməliyyatların Prezidentin imicinə müsbət təsir etdiyini düşünür. Vəzifələrindən sui-istifadə edən məmurların cəzalandırılaraq vəzifədən uzaqlaşdırılması başlanan islahatlara heç kimin mane ola bilməyəcəyini göstərir.

■ Həyata keçirilən kadr dəyişiklikləri vətəndaşların əsaslı hissəsinin nəzərində Prezidentin nüfuzuna müsbət təsir göstərən əsas amillərdən biridir.

■ Respondentlərin mütləq əksəriyyəti (91 faiz) son dövrlər yerli icra hakimiyyəti orqanlarına daha gənc kadrların təyin olunmasını bu və ya digər dərəcədə müsbət (75.2 faiz “çox yaxşı”, 15.8 faiz “əsasən yaxşı”) qiymətləndirir.

■ Respondentlərin əhəmiyyətli hissəsi (63.9 faiz) Milli Məclisin yeni tərkibinin Prezidentin islahatlar kursuna dəstək və töhfə verə biləcəyini düşündüyü halda, 21.1 faiz respondent bu haqda fikir bildirməkdə çətinlik çəkib.

■ Respondentlər Prezidentin təhlükəsizlik orqanlarında həyata keçirdiyi kadr dəyişikliklərinin ümumi islahatların effektivliyinə (79.5 faiz), milli təhlükəsizliyin gücləndirilməsinə (85.5 faiz), xalqın təhlükəsizlik orqanlarına olan inamına (81.9 faiz) müsbət təsir edəcəyi fikrindədir.

■ “Hansı sahədə daha çox islahatlara ehtiyac var?” sualına verilən cavablara əsasən deyə bilərik ki, icra hakimiyyəti (53.7 faiz) və məhkəmə (45.7 faiz) hakimiyyətində islahatların olması əhali tərəfindən ən çox ehtiyac duyulandır. İcra hakimiyyəti sahəsində islahatların vacibliyini deyənlər içərisində icra hakimiyyətinə etibar etməyənlər üstünlük təşkil edir. Bu nəticə onu deməyə əsas verir ki, hələ də yerlərdə icra hakimiyyətlərinin fəaliyyətləri qənaətbəxş deyil və vətəndaşlar tərəfindən səmərəli qiymətləndirilmir.

■ Respondentlərin təxminən yarısının məhkəmə sahəsində də islahatların zəruriliyini bildirməsi bu istiqamətdə də islahatların aparılmasının vətəndaşların gözləntisində olduğunu göstərir. Yuxarıda da qeyd edildiyi kimi, məhkəmələrə etibar əhali arasında o qədər də yüksək deyil (49 faiz). Bu iki fikir arasındakı əlaqəyə baxdıqda aydın olur ki, məhkəmələrdə islahatların olmasını istəyənlər içərisində məhkəmə orqanlarına etibar etməyənlər üstünlük təşkil edir.

■ Digər iki sahə ilə müqayisədə respondentlər qanunverici sahədə (24.5 faiz) islahatların vacibliyinə daha az ehtiyac duyur. Bu, qanunverici hakimiyyətdə köklü islahatların 2020-ci ildə aparılması ilə bağlı ola bilər. Həmçinin, respondentlərin əhəmiyyətli hissəsi parlamentin yeni tərkibinin Prezidentin islahatlar kursuna dəstək verəcəyi fikrindədir. Bu məqam da, yuxarıda vurğulandığı kimi, ictimai rəydə parlamentin yeni tərkibi ilə bağlı gözləntilərin olması ilə izah edilə bilər.

■ Rəyi soruşulanların 77.6 faizinin nəzərində “Prezidentin çıxışlarında bütün hakimiyyət təmsilçilərinə xalqa xidmət etməyi və xalqa yaxın olmağı tapşırması” ölkə başçısının nüfuzuna “ən çox təsir” göstərən amil kimi irəli çıxır ki, bu da məmurların cəzalandırılması və kadr dəyişikliklərinin vətəndaşlar üçün yüksək əhəmiyyət kəsb etdiyini göstərir.

■ Təsir dərəcəsinə görə növbəti pillələrdə “xalqa xidmət etməyən məmurlara qarşı qətiyyətli davranışı” (71.8 faiz), “xalqın içərisində olması” (71.6 faiz) və “sadə və təvazökar olması” (71.3 faiz) amilləri dayanır.

■ Respondentlərin mütləq əksəriyyəti (94.2 faiz) Prezidentin öz sadəliyi və təvazökarlığı ilə məmurlara örnək olması fikrindədir. Ölkə başçısının bir çox tədbirlərdə, görüşlərdə olan davranışları, səmimi ünsiyyəti, insanları sonadək dinləməsi vətəndaşlarda bu fikri formalaşdırır.

■ 2020-ci ilin birinci rübündə vətəndaşların Prezidentə olan inam və etimadının dinamikasına baxdıqda aydın olur ki, bu istiqamətdə yüksəlmə var. Belə ki, STM tərəfindən 2019-cu ildə keçirilən “Prezidentin fəaliyyəti ictimai rəydə” İnam İndeksində oktyabr ayı üzrə bu göstərici 54.6 faiz idisə, mart ayında bununla müqayisədə göstərici 58.1 faizdir. Ümumilikdə 2020-ci ilin mart ayına olan göstəricilərə əsasən deyə bilərik ki, respondentlərin mütləq əksəriyyəti (94.5 faizi) ölkə başçısına inanır və etimad göstərir.

■ Vətəndaşlar Prezidentin fəaliyyəti ilə bağlı məlumatları televiziyadan (81.1 faiz) və sosial şəbəkələrdən (41.7 faiz) alırlar. Prezident.az saytından (7.3 faiz) və Prezidentin sosial şəbəkə hesablarından (8.4 faiz) istifadə göstəricisi o qədər də yüksək deyil. Respondentlərin demoqrafik təhlili göstərir ki, hər iki elektron ünvana ali təhsilli şəxslər və Bakıda yaşayanlar daha çox daxil olur.

■ Vətəndaşların digər sosial şəbəkələrdən deyil, birbaşa mənbənin özündən Prezidentin sosial şəbəkə hesablarından məlumat alması daha düzgün informasiyaya çıxış baxımından səmərəli sayıla bilər.

# İlham Əliyevin Milli Məclisin işi ilə bağlı verdiyi tövsiyələr bundan sonra da ardıcıl yerinə yetiriləcək

**Sahibə QAFAROVA:** "Parlament Azərbaycanın dayanıqlı inkişafının təmin edilməsinə yönələn strateji xəttin həyata keçirilməsinə öz töhfəsini verəcək"

*Əvvəli 1-ci səh.*

Məmnunluqla qeyd olunmalıdır ki, birinci rübün göstəricilərinə görə ölkə iqtisadiyyatının əldə etdiyi nəticələr bütövlükdə müsbətdir.

Əlbəttə, dünyanın bütün ölkələrində yaşanan koronavirus pandemiyası Azərbaycandan da yan keçməmişdir və sosial-iqtisadi həyatımıza mənfi təsir göstərməkdə davam edir. Amma mən əminəm ki, həyata keçirilən qabaqlayıcı tədbirlər və düşünülmüş siyasət həm insanlarımızın sağlamlığını qorumağa, həm də iqtisadiyyatımıza dəyən ziyanın sürətlə aradan qaldırılmasına imkan verəcəkdir".

Milli Məclisin Sədri bildirdi ki, cənab Prezident öz çıxışında ölkədə struktur islahatlarının davam etdirilməsi məsələlərinə də toxundu, icra orqanlarında, parlamentdə aparılan kadr dəyişikliklərini qeyd etdi: "Dövlət başçısı belə bir fikri də ifadə etdi ki, Prezident Administrasiyasında, Nazirlər Kabinetində və Milli Məclisdə aparılan ciddi islahatlar nəticəsində ölkəmiz indi yeni inkişaf mərhələsinə inamla qədəm qoyur və idarəetmədə təkmilləşmə göz qabağındadır.

Mən əmin etmək istəyirəm ki, altıncı çağırış Milli Məclisin birinci iclasında Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin Milli Məclisin işi ilə bağlı verdiyi tövsiyələr bundan sonra da ardıcıl yerinə yetiriləcək və ölkə parlamenti Azərbaycanın dayanıqlı inkişafının təmin edilməsinə yönələn strateji xəttin həyata keçirilməsinə öz töhfəsini verəcəkdir".

## AŞ PA-nın saxta seçkilərə münasibət bildirməməsi qəbulolunmazdır

Müşavirədə cənab Prezident beynəlxalq ictimaiyyətin gündəmində olan bir çox mühüm məsələlərlə bağlı əsaslandırılmış, ciddi arqumentlərə söykənən münasibətini diqqətə çatdırdı. O cümlədən Avropa Şurası Parlament Assambleyasının Azərbaycanın işğal olunmuş ərazilərində yaradılmış qondarma, cinayətkar rejimin keçirdiyi saxta seçkilərə münasibət bildirməməsini haqlı olaraq kəskin tənqid etdi. Bu barədə danışan Sahibə Qafarova dedi: "Hörmətli həmkarlar, siz bilirsiniz ki, mən son on il AŞPA-da Azərbaycan nümayəndə heyətinin üzvü olmuşam, həmin qurumun Büro üzvü və Komitə sədri kimi fəaliyyət göstərmişəm. Bu dövr ərzində mən və mənim hörmətli həmkarlarım bir çox hallarda qurumda ölkəmizə qarşı qərəzli münasibətin şahidi olmuşuq. Avropa Şurası Parlament Assambleyasında cəmləşmiş ermənipərəst dairələrin Azərbaycana böhtan atmaq, ölkəmizi nüfuzdan salmaq üçün saxta qətnamələr və qərarlar qəbul etmək, Azərbaycanı qaralamaq cəhdlərini dəfələrlə müşahidə etmişik. Bəzən təşkilatdakı antiazərbaycan, ermənipərəst qüvvələr ermənilərdən də artıq onların maraqlarını müdafiə ediblər.

Bu gün isə Parlament Assambleyasının qondarma "Dağlıq Qarabağ"dakı cinayətkar rejimin keçirdiyi saxta seçkilərə münasibət bildirməməsi, susqunluq nümayiş etdirməsi qəbulolunmazdır. Hesab edirəm ki, bu, həm də beynəlxalq hüquqa qarşı çox böyük hörmətsizlikdir. Ona görə də biz AŞ PA-nın bu davranışını qəti şəkildə pisləyirik və bununla əlaqədar Milli Məclis tərəfindən Avropa Şurası Parlament Assambleyasına etiraz məktubu göndərilmişdir".

## Dövlətə qarşı düşmənçilik edənlərin məqsədi ölkədə gərginlik yaratmaqdır

Müşavirədəki nitqində Prezident İlham Əliyevin ölkəmizdə yeni formalaşan siyasi konfiqurasiyanın və siyasi dialoq mühitinin gücləndirilməsi istiqamətində atılan addımları təqdir etməsinə münasibət bildirən Sahibə Qafarova dedi: "Azərbaycanda milli mənafedən, dövlətçilik maraqlarından çıxış edən bütün sağlam müxalifət partiyaları bu dialoqda iştirak edir, prosesə töhfə vermək üçün müvafiq addımlar atırlar. Çox təəssüf ki, hər zaman Azərbaycan dövlətçiliyinə, müstəqilliyimizə qarşı çıxış edən bəzi marginal qruplar bu dialoqdan imtina edərək xarici amilə bel bağlayıblar. Dövlətə qarşı düşmənçilik edən belə qrupların əsl məqsədi ölkəmizdə gərginlik yaratmaqdır. Özlərinə radikal müxalifət adını verən bu cür dağıdıcı qüvvələr hətta bütün bəşəriyyəti sarsıdan pandemiyadan və koronavirusdan belə öz məkrli niyyətlərini həyata keçirmək üçün istifadə etmək istəyirlər. Təbii ki, Azərbaycan cəmiyyəti, xalqımız bu cür davranışları görür və onların qeyri-sağlam, antimilli fəaliyyətini qətiyyətlə pisləyir. Azərbaycan xalqının mövqeyi bu yöndədir ki, ölkəmizdə yeni formalaşan siyasi konfiqurasiyada belə qüvvələrə yer yoxdur".

## Milli Məclis Mehriban Əliyevanın təşəbbüsünə qoşulur

Sahibə Qafarova onu da bildirdi ki, Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın təşəbbüsü ilə xeyirxah bir kampaniya başlanmışdır: "Xəstə insanlara kömək üçün qanvermə aksiyaları keçirilir. Mən belə düşünürəm ki, Milli Məclis də bu təşəbbüsə qoşulmalıdır. Biz bunun üçün Milli Məclisdə xüsusi yer ayırmışıq və həkim briqadası dəvət etmişik. Sabah (bu gün) Milli Məclisin binasında Milli Məclisin deputatları və Aparatın əməkdaşları könüllü qan verə bilərlər".

O da diqqətə çatdırıldı ki, ötən iclasda Nazirlər Kabinetinin hesabatı dinlənildi. Ölkədə yaranmış epidemioloji vəziyyətlə əlaqədar olaraq Azərbaycan Respublikası Baş Nazirinin məruzəsi videoyazı şəklində təqdim edildi. Milli Məclisin iclasının bu hissəsinin stenoqramı və videoyazısı, eləcə də çıxış edə bilməmiş 31 deputatın çıxışlarının və suallarının yazılı mətnləri Nazirlər Kabinetinə göndərilib. Sahibə Qafarova bildirdi ki, əgər kiminsə əlavə çıxışı, təklifi və ya sualı varsa, onu Nazirlər Kabinetinə göndərmək üçün bizə təqdim etsin.





Fotolar AZƏRTACındır

## Bələdiyyə üzvlərinin 39,9 faizi gənclər, 38,8 faizi qadınlardır

Sonra gündəlikdəki məsələlərin müzakirəsi başladı. Əvvəlcə bələdiyyələrin fəaliyyətinə inzibati nəzarəti həyata keçirən orqanın illik məruzəsi dinlənildi. Məruzəni ədliyyə nazirinin müavini Vilayət Zahirov diqqətə çatdırdı. 2019-cu ildə sosial-iqtisadi tərəqqinin təmin olunduğunu deyən Vilayət Zahirov ölkə həyatının bütün sahələrində olduğu kimi, yerli demokratiyanın inkişafında da uğurların əldə edildiyini bildirdi. Yerli özünüidarəetmənin təşkili və bələdiyyələrin formalaşmasının 20 ilinin tamam olması, eləcə də növbəti bələdiyyə seçkilərinin keçirilməsi ölkəmizin ictimai-siyasi həyatında baş verən mühüm hadisələrdəndir.

Qeyd olundu ki, son seçkilər nəticəsində 1597 bələdiyyə üzrə 15075 bələdiyyə üzvü seçilib. Onlardan 5847 nəfər (38,8 faiz) qadınlar, 6012 (39,9 faiz) nəfər gənclərdir. Bələdiyyə üzvlərinin tərkibinin xeyli hissəsinin yeniləndiyi nəzərə alınaraq məqsədyönlü hüquqi maarifləndirmə işinin aparılması üçün xüsusi tədbirlər planı hazırlanaraq həyata keçirilib. "Bələdiyyələrin statusu haqqında" qanuna edilmiş dəyişikliyə əsasən, bələdiyyələrin fəaliyyətinin təşkilinə kömək və onlara metodoloji yardım göstərilməsinin hüquqi əsası ilk dəfə qanunla təsbit olunub.

Ötən il Ədliyyə Nazirliyi tərəfindən yerli özünüidarəetmə məsələləri ilə bağlı bir sıra normativ hüquqi aktların layihələri hazırlanıb və başqa tədbirlər görülüb. "Azərbaycan ədliyyəsinin inkişafına dair 2019-2023-cü illər üçün Dövlət Proqramı"nın icrası məqsədilə hazırlanmış "Bələdiyyələrin fəaliyyətinə inzibati nəzarət haqqında Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" qanun layihəsi baxılması üçün Nazirlər Kabinetinə göndərilib. Ədliyyə Nazirliyi Kollegiyasının qərarı ilə "Bələdiyyələrin fəaliyyətinə inzibati nəzarətin təşkili haqqında" Təlimatda dəyişikliklər edilərək müvafiq qanuna uyğunlaşdırılıb.

İl ərzində 80261 (ötən illə müqayisədə 11 faiz çox) bələdiyyə aktı, o cümlədən Naxçıvan Muxtar Respublikasının Ədliyyə Nazirliyində 1796 akt hüquqi ekspertizadan keçirilib. 77427 akt qanunvericiliyə uyğun hesab edilib. Normativ hüquqi aktların tələblərinə zidd olan 2765 aktın dəyişdirilməsi və ya ləğv edilməsi üçün aidiyyəti bələdiyyələrə təkliflər verilib. Bu təkliflər əsasında bələdiyyələr tərəfindən 1285 akt ləğv edilib, 1274 akt dəyişdirilib.

Bələdiyyələr tərəfindən təmin olunmayan 19 təklif üzrə məhkəmələrdə iddia qaldırılıb, onlardan 8-i məhkəmə tərəfindən təmin edilib, 11 iddia isə hesabat ilinin sonuna məhkəmə icraatında olub. Qanunsuz verilmiş 7019 ha torpaq sahəsinin bələdiyyə mülkiyyətinə və ya sahibliyinə qaytarılması təmin edilib (ötən illə müqayisədə 18,5 faiz çox).

## 112 bələdiyyə sədri inzibati məsuliyyətə cəlb edilib

Bələdiyyə aktının ekspertiza üçün vaxtında təqdim edilməməsinə görə bələdiyyələrin vəzifəli şəxsləri barəsində 131 (2018-ci ildə 143) inzibati xəta haqqında protokol tərtib edilərək məhkəmələrə göndərilib, 112 bələdiyyə sədri inzibati məsuliyyətə cəlb edilib, 19 protokol isə ilin sonunda məhkəmə icraatında olub. Aparılmış 24 inzibati araşdırma üzrə toplanmış materiallar hüquqi qiymət verilməsi üçün prokurorluq orqanlarına göndərilib. 17 material üzrə cinayət işi başlanılıb, 1-i üzrə cinayət işinin başlanması rədd edilib, digərləri isə baxılmaqdadır.

Bələdiyyələrin fəaliyyəti ilə bağlı daxil olmuş 3304 müraciətdən 140-ı təmin və ya qismən təmin olunub (ötən illə müqayisədə 71 faiz çox). Hüquq pozuntularının və nöqsanların aradan qaldırılması və ya təkrar törədilməsinin qarşısının alınmasına önəm verilərək ayrı-ayrı bələdiyyələrə müxtəlif məsələləri əhatə edən 9264 tövsiyə göndərilib (ötən illə müqayisədə 55 faiz çox).

İl ərzində 235 bələdiyyədə kargüzarlıq və sənədlərin arxivləşdirilməsi işi öyrənilib, bu sahədə bələdiyyələrə zəruri kömək göstərilib. Sahibkarlığın inkişafı sahəsində bələdiyyələr tərəfindən 22 yeni müəssisə təsis edilib, fəaliyyətə başlamış 7 müəssisəyə 100-ə yaxın işçi cəlb edilib. 4 bələdiyyəyə dövlət büdcəsindən 1 milyon manat subvensiya ayrılıb və layihələr icra edilib. Bunun nəticəsində 140-dan çox iş yeri açılıb.

Mədən vergisinin, habelə mehmanxana, sanatoriya-kurort və turizm xidməti göstərən şəxslərdən ödənişlərin yerli büdcələrə ödənilməsi, icarəyə ayrılmış bələdiyyə torpaqlarının məqsədli təyinatına uyğun istifadəsi və icarə haqlarının bazar məzənnələrinə uyğunluğunun təmin edilməsi, o cümlədən bələdiyyələr tərəfindən sosial sığorta borclarının ödənilməsi məsələləri ilə bağlı bir sıra tədbirlər görülüb. Qeyd olundu ki, 2019-cu ildə də bələdiyyələrin milli assosiasiyaları ilə Ədliyyə Nazirliyinin əməkdaşlığı da davam etdirilib.

Məruzə ilə bağlı Regional məsələlər komitəsinin sədri Siyavuş Novruzov fikirlərini bildirdi və təkliflərini diqqətə çatdırdı. Təkliflərdən biri bələdiyyə seçkilərinin Seçki Məcəlləsindən çıxarılması və onunla bağlı ayrıca qanunun qəbul olunması haqda oldu. Eyni zamanda prezident və parlament seçkilərindən fərqli olaraq bələdiyyə seçkilərinin yerli əhəmiyyət daşıdığı üçün hissə-hissə keçirilməsini və bu işlə yalnız dairə seçki komissiyalarının məşğul olmasını məqbul saydı.

Parlamentin Təbii ehtiyatlar, energetika və ekologiya komitəsinin sədri Sadiq Qurbanov, Aqrar siyasət komitəsinin sədri Tahir Rzayev, deputatlardan Tahir Kərimli, Azər Badamov, Aydın Mirzəzadə məruzə ilə bağlı fikirlərini bildirdilər. Yekunda məruzə səsə qoyularaq nəzərə alındı.

## Karantin zamanı hərəkət məhdudiyyətləri deputatlara şamil edilməyəcək

Milli Məclis Sədrinin birinci müavini, Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri Əli Hüseynli "Azərbaycan Respublikası Milli Məclisi deputatının statusu haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə (üçüncü oxunuş) Azərbaycan Respublikasının 1996-cı il 17 may tarixli 74-IQ nömrəli Qanunu ilə təsdiq edilmiş "Azərbaycan Respublikası Milli Məclisinin Daxili Nizamnaməsi"ndə dəyişiklik edilməsi haqqında (üçüncü oxunuş) və "Azərbaycan Respublikası Milli Məclisinin komitələri haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə (üçüncü oxunuş) qanun layihələrini müzakirəyə təqdim etdi. Qeyd olundu ki, dəyişikliklər karantin rejiminin tətbiq edilməsi, sanitariya-epidemioloji və bu kimi məsələlərlə əlaqədar olaraq Milli Məclisin və Milli Məclisin komitə və komissiya iclaslarının müəyyən dövr üçün videokonfrans sistemi vasitəsilə keçirilməsi, həmçinin karantin rejiminin tətbiqi ilə əlaqədar ölkə ərazisində sərbəst hərəkətə qoyulan məhdudiyyətlərin deputata, onun şəxsi və xidməti nəqliyyat vasitələrinə şamil edilməməsi məsələləri ilə bağlıdır.

## Qanun layihələri təsdiq olundu

"Böyük Vətən Müharibəsində Qələbənin 75 illiyi (1945-2020)" Azərbaycan Respublikasının yubiley medalının təsis edilməsi ilə əlaqədar "Azərbaycan Respublikasının orden və medallarının təsis edilməsi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası Qanununun layihəsi də üçüncü oxunuşda təsdiq olundu.

Komitə sədrləri Hicran Hüseynova, Ziyafət Əsgərov və Bəxtiyar Əliyevin məlumatından sonra "Valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların sosial müdafiəsi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə və "Sərhəd mühafizə orqanları haqqında", "Təhsil haqqında" və "Peşə təhsili haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə qanun layihələrinə də deputatları müsbət münasibət bildirdilər.

Fasilədən sonra işini davam etdirən parlamentdə 3 qanun layihəsi - Cinayət Məcəlləsi və İnzibati Xətalar Məcəlləsində dəyişikliklər edilməsi, "Azərbaycan Respublikasının vətəndaşlığı haqqında" qanunda dəyişiklik edilməsi barədə qanun layihəsi (hər 3-ü birinci oxunuş) birgə müzakirəyə çıxarıldı.

Sənədlərlə bağlı geniş məlumat verən parlamentin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin üzvü Kamal Cəfərov bildirdi ki, layihə Prezidentin "Məhkəmə-hüquq sahəsində islahatların dərinləşdirilməsi haqqında" 2019-cu il 3 aprel tarixli fərmanı ilə verilmiş tapşırığın icrası çərçivəsində hazırlanıb.

## Prezident İlham Əliyevin humanist siyasətinin növbəti təzahürü

Bu layihə Prezident İlham Əliyevin humanist siyasətinin təzahürü olmaqla, həyata keçirilən sistemli və genişmiqyaslı hüquqi islahatların tərkib hissəsidir. Təklif edilən dəyişikliklər cinayət təqibi və cəzaların icrası sahələrində hüquqi islahatların növbəti mərhələsidir.

Belə ki, dövlət başçısının müvafiq fərman və sərəncamları ilə bu günə qədər 9 mindən artıq şəxs cinayət məsuliyyətindən azad edilib, 3 minə qədər şəxsin cəzası yüngülləşdirilib, 800-ə qədər şəxs azadlıqdan məhrumetmə cəzasından azad olunub.

Milli Məclisə təqdim edilən yeni layihədə 200-ə yaxın dəyişiklik təklif olunur. 35 cinayətin dekriminallaşdırılması nəzərdə tutulur, 10 cinayət əməli Cinayət Məcəlləsindən çıxarılır, 25 cinayət əməlinə görə məsuliyyət yaradan hədd artırılır. 3 cinayətə görə zərərçəkmiş şəxslə barışma və ziyanın ödənilməsi şərti ilə cinayət məsuliyyətindən azadetmə müəyyən olunur. 30 cinayətə görə sanksiyalara azadlıqdan məhrumetməyə alternativ cəzalar (cərimə, islah işləri və azadlığın məhdudlaşdırılması) daxil edilir. 60 cinayətə görə cərimə və ya azadlıqdan məhrumetmə cəzasının yüngülləşdirilməsi nəzərdə tutulur.

Hərbi xidmət əleyhinə cinayətlər bölməsində edilən dəyişikliklərin məqsədi isə orduda məhkumluqların sayının azaldılmasından ibarətdir. Belə ki, məhkumluqdan irəli gələn hüquqi nəticələr hərbi qulluqçuların gələcək karyerasına mənfi təsir göstərə bilər. Bununla belə orduda ciddi nizam-intizamın təkmilləşdirilməsi üçün Cinayət Məcəlləsində dekriminallaşdırılan əməllərə görə İnzibati Xətalar Məcəlləsində inzibati məsuliyyət müəyyən edilir.

Müzakirələr zamanı çıxış edən deputatlardan Fazil Mustafa, Azay Quliyev, Qüdrət Həsənquliyev, Rəşad Mahmudov, Jalə Əliyeva, Zahid Oruc, Sədaqət Vəliyeva, İlham Məmmədov, Arzu Nağıyev çıxış edərək fikir və təkliflərini səsləndirdilər. Qeyd edildi ki, bu dəyişikliklər onu deməyə əsas verir ki, Azərbaycanda cəza siyasəti yenə də humanistləşdirilir.

Çıxışlardan sonra sənədi təqdim edən deputat Kamal Cəfərov bəzi məsələlərə aydınlıq gətirdi və bildirdi ki, səslənən bütün fikir və təkliflər qanun layihələri ilə bağlı yaradılmış işçi qrupuna təqdim ediləcək. Sonra sənədlər ayrı-ayrılıqda səsverməyə çıxarılaraq birinci oxunuşda qəbul edildi.

İclasda həmçinin Miqrasiya Məcəlləsində dəyişiklik edilməsi haqqında qanun layihəsi birinci oxunuşda müzakirəyə çıxarıldı. Dəyişikliyə əsasən ölkəmizin ali və orta ixtisas təhsili müəssisələrində əyani formada və ümumi təhsil müəssisələrində təhsil alan əcnəbilər və vətəndaşlığı olmayan şəxslərlə yanaşı, peşə təhsili müəssisələrində təhsil alan şəxslərə də ölkəmizin ərazisində müvəqqəti yaşamaq icazəsinin verilməsi təklif edilir. Sənəd səsverməyə çıxarılaraq ilk oxunuşda təsdiqləndi.

"Dövlət rüsumu haqqında" qanunda dəyişiklik edilməsi barədə qanun layihəsinə (birinci oxunuş) təklif olunan dəyişiklik isə Miqrasiya Məcəlləsinə uyğun olaraq hazırlanıb və ölkəmizdə peşə təhsili müəssisələrində təhsil alan əcnəbilərə verilən icazə vəsiqəsinin təqdim edilməsinə görə dövlət rüsumunun məbləğinin tənzimlənməsini nəzərdə tutur. Dəyişiklik müsbət qarşılandı, sənəd səsə qoyularaq qəbul edildi.

Deputatlar həmçinin "Dövlət satınalmaları haqqında", "Dövlət vergi orqanlarında xidmət haqqında Əsasnamə"də və "Nağdsız hesablaşmalar haqqında" qanunlarda dəyişiklik edilməsi barədə qanun layihəsini birinci oxunuşda qəbul etdilər.

## Azərbaycanda kimyəvi silaha dair qadağalar müəyyənləşir

Prezident İlham Əliyev tərəfindən Milli Məclisə bir paketdə daxil olan 2 sənəd - 16-cı və 17-ci məsələlər parlamentin 6 komitəsində müzakirəyə çıxarılıb. Bu sənədlər - "Yol hərəkəti haqqında", "Sosial sığorta haqqında", "Tibbi sığorta haqqında", "İşsizlikdən sığorta haqqında", "Məşğulluq haqqında", "Dövlət rüsumu haqqında", "Əhalinin sağlamlığının qorunması haqqında", "Ətraf mühitin mühafizəsi haqqında", "Baytarlıq haqqında", "Fitosanitar nəzarəti haqqında" və "Yeyinti məhsulları haqqında" qanunlarda və "Miqrasiya orqanlarında qulluq keçmə haqqında Əsasnamə"də dəyişiklik edilməsi barədə qanun layihəsi haqqında (birinci oxunuş), həmçinin Əmək Məcəlləsində, Torpaq Məcəlləsində, Vergi Məcəlləsində, Gömrük Məcəlləsində və Şəhərsalma və Tikinti Məcəlləsində dəyişiklik edilməsi haqqında qanun layihəsi (birinci oxunuş) idi.

Sənədləri təqdim edən Milli Məclis Sədrinin birinci müavini, parlamentin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri Əli Hüseynli bildirdi ki, dəyişikliklər bu sənədlərin tələblərinin pozulduğu halda yazılacaq cərimə rüsumları ilə bağlıdır. Məsələn, yol hərəkəti təhlükəsizliyini təmin etmək və müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanların (qurumların) işçilərinin sosial müdafiəsini gücləndirmək məqsədi ilə yol hərəkəti qaydaları, yol hərəkəti təhlükəsizliyinin təmin edilməsi və avtomobil yollarından istifadə qaydalarının pozulmasına görə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən İnzibati Xətalar Məcəlləsinə əsasən tətbiq edilən cərimələrdən, nəqliyyat vasitələrinin müşayiət olunması və haqqı ödənilən digər əlavə xidmətlərdən daxil olan vəsaitlərin 7 faizi dövlət büdcəsinə köçürüləcək.

Müzakirələrdə iştirak edən deputatlardan Qüdrət Həsənquliyev, Vahid Əhmədov, Fəzail Ağamalı çıxış edərək dəyişikliyə müsbət münasibət bildirdilər. Sənədlər səsverməyə çıxarılaraq qəbul edildi.

İclasda "Kimyəvi silahın hazırlanması, istehsalı, artırılması (yığılması) və tətbiq edilməsinin qadağan olunması və onun məhv edilməsi haqqında" qanun layihəsi birinci oxunuşda müzakirəyə çıxarıldı.

Sənədi təqdim edən parlamentin Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin sədri Ziyafət Əsgərov məlumat verərək bildirdi ki, qanun layihəsinə əsasən bəzi fəaliyyətlər qadağan olunacaq. Bunlar kimyəvi silahın tətbiqi, kimyəvi silahın tətbiq edilməsi ilə bağlı hərbi hazırlıq keçirmək və ya hər hansı hərbi hazırlıqda iştirak etmək və digər müddəalardır. Qanunla qadağan olunan fəaliyyətlər Azərbaycanın tərəfdar çıxdığı beynəlxalq müqavilələrə uyğun olaraq, ölkə hüdudlarından kənarda yaşayan vətəndaşlara da şamil edilir. Bu qanunun tələblərinin pozulması qanunla müəyyən edilmiş məsuliyyətə səbəb olur. Layihə səsverməyə çıxarılaraq birinci oxunuşda qəbul edildi.

## Kütləvi informasiya vasitələrinin dilinə dair yeni tələb

İclasda həmçinin "Hərbi qulluqçuların statusu haqında", "İnzibati icraat haqqında", "Təhsil haqqında" və "Elm haqqında" qanunlarda, "Hərbi xidmətkeçmə haqqında" Əsasnamə"də və İnzibati Prosessual Məcəlləsində dəyişiklik edilməsi barədə qanun layihəsi haqqında (birinci oxunuş), həmçinin Mənzil Məcəlləsində, İnzibati Xətalar Məcəlləsində, "Uşaq hüquqları haqqında", "Valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların sosial müdafiəsi haqqında", "Qeyri-hökumət təşkilatları (ictimai birliklər və fondlar) haqqında", "Gənclər siyasəti haqqında", "Penitensiar müəssisələrdə cəza çəkməkdən azad edilmiş şəxslərin sosial adaptasiyası haqqında", "Könüllü fəaliyyət haqqında", "Bədən tərbiyəsi və idman haqqında", "Reklam haqqında" və "Uşaqların zərərli informasiyadan qorunması haqqında" qanunlarda dəyişiklik edilməsi barədə qanun layihəsi (birinci oxunuş) təsdiqləndi.

Deputatlar həmçinin "İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında", "Kütləvi informasiya vasitələri haqqında", "Televiziya və radio yayımı haqqında", "Azərbaycan Respublikasında dövlət dili haqqında" və "İctimai televiziya və radio yayımı haqqında" qanunlarda dəyişiklik edilməsi barədə qanun layihəsinə müsbət münasibət bildirdilər.

Qeyd edək ki, "Kütləvi informasiya vasitələri haqqında" qanuna təklif edilən dəyişiklikdə qanunun 6-cı maddəsinə (Kütləvi informasiya vasitələrinin dili) təklif edilən əlavəyə əsasən, kütləvi informasiya vasitələrində dövlət dili normalarına riayət edilməlidir. İndiyə qədər "Kütləvi informasiya vasitələri haqqında" qanunda sadəcə Azərbaycan Respublikasının ərazisində kütləvi informasiya vasitələrinin dövlət dilindən istifadə etməsinə dair müddəa əksini tapmışdı. Sənəd birinci oxunuşda qəbul edildi.

"Azərbaycan Respublikası Milli Məclisinin Daxili Nizamnaməsi"ndə, "Televiziya və radio yayımı haqqında", "Azərbaycan Respublikası Dövlət bayrağının istifadəsi qaydaları haqqında" və "İctimai televiziya və radio yayımı haqqında" qanunlarda dəyişiklik edilməsi barədə qanun layihəsi (birinci oxunuş), həmçinin "Tarix və mədəniyyət abidələrinin qorunması haqqında" və "Azərbaycan Respublikasında dövlət dili haqqında" qanunlarda dəyişiklik edilməsi barədə qanun layihəsi (birinci oxunuş) "Reklam haqqında" qanunda edilən dəyişikliyə uyğunlaşdırmaq məqsədi daşıyır. Sənədlər səsverməyə çıxarılaraq birinci oxunuşda qəbul edildi və Milli Məclisin plenar iclası başa çatdı.

***Rəşad CƏFƏRLİ,***
***Rəşad BAXŞƏLİYEV,***
***"Azərbaycan"***

## Vətəndaşlar dövlət başçısına minnətdarlıq edirlər

# Xalq Sizinlə həmrəydir, cənab Prezident!

## İlham Əliyevin “Biz birlikdə güclüyük!” çağırışı ölkə vətəndaşlarının devizinə çevrilib

*Əvvəli 1-ci səh.*



### Xalq hər zamankı kimi Prezidentə inanır, güvənir

Cəbhə bölgəsindən, Ağdam rayonunun Xındırıstan kəndindən **Nurlan Baxşəliyev, Məzahir Qasımov və Aqil Hümbətov** adından dövlət başçısına ünvanlanan minnətdarlıq məktubunda qeyd edilir ki, məhz Prezident İlham Əliyevin rəhbərliyi ilə görülən işlər Azərbaycanın tezliklə koronavirus bəlasını da dəf edəcəyini, bu mübarizədə qalib gələcəyini deməyə tam əsas verir:

“Siz bizi bir olmağa çağırdınız, xalq da Sizinlə həmrəylik nümayiş etdirdi”, - deyən məktub müəllifləri pandemiyanın qarşısının alınması istiqamətində görülən işlərə və vətəndaşlara “Evdə qal” şəraitində yaşadıqları halda yardım göstərildiyinə görə dövlət başçısına minnətdarlıqlarını bildirirlər.

Mingəçevir şəhər sakini **Bəhmən Paşayevin** məktubunda isə Prezident İlham Əliyevin uzaqgörən siyasəti nəticəsində ölkəmizdə pandemiyanın təsirinin azaldılması və onun əhatə dairəsinin məhdudlaşdırılması istiqamətində mühüm addımların atıldığı vurğulanır.

B.Paşayev yazır ki, ölkədə xüsusi karantin rejiminin tətbiq edilməsi, koronavirusun yayılmasının qarşısının alınması, tibbi maska istehsalı müəssisəsinin açılması dövlət başçısının yürütdüyü siyasətin təməlində Azərbaycan vətəndaşı və onun rifahının dayandığını bir daha təsdiqləyir: “Cənab Prezident, əminik ki, “Biz birlikdə güclüyük!” çağırışınızla bu virusa tez bir zamanda qalib gələcək, bu bəladan az itki ilə qurtulacağıq. Bütün mingəçevirlilər Sizə güvənir, Sizinlə qürur duyur, şərəfli və məsuliyyətli işinizdə Sizə uğurlar diləyirlər”.

### Vətəndaş sağlamlığını hər şeydən üstün tutan lider

Gəncə şəhərindən **Mətləb Məhərrəmov** və digərlərindən Prezidentə ünvanlanan məktubda vurğulanır ki, dövlət başçısının koronavirus pandemiyasının ölkəmizdə kütləvi yayılmasının qarşısını almaq üçün atdığı addımlar öz nəticəsini verməkdədir. Çünki bir neçə gündür ki, bu virusla əlaqədar Azərbaycanda nikbin statistika müşahidə olunur. Xəstəliyə yoluxanlarla sağalanların sayının təqribən eyni olması ümidləri və inamı daha da artırır.

Müəlliflər Prezidentin vaxtında gördüyü qabaqlayıcı tədbirlərin real nəticələr verəcəyini əvvəlcədən gözlədiklərini söyləyirlər və inanırlar ki, bu sahədə vəziyyət get-gedə daha da yaxşılaşacaq və xalqımızın canı bu bəladan birdəfəlik qurtaracaq.

“Bu tədbirlər Sizin üçün xalqın sağlamlığının hər şeydən üstün olduğunu göstərir. Bununla da Siz bir daha hər bir azərbaycanlının Prezidenti olduğunuzu təsdiq etdiniz”.

Bu fikirlər isə Salyan rayon sakini **Qabil Bağırov** və Marışlı, Seyidsadıqlı kəndinin bir qrup sakininin dövlət başçısına ünvanladığı məktubda yer alıb. Müəllif deyir ki, koronavirus epidemiyası Azərbaycan sərhədlərini keçən kimi Prezidentin gördüyü qabaqlayıcı tədbirlər, xəstəliyin daha geniş ərazini əhatə etməməsi üçün verdiyi tapşırıqlar bu problemi nəzarətdə saxlamağa imkan verdi.

Müxtəlif sosial təbəqələrdən olan insanlara kömək edilməsi, bu məqsəd uğrunda hamının səfərbər olması cənab İlham Əliyevin bu gərgin və məsuliyyətli günlərdə söylədiyi “Biz birlikdə güclüyük!” çağırışının sayəsində oldu.

### Prezident hər zamankı kimi bu ağır dönəmdə də vətəndaşın yanındadır

Dövlət başçısının hər zaman həyata keçirdiyi siyasəti dəstəkləyən və hazırkı qlobal böhrana qarşı apardığı mübarizəni alqışlayan Şirvan şəhər sakini **Taclı Mustafayeva** hesab edir ki, koronavirusla mübarizə bir daha təsdiq edir ki, Prezident hər zaman olduğu kimi bu ağır dönəmdə də xalqın yanındadır və onun hər bir probleminə həssaslıqla yanaşır, onları həll edir.

“Cənab Prezident, siz dünya dövlətlərinin başçılarının etdiklərinin daha mükəmməlini reallaşdırırsınız. Mən bir vətəndaş olaraq Sizin gördüyünüz bütün işləri dəstəkləyir və buna görə də Sizə minnətdarlığımı bildirirəm. Sizi çox sevirik. Tutduğunuz yolda Sizə daim uğurlar arzulayıram. Uca Rəbbim hər bir işinizdə Sizə yardımçı olsun”.

Neftçala rayonu, Xolqaraqaşlı kənd sakinləri **İlham Məcidov** və **Eyvaz Quliyevin** Prezidentə ünvanladıqları məktubda bildirilir ki, dünyanı bürüyən koronavirus pandemiyası böyük bəladır, artıq 100 mindən çox insanın həyatına son qoyub. Bütün ölkələrdə koronavirusla bağlı problemlər yaşansa da, Azərbaycanda qabaqlayıcı tədbirlər və düşünülmüş siyasət nəticəsində vəziyyət nəzarət altında saxlanılır:

“İnşallah, Sizin gərgin əməyiniz sayəsində ölkəmiz bu bəladan minimum itkilərlə çıxacaq. Azərbaycan xalqı üçün gördüyünüz bütün işlər alqışlanır və yüksək qiymətləndirilir. Bu şərəfli və məsuliyyətli vəzifənizdə Sizə və Birinci vitse-prezident Mehriban xanım Əliyevaya uğurlar arzulayırıq”, - deyə məktub müəllifləri qeyd edirlər.

### İlham Əliyevin vətənpərvərliyi hər bir insan üçün nümunədir

Füzuli rayonundan Milli Qəhrəman ailəsinin üzvü **Ülviyyə Quliyevanın** məktubunda vurğulanır ki, Prezident İlham Əliyevin vətənpərvərliyi hər bir insan üçün nümunədir:

“İstirahət etmədən xalqımızın qayğısına qalırsınız. Belə çətin günlərdə belə diqqətinizi bizdən əsirgəmirsiniz. Şəhid Milli Qəhrəman ailəsi olaraq Sizə dərin minnətdarlığımızı bildiririk. İnanırıq ki, Sizin rəhbərliyinizlə görülən işlər sayəsində ölkəmizdə pandemiyanın sona çatmasına nail olacağıq. Cənab Prezident, Sizin “Biz birlikdə güclüyük!” şüarınızı dəstəkləyir və hər zaman arxanızdayıq”.

Füzuli rayonunun digər sakini **Cəmalə Məmmədova,** Bərdədən **Yusif Vahidi,** Xaçmazdan **Pənah Ələsgərov**, Qubadan **Sərxan Mirzəyev,** İsmayıllıdan **Əhmədağa Ələkbərovun** Prezidentə ünvanladıqları məktublarda da bildirilir ki, pandemiya dövründə dövlət başçısının gördüyü tədbirlərin effektini və nəticəsini xalq açıq-aydın görür və verilən hər bir qərarı dəstəkləyir.

Qeyd edilir ki, cənab Prezidentin “Biz birlikdə güclüyük!” çağırışı bu gün xalqın devizinə çevrilib. Ölkə gəncləri isə əmindirlər ki, dövlət başçısı tərəfindən həyata keçirilən bütün tədbirlər sayəsində çox yaxın gələcəkdə Azərbaycan bu bəladan qurtulacaq.

### Prezidentin çağırışı vətəndaşlara mənəvi stimul olub

Bakı şəhər sakinləri **Fuad Heydərli, Telman Əzimzadə, Vidadi Hüseynov** və başqalarından dövlət başçısına gələn məktublarda qeyd edilir ki, ölkə rəhbəri hər zaman Azərbaycan xalqının sağlamlığını və təhlükəsizliyini düşünür, məhz bunun üçün yorulmadan çalışır:

“Sizin və Mehriban xanımın bu mövzuda xalqımıza etdiyiniz müraciətlər xalqımızda yüksək əhvali-ruhiyyə yaradıb, biz vətəndaşlara böyük mənəvi stimul olub”.

Bu günlərdə həm maddi, həm də ərzaq yardımı alan Telman Əzimzadə hesab edir ki, bütün bunlar ona və onun kimi insanlara maddi yardımdan əlavə, həm də mənəvi dayaqdır”. Məktublarda qeyd edilir ki, görülən işlər Azərbaycan dövlətinin heç bir çətinlik qarşısında əyilmədiyini göstərir: “Bu işlərin yerinə yetirilməsini biz hazırkı çətinlik üzərində ilkin qələbə kimi qəbul edirik. Əminik ki, Sizin rəhbərliyinizlə pandemiyaya qalib gələcək və Qarabağ uğrunda mübarizədə qələbəyə də hazırlaşacağıq”.

Yüzlərlə digər insanlar da bu fikirdədirlər. Hər kəs Prezident İlham Əliyevin koronavirus pandemiyasının ölkəmizdə yayılmasının qarşısının alınması, əsasən də əhalinin sağlamlığının qorunması məqsədi ilə həyata keçirdiyi addımları alqışlayır. Görülən bu işlər təkcə əhali tərəfindən deyil, həm də beynəlxalq təşkilatlar tərəfindən də yüksək dəyərləndirilir.

Bütün bunlar Azərbaycandakı xalq-hakimiyyət birliyinin bariz təcəssümüdür. Hər zaman xalqa arxalanan dövlət başçısı bu çətin günlərdə də vətəndaşın sağlamlığının qorunması üçün bütün lazımi addımları atır. Bunları görən hər bir kəs də reallığı söyləyir.

***Rəşad BAXŞƏLİYEV,***
***“Azərbaycan”***

# Atletlər kəndində karantində olan xəstələr dövlət qayğısı ilə əhatə olunublar

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sədrliyi ilə 2020-ci ilin birinci rübünün sosial-iqtisadi yekunlarına həsr olunan videokonfransda ölkə başçısı dünyada, eləcə də respublikamızda tüğyan edən epidemiya barədə demişdir: “Koronavirus böyük bəladır, 100 mindən çox insanın həyatına son qoyub. Demək olar ki, dünyanın bütün ölkələrində koronavirusla bağlı problemlər yaşanır. Azərbaycan da dünyanın bir parçasıdır. Ancaq deyə bilərəm ki, qabaqlayıcı tədbirlər və düşünülmüş siyasət nəticəsində biz vəziyyəti nəzarət altında saxlayırıq”.

Bunu Azərbaycan Prezidentinin imzaladığı fərman və sərəncamlardan da hiss etmək mümkündür. Ölkəmizdə koronavirusla bağlı ciddi addımlar atılır, qabaqlayıcı tədbirlər həyata keçirilir. Təhlükəli virusa daha tez yoluxa biləcəyi ehtimal edilən 65 yaşdan yuxarı adamların evdən bayıra çıxmasına qadağa qoyulub. Ahıllara YAP-ın təşəbbüsü ilə könüllülər xüsusi xidmət göstərirlər. Bundan başqa, həyət, küçə, prospekt və meydanlarda, park və xiyabanlarda, habelə digər ictimai yerlərdə dezinfeksiya işləri aparılır, insanlara həkim-mütəxəssislər tərəfindən tövsiyə olunan gigiyenik qaydalara ciddi əməl olunması diqqətə çatdırılır. Hüquq mühafizə orqanları və çevik polis alayının əməkdaşları hər yerdə karantin rejiminə nəzarət edirlər. Bununla belə iki aydan artıqdır ki, bu virusa yoluxanlar ölkəmizin müxtəlif ərazilərində 20-dən çox xəstəxanada müalicə alırlar. Karantinə alınanlar hətta 4-5 ulduzlu hotellərdə də yerləşdirilib. Ölkə vətəndaşlarının sağlamlığının qorunmasına, bu virusa yoluxanların vaxtında müalicə olunmasına güclü təminat yaratmaq üçün Azərbaycan Prezidentinin sərəncamına əsasən quraşdırılmasına başlanılmış 10 modul tipli xəstəxanada işlər sürətlə davam etdirilir. Onların altısı dövlət, dördü isə özəl sektor tərəfindən həyata keçirilir. Azərbaycan Prezidenti İlham Əliyev və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın açılışında iştirak etdiyi ən müasir və dünya standartları səviyyəsində inşa edilmiş 575 çarpayılıq “Yeni klinika” xəstəxanası da koronaviruslu xəstələrin istifadəsinə verilmişdir. Artıq bu klinikada 100-ə yaxın koronavirus xəstəsi müalicə alır. Görünən odur ki, COVID-19 infeksiyasına yoluxmuş insanlar ölkəmizin ən müasir xəstəxanalarında, peşəkar həkimlərin nəzarəti altında müalicə alırlar. Bu qəbildən olan vətəndaşlarımızın bir qismi də paytaxtın çox önəmli ərazisində “ünvanlaşan” Atletlər kəndindədir.

Onların vəziyyətini öyrənmək üçün yolumuzu buradan saldıq. Heydər Əliyev adına Beynəlxalq Hava Limanına gedən yolun üstündə yerləşən Atletlər kəndində əsasən karantində olan vətəndaşlar yerləşdirilib. İdarəçilik Atletlər kəndinin işçiləri ilə birlikdə bu “kəndin” yaxınlığındakı Sabunçu rayonu 3 saylı şəhər klinik xəstəxanasının səlahiyyətindədir. Xəstəxananın sıravi işçilərindən tutmuş baş həkimə kimi hamı buradadır. Növbəlilik əsasında üzərlərinə düşən işə məsuliyyətlə yanaşan tibb işçiləri insanların sağlamlığı uğrunda mübarizədə böyük fədakarlıq göstərirlər.

Tapşırığa əsasən yaxın və uzaq xarici ölkələrdən gələn soydaşlarımız təyyarədən enən kimi limandan birbaşa buraya gətirilir, müayinədən keçirilirlər. Əvvəllər 1600, daha sonra 1500, indi isə 1200-ə yaxın insanın müalicə aldığı bu ünvanda karantin rejiminin tələbləri çərçivəsində 14 gün yüzlərlə adam testdən keçirilir, nəzarətdə saxlanılır, koronavirus aşkarlanan adamlar dərhal təyinatı üzrə xəstəxanaya yerləşdirilir. Burada karantin rejimində saxlanılanlar xəstəlikləri ilə əlaqədar, məsələn, ətli təamlardan imtina edənlər istədikləri yeməklə, ağ çörək yox, qara çörək yemək istəyənlər qara çörəklə, meyvə və təbii şirəli içkilər də bura daxil olmaqla gün ərzində üç dəfə - səhər, günorta, axşam dövlət hesabına qidalanırlar. Yataq dəstləri vaxtında dəyişdirilir, şəxsi gigiyenik ləvazimatlar - əl-üz sabunu, diş fırçası, məhraba və digər bu kimi lazımi ehtiyaclar təmin edilir. Bəziləri xarici ölkələrdəki xəstəxanalardan buraxıldığından burada Azərbaycan dövlətinin hesabına lazımi dərman preparatları ilə təmin edilməklə müayinələrini və müalicələrini davam etdirirlər. Bir nəfər dializ xəstəsi var, vaxtaşırı xüsusi ambulansla dializ mərkəzinə aparılır və s. Bütün bunların nəticəsidir ki, koronaviruslu xəstələrin sayında tədricən azalma müşahidə olunur.

Karantin rejimində saxlanılanlara göstərilən qayğıdan və yüksək səviyyəli tibbi xidmətdən söhbət açan baş həkim Fikrət Zeynalov dedi:

- Dövlətimiz vətəndaşlarının sağlamlığını qorumaq və koronavirusla mübarizəni daha da gücləndirmək, habelə dünyanı çənginə alan bu virusun ölkəmizdə geniş yayılması üçün bütün zəruri qabaqlayıcı tədbirlərə əl atır. Bu günlərdə dövlət başçısının tapşırığına müvafiq olaraq, Prezidentin Ehtiyat Fondunun və digər ehtiyat mənbələri hesabına dövlət büdcəsindən koronavirusla mübarizə tədbirlərinin maliyyələşdirilməsi üçün daha 1 milyard 350 milyon manat məbləğində vəsait ayrılıb. İnsan kapitalına olan böyük qayğının nəticəsidir ki, bu vəsaitin 350 milyon manatlıq hissəsi bir sıra zəruri tibbi ləvazimatların və avadanlıqların təxirəsalınmadan alınmasına, dövlət və özəl tibb müəssisələrində çalışan tibb işçilərinə, cəlb olunmuş könüllülərə xüsusi əlavə və müavinətlərin ödənilməsi, ölkədə dezinfeksiya işlərinin genişləndirilməsi və digər tibbi ehtiyacların maliyyələşdirilməsinə yönəldilib.

Daha sonra baş həkim bildirdi ki, karantindəki şəxslərin saxlanma şəraitinin yüksək səviyyədə olması bir qədər də optimistliyə stimul verir. Burada Türkiyə, Rusiya, Ukrayna, Kanada, Almaniya, o cümlədən Naxçıvan Muxtar Respublikasından gələnlər çoxluq təşkil edir. Xaricdə təhsil alan tələbələrimizin, müəyyən səbəblərdən orada qalmış soydaşlarımızın ölkəyə gətirilməsi, onlara diqqət və qayğı birbaşa Azərbaycan dövlətinin başçısı İlham Əliyevin adı ilə bağlıdır. Bu mənada həkimlərimiz çalışırlar ki, Hippokrat andına sadiq qalaq, Azərbaycan Prezidentinin, eləcə də Birinci vitse-prezident Mehriban xanım Əliyevanın nəzarətində olan bu məsələdə daha məsuliyyətli olaq, bizə olan etmadı yüksək səviyyədə doğruldaq.

Biz dövlət başçısına gördüyü bütün bu işlərə görə minnətdarıq.

***Rəhman SALMANLI,***
***“Azərbaycan”***

# Pandemiyanın qarşısının alınmasında ümummilli birliyin təcəssümü

## “Qarabağ Əlillərinə Qayğı” İctimai Birliyi də bu istiqamətdə dövlət başçısının çağırışına qoşulub

**“Qarabağ Əlillərinə Qayğı” İctimai Birliyindən redaksiyamıza məktub daxil olub. Məktubda yazılır:**

“Ötən ilin dekabr ayında Çin Xalq Respublikasının Uhan şəhərində aşkar edilən və qısa müddətdə bütün bəşəriyyəti təlatümə gətirən koronavirus (COVID-19) pandemiyası ölkəmizdən də yan keçmədi.

Qısa müddətdə yayılaraq insanların sağlamlığına və həyatına təhlükə yaradan bu infeksiyanın qarşısının alınması istiqamətində dövlətimiz tərəfindən qabaqlayıcı tədbirlər görülməyə başlandı. Öncədən koronavirusun baş qaldırdığı qonşu ölkələrlə sərhədlər ciddi nəzarətə götürüldü. Təhlükəli virus daha ciddi xarakter aldıqda isə dövlətimiz bütün ölkələrlə gediş-gəliş əlaqələrinin dayandırılması qərarını verdi.

Əlbəttə, bunların hamısı vətəndaşlarımızın sağlamlığının qorunması naminə atılan addımlardır. Pandemiyadan ən az zərərlə çıxmaq üçün ölkəmizdə karantin rejiminin tətbiq edilməsi də məhz bundan yarandı.

Azərbaycanda koronavirusa yoluxma hallarının sürətlə yayılmasının qarşısı operativ şəkildə alınır, bu istiqamətdə mühüm işlər görülür. Dünyada hər keçən gün pandemiya ilə bağlı vəziyyət dəyişir və ölkəmizdə bununla bağlı proseslərə çevik reaksiya verilir.

Koronavirusla mübarizə sahəsində bu günə qədər bütün addımlar düzgün istiqamətdə atılıb. Nəticə göz qabağındadır: Azərbaycanda vəziyyəti nəzarət altında saxlamaq mümkün oldu. İnkişaf etmiş dövlətlərin təcrübəsi göstərir ki, onların heç biri özünü tam sığortalı hesab edə bilməz. Heç bir ölkənin səhiyyə sistemi bu xəstələrin artan dinamikasının qarşısında duruş gətirmək imkanına malik deyil. Budur reallıq. Azərbaycan hökuməti bütün addımları düşünülmüş şəkildə atır, qəbul edilən qərarlar özünü doğrultduğu üçün bəzi Avropa ölkələri artıq bu təcrübədən faydalanmağı zəruri hesab edir.

Azərbaycan Prezidenti İlham Əliyev 2020-ci ilin birinci rübünün sosial-iqtisadi yekunlarına həsr olunan videokonfransda qeyd etdi ki, dövlətimiz həmişə olduğu kimi, öz gücünə arxalanır. Son illərdə həm siyasi, həm iqtisadi sahələrdə, sosial məsələlərin həlli istiqamətində heç kimdən asılı olmadığını təsdiqləyir. Elə bu pandemiyadan da az itki ilə çıxmaq bir daha göstərəcək ki, bütün addımlar düşünülüb atılır. Ona görə ki, xalqın, dövlətin maraqlarına uyğundur.

Əhalinin sosial rifahı bu çətin günlərdə də dövlət başçısının diqqətindən kənarda qalmadı. Əhali üçün bir sıra güzəştlər edilir, insanlara, xüsusən aztəminatlı ailələrə maddi dəstək göstərilir, xalqın həyat şəraiti, rifahı, sosial vəziyyəti diqqətdə saxlanılır. Məhz xalqa belə yüksək qayğıya görə dövlət başçısına, eləcə də Azərbaycanın Birinci vitse-prezidenti Mehriban xanım Əliyevaya təşəkkür və minnətdarlıq dolu məktubların ardı-arası kəsilmir.

İnanırıq ki, xalqımız, eləcə də bütün bəşəriyyət bu bəladan tezliklə xilas olacaq. Koronavirus pandemiyasının insanların ancaq sağlamlığına deyil, həm də onların əmək fəaliyyətinə, maddi vəziyyətlərinə ciddi zərər vuracağı əvvəlcədən proqnozlaşdırılmışdır. Bu məqsədlə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sosial həmrəylik nümayiş etdirilməsi barədə tövsiyələrinə uyğun olaraq, 19 mart 2020-ci tarixli fərmanı ilə yaradılmış Koronavirusla Mübarizəyə Dəstək Fonduna bir çox təşkilatlar ianələr köçürməyə başladı. Bu günlərdə həmin fonda iki min manat vəsait köçürən qeyri-hökumət təşkilatlarından biri də “Qarabağ Əlillərinə Qayğı” İctimai Birliyidir. Təşkilatın bütün üzvləri dövlət başçısının təşəbbüsünə qoşularaq, xalqın və dövlətin yanında olduqlarını öz xeyirxah əməlləri ilə təsdiqləyirlər”.

## Biz birlikdə güclüyük!

# Xalq-iqtidar birliyinin təcəssümü

### Koronavirusla mübarizə həm də Azərbaycandakı milli həmrəyliyin, xalqımızın öz rəhbəri ətrafında sıx birləşməsinin təsdiqi oldu

Bəzən dünyada elə hadisələr baş verir ki, insan onun qarşısını almaqda aciz qalır. Belə fövqəladə hallardan, forsmajor situasiyalardan yaxa qurtarmaq, salamat çıxmaq üçün insan düşünməyə, yollar axtarmağa, ağlına, zehninə güc verməyə məcbur və məhkumdur.



Bu gün dünya ölkələrini və bəşəriyyəti çıxılmaz vəziyyətə salan koronavirus epidemiyasına, gözlə görünməyən, gizli düşmənə qarşı mübarizə də məhz ağılla hərəkət etməyi, birləşməyi, qayda-qanunu gözləməyi, deyilənləri sözsüz yerinə yetirməyi tələb edir. Çünki başqa yol yoxdur. Qarşısında aciz qaldığımız bu bəladan yalnız təmkinlə, dövlətin köməyi ilə, insanların bir-birinə qayğısı və diqqəti əsasında çıxmaq mümkündür. Bu isə hər bir vətəndaşın məsuliyyətindən, reallıqları düzgün qiymətləndirməsindən, üzərinə düşən vətəndaş təəssübkeşliyini yerinə yetirməsindən asılıdır.

Azərbaycan hökuməti koronavirus infeksiyasının qeydə alındığı ilk gündən onunla qətiyyətli mübarizə aparır və virusun yayılmasının qarşısının alınması üçün ciddi qabaqlayıcı tədbirlər görür. Həyata keçirilən bütün tədbirlər Prezident İlham Əliyevin nəzarətindədir. Bunun nəticəsidir ki, bir çox inkişaf etmiş dünya ölkələrindən fərqli olaraq, ölkəmizdə virusa yoluxanların sayı üstünlük təşkil etmir və ölüm halı yüksək deyil. Son günlər isə sevindirici xəbərlər almaqdayıq, ölkəmizdə koronavirusa yoluxanların sayında azalma müşahidə olunmaqdadır. Həmçinin sağalanların, evə buraxılaraq normal həyatlarına dönən insanların sayında artım yaşanmaqdadır. Yeni Nazirlər Kabineti yanında yaradılan Operativ Qərargah ölkədəki vəziyyəti daim nəzarətdə saxlamaqla xəstəliyin genişlənməməsi, təhlükəli hal almaması üçün lazım olan bütün tədbirləri görür və lazımi tapşırıqlar verir.

Martın 3-dən ölkənin bütün təhsil müəssisələrində dərslər dayandırılıb, kütləvi tədbirlər təxirə salınıb. Martın 14-dən ölkədə sosial izolyasiya, 24-dən sonra xüsusi karantin rejimi tətbiq olunub. Ticarət, əyləncə mərkəzlərinin fəaliyyəti məhdudlaşdırılıb. Park və ictimai istirahət yerlərinə insanların girişinə icazə verilmir. Şəhərlərarası nəqliyyat və metropoliten fəaliyyət göstərmir. Aprelin 5-dən isə ölkədə hərəkətə məhdudiyyətlər qoyulub və 15 günə yaxındır xüsusi karantin rejimində yaşamaqdayıq. Həmçinin əksər iş yerləri öz fəaliyyətini müvəqqəti dayandırıb.

Belə çətin, həssas günlərdə həm insanların sağlamlığını qorumaq, həm də onların sosial müdafiəsini təmin etmək, iqtisadiyyata, mənəviyyata dəyən ziyanı aradan qaldırmaq ikiqat zəhmət, uzaqgörənlik, təşkilatçılıq bacarığı tələb edir. Ulu Öndər Heydər Əliyevin daim xatırlatdığı "Xalq dövlət üçün yox, dövlət xalq üçün olmalıdır!" kəlamı bu gün böyük əhəmiyyət kəsb edir. Faktlar, görülmüş tədbirlər sübut edir ki, bu gün dövlət və dövlətimizin rəhbəri xalqın yanındadır.

Xalq da öz Prezidenti ilə həmrəy olduğunu, onu dəstəklədiyini nümayiş etdirir. Koronavirusla Mübarizəyə Dəstək Fonduna az bir müddətdə yüz milyon manatdan artıq vəsaitin keçirilməsi yalnız Prezidentin təşəbbüsünün ifadəsi deyil, həm də xalqın öz rəhbərinə, onun çağırışına ehtiramının təcəssümüdür. Bu hörmət və ehtiram, həmrəylik qarşılıqlıdır. Və dövlət başçısının imzaladığı qərarlarda, sərəncamlarda, Nazirlər Kabinetinin "Tədbirlər Planı"nda öz əksini tapıb. Belə ki, makroiqtisadi və maliyyə vəziyyətinin sabit saxlanılması üçün 2,5 milyard vəsait ayrılıb. Əvvəl ayrılmış bir milyard manat vəsait isə pandemiyanın vurduğu ziyanın qaldırılmasına yönəldilib. 44 min sahibkarlıq subyektində çalışan 300 min nəfərdən çox işçinin əməkhaqqının əhəmiyyətli bir hissəsi dövlət tərəfindən ödəniləcək. 290 min nəfərdən çox mikro və fərdi sahibkar da dövlət dəstəyindən faydalanacaq, dövlət sektorunda çalışan 900 min nəfərdən artıq işçinin, qeyri-neft sektoru üzrə 690 min işçinin əməkhaqqı saxlanılmaqla məşğulluğu təmin ediləcək. Həmçinin 50 min ödənişli ictimai iş yerinin yaradılması nəzərdə tutulur. Qeydiyyata düşmüş işçilər üçün birdəfəlik 190 manatın ödənilməsinə başlanılıb.

"Tədbirlər Planı"nda nəzərdə tutulmuş bir çox əlavə məsələlər də bilavasitə insanların sosial müdafiəsinin təmin olunmasına xidmət edir. Elektrik enerjisinin aylıq istehlak həcminin iki ay müddətində artırılması, sosial baxımdan həssas əhali qrupuna aid edilən ailə üzvü olan tələbələrin təhsil haqqı xərclərinin dövlət büdcəsi vəsaiti hesabına ödənilməsi haqqındakı qərarlar da müvafiq planın tərkib hissəsidir. Vəziyyətlə əlaqədar digər əlavə tədbirlərin görülməsi də istisna edilmir. İqtisadiyyatın, kənd təsərrüfatının inkişaf etdirilməsi üçün imzalanan son sərəncamlar bunun nümunəsidir.

Göründüyü kimi, dövlət öz vətəndaşının sosial müdafiəsinin gücləndirilməsinə, iqtisadiyyatının inkişafına birinci dərəcəli vəzifə kimi yanaşır və bu sahədə tədbirlər görülməkdədir. Prezidentimiz İlham Əliyev bunu bu ilin birinci rübünün sosial-iqtisadi yekunlarına həsr olunmuş videokonfransda bir daha əsaslandıraraq, koronavirus pandemiyası ilə mübarizə çərçivəsində görülən işlərdən ətraflı danışdı. Öncə onu xatırlatmaq yerinə düşər ki, cəmi bir neçə gün öncə dünya tarixində ilk dəfə olaraq videokonfrans vasitəsilə Zirvə görüşü keçirildi. Daha doğrusu, Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının (Türk Şurası) sədri kimi Prezident İlham Əliyev bu təşəbbüslə çıxış etdi və Türk Şurasının üzvü olan ölkələrin dövlət-hökumət başçılarının tarixi fövqəladə Zirvə görüşü baş tutdu. Bununla da Azərbaycan Prezidenti daha bir ilkə imza atdı, həmçinin bu görüşü təşkil etməklə Türk Şurasının sözdə deyil, əməldə əməkdaşlıq, həmrəylik təşkilatı olduğunu bir daha dünyaya nümayiş etdirdi.

Aprelin 14-də videokonfrans vasitəsilə bu ilin birinci rübünün sosial-iqtisadi yekunlarına həsr olunmuş müşavirə keçirildi. Ölkə rəhbəri bu videokonfransda da xalqın birliyi sayəsində bütün çətinliklərin aradan qaldırılacağını, 2020-ci ilin də dərin islahatlar ili olacağına, insanların sosial rifah halının yaxşılaşması sahəsində yeni layihələrin həyata keçiriləcəyinə əminliyini bildirdi. "Biz həssas təbəqəyə sahib çıxmalıyıq, onlara dəstək verməliyik, onlara kömək göstərməliyik. Biz xalq olaraq artıq birlik, həmrəylik nümayiş etdirmişik. İndi daha çox məsuliyyət və nizam-intizam nümayiş etdirməliyik" fikrini ifadə edən ölkə başçısı həm də bu sahədə hər bir vəzifə sahibinin, vətəndaşın vəzifəsini müəyyənləşdirdi.

Təəssüflər olsun ki, görülmüş böyük işlərə, aradan qaldırılan çətinliklərə, insanlara ödənilən bu təminatlara, edilən köməkliklərə kölgə salmağa, vətəndaşlarımızı çaşdırmağa, yaranmış vəziyyətdən siyasi məqsədlər üçün istifadə etməyə çalışan qüvvələr var. Adını müxalifət qoyan bu qüvvələr iqtidara deyil, belə çətin bir vaxtda, əslində, xalqa müxalif olduqlarını bir daha nümayiş etdirirlər.

İnsanların işdən, vəzifədən, normal həyatdan təcrid olunduqları, koronavirus kimi bir bəlaya qarşı mübarizə apardıqları, bir-birinə arxa durduqları, kömək etdikləri bu günlərdə aqressiv müxalifətin nümayəndələri kiminsə dadına çatmaq, kiməsə yardım etmək əvəzinə ara qarışdırmaqla, yalançı bəyanatlarla, saxta faktlar səsləndirməklə insanları çaşdırmağa çalışırlar. Sanki onlar insanların qarşılaşdığı bəlanı, yaranmış çətinlikləri görmürlər. Ölkə rəhbərinin videokonfransda onlarla bağlı səsləndirdiyi fikir bütün ölkə ictimaiyyətinin yekdil rəyini ifadə etdi: "Bu gün koronavirusa sevinən ancaq bu antimilli qruplaşmadır. Mən təbii ki, baş verən hadisələrdən xəbərdaram və bilirəm ki, bunların bu çirkin niyyətləri dəhşətli bir mənzərə yaradır. Ölənlərin sayının artmasını arzulayırlar, xəstələrin sayının artmasını istəyirlər, sevinirlər ki, insanlar vəfat edir. Yəni bu, iqtidara qarşı deyil, dövlətə qarşı düşmənçilikdir. Mən hər şeyi öz adı ilə çağırıram. Əgər kimsə xalqımıza, dövlətimizə düşmənçilik edirsə, onun bir adı var - düşmən".

Hər kəs bu nadanları tanıyır. İnsanlar xalqın qara günündən, faciəsindən, bəlalarından ləzzət alan bu adamların iç üzünə bələddir və haqlı olaraq onları koronavirusdan da betər düşmən adlandırırlar. Belələri üçün təəssüflənməyə dəyməz. Azərbaycan isə inkişaf yolundadır. Xalqımız müdrikdir, yekdildir və öz rəhbəri ətrafında səfərbərdir. Ona görə xalqımıza və dövlətimizə düşmən kəsilən sapı özümüzdən olan baltaların niyyətləri həmişə gözlərində qalacaq.

***Tahir RZAYEV,***
***Milli Məclisin Aqrar siyasət komitəsinin sədri***

# Həyata keçirilən siyasətin mərkəzində insan amili, onun sağlamlığı və rifahı dayanır

2020-ci ilin birinci rübünün sosial-iqtisadi yekunlarına həsr olunan və videokonfrans şəklində keçirilən müşavirədə insan amilinin Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin həyata keçirdiyi siyasətin mərkəzində dayanması bir daha özünü göstərdi. Müşavirədə Prezident İlham Əliyev qeyd etdi ki, hazırda dünyanı bürüyən koronavirus pandemiyası bütün ölkələrin iqtisadiyyatı üçün böyük problemlər yaradıb. Azərbaycan da dünyanın bir parçası olaraq bu problemlə üz-üzədir. Bunu 2020-ci ilin yanvar-fevral aylarının yekunu ilə birinci rübün yekununu müqayisə etdikdə görmək olur.



Belə ki, əgər yanvar-fevral aylarında ümumi daxili məhsul 3 faizə yaxın, qeyri-neft sektorunda isə 7 faizə yaxın artmışdısa, mart ayında koronavirusun yayılması nəticəsində üç ayda bu artımlar müvafiq olaraq 1,1 faiz və 3 faizdən bir qədər artıq olub. Bu da onu göstərir ki, aparılan lazımi tədbirlərə baxmayaraq, pandemiyanın iqtisadiyyata mənfi təsiri göz qabağındadır. Bütün bunlarla yanaşı, onu da qeyd etmək lazımdır ki, pandemiya ilə əlaqədar Prezident İlham Əliyevin tapşırıqlarına uyğun olaraq ölkəmizdə vaxtında aparılan qabaqlayıcı tədbirlər və düşünülmüş siyasət nəticəsində respublikamızda vəziyyət nəzarət altındadır və insan itkisi minimum həddədir. Ölkə Prezidenti bildirib: "Mənim seçimim birmənalıdır - insanların sağlamlığı".

Pandemiya ilə əlaqədar hazırkı vəziyyət və iqtisadi, sosial, maliyyə və digər istiqamətlər üzrə həyata keçirilən təxirəsalınmaz və sistemli tədbirlər onu deməyə əsas verir ki, koronavirusla mübarizədə qalib gəlmək və bu vəziyyətdən az itkilərlə çıxmaq üçün qarşıya qoyulan vəzifələr uğurla icra olunur. Həyata keçirilən tədbirlər vətəndaşlar tərəfindən də təqdir olunur. Bunu Azərbaycan ictimaiyyətinin Prezident İlham Əliyevə göndərdiyi çoxsaylı məktublarda həyata keçirilən tədbirlərin yüksək qiymətləndirilməsi və dövlət başçısına dərin minnətdarlıq bildirilməsi də bir daha təsdiq edir. Bu da onu göstərir ki, ölkəmiz Prezident İlham Əliyevin rəhbərliyi və gündəlik qayğısı sayəsində koronavirus problemini qısa müddətdə aradan qaldıracaq və respublikamızda 2018-ci ildə başlamış iqtisadi-sosial və siyasi, habelə struktur və kadr islahatları bundan sonra da ardıcıl olaraq uğurla həyata keçiriləcək, demokratik inkişaf istiqamətində atılan önəmli addımlar davam etdiriləcək. Bu da imkan verəcək ki, Azərbaycan yeni inkişaf mərhələsinə inamla qədəm qoysun.

Bununla belə, təəssüf hissi ilə qeyd etmək istəyirəm ki, ölkəmizdə çox az sayda olan müəyyən bir qrup insanlar hələ də Prezident İlham Əliyevin rəhbərliyi ilə sosial-iqtisadi sahədə respublikamızın əldə etdiyi bu yüksək nailiyyətləri, dünyada qazandığı möhkəm imici qəbul etmək istəmir, çirkin niyyətlər güdür, vəziyyəti gərginləşdirməyə cəhd etməyi özlərinin əsas məqsədi hesab edirlər. Müşavirədə ölkə başçısı bu məsələyə də toxunaraq qeyd etdi ki, bu marginal qruplaşma öz çirkin niyyətlərinə heç vaxt çatmayacaq. Bunu onların son 27 il ərzində müxtəlif üsullarla etdikləri cəhdlərin uğursuzluğa düçar olması, əhali arasında nifrət qazanmaları da sübut edir. Çünki Azərbaycan vətəndaşları dövlət başçısına möhkəm inanır, onun xalqın rifahı və dövlətin inkişafı naminə ardıcıl həyata keçirdiyi tədbirləri dəstəkləyirlər. Vətəndaşlar İlham Əliyev cənablarının ətrafında sıx birləşdiklərini dəfələrlə nümayiş etdiriblər və bundan sonra da belə olacaq.

Müşavirədə Kənd Təsərrüfatı naziri İnam Kərimov da çıxış edərək görülmüş işlər və qarşıda duran vəzifələrin həlli barədə geniş məlumat verdi. Məlumdur ki, kənd təsərrüfatı hər bir ölkənin qarşısında duran ən mühüm vəzifə olan ərzaq təhlükəsizliyinin təmin edilməsində əsas baza hesab edilir. Kənd təsərrüfatı həm də ona görə böyük əhəmiyyət kəsb edir ki, milli təhlükəsizliyin tərkib hissəsi olan ərzaq təhlükəsizliyi əhalini ərzaqla təmin etməklə yanaşı, ölkədə siyasi sabitliyin və heç bir ölkədən asılı olmayaraq sərbəst siyasət həyata keçirməyin qarantıdır. Müxtəlif təbii fəlakətlər, pandemiyalar və digər gözlənilməz hadisələrin baş verdiyi müddətdə ərzaq təhlükəsizliyi daha vacib xarakter alır. Bunu vaxtında və çox düzgün qiymətləndirən ölkə başçısı prezidentliyinin ilk illərindən kənd təsərrüfatına və ümumilikdə aqrar sektora, bu sahədə çalışan insanlara çox yüksək diqqət və qayğı ilə yanaşıb.

Fermerlərin torpaq vergisi istisna olmaqla digər vergilərdən azad olunması müddətinin daim uzadılması, onlara məhsul istehsalına görə subsidiyaların verilməsi, kənd təsərrüfatı məhsulları istehsalçılarına aqrolizinq yolu ilə texnika və cins mal-qaranın satılması və digər stimullaşdırıcı tədbirlərin uzun müddətdir ki, davam etdirilməsi kənd təsərrüfatı istehsalının artımına öz müsbət təsirini göstərib. Bunun nəticəsidir ki, ölkəmizdə ərzaq məhsullarına olan tələbat əsasən yerli istehsal hesabına ödənilir və başqa ölkələrdən asılılıq minimuma endirilib. Məhz buna görə də pandemiyanın tüğyan etdiyi bir vaxtda hətta inkişaf etmiş bəzi ölkələrdə ərzaq mağazaları boşaldığı halda, respublikamızda bu məsələdə heç bir problem yoxdur və olmayacaq. Bunu kənd təsərrüfatı naziri öz çıxışında da vurğuladı və bu sahədə əldə edilən uğurlardan danışdı. Müşavirədə bildirildi ki, ölkəmiz kənd təsərrüfatında ən çox işlədilən azot gübrəsi ilə artıq Sumqayıtda fəaliyyət göstərən karbamid zavodunun istehsal etdiyi məhsulla tam təmin edilir. Bu çox fərəhləndirici haldır və aparılan tədbirlər öz bəhrəsini verir, beləliklə, ölkəmizin bu məhsula görə asılılığına son qoyulur. Eyni zamanda fermerlərimizi narahat edən bəzi məsələlər də diqqətə çatdırıldı və İlham Əliyev bu problemlərin tezliklə həlli üçün müvafiq göstərişlər də verdi.

Bir məsələni də xüsusilə qeyd etmək istəyirəm ki, aqrar sferanın inkişafında yeni texnika və texnologiyaların tətbiqi, mineral gübrələrdən optimal istifadə və digər tədbirlərin həyata keçirilməsi ilə yanaşı, kənd təsərrüfatı bitkilərinin suvarma suyu ilə lazımi səviyyədə təmin edilməsi də əsas şərtlərdən biridir. Çünki bitkilərin suvarma suyu ilə normal təminatı torpağın hər hektarından onun təbii münbitliyindən əlavə məhsul almağa imkan verir. Bunu nəzərə alaraq son vaxtlar respublikamızda Şəmkirçay, Taxtakörpü və digər su anbarlarının və su kanallarının tikilməsi, çoxlu sayda subartezian quyularının qazılması kənd təsərrüfatı bitkilərinin suvarma suyu ilə təminatını yaxşılaşdırıb və bu da öz növbəsində məhsuldarlığın artımına müsbət təsir edib. Bu eyni zamanda Prezidentin dediyi kimi, bütün bunlar 100 min hektar suvarılmayan və suvarılması lazımi səviyyədə olmayan torpaqların su ilə təminatıdır. Azərbaycan az torpaqlı ölkələr sırasında olduğu üçün kənd təsərrüfatının inkişafı müşavirədə qeyd olunduğu kimi, əsasən məhsuldarlığın artırılması hesabına təmin edilməlidir. Bunun üçün isə suvarmaya və sudan səmərəli istifadəyə xüsusi diqqət yetirilməlidir. Bu məqsədlə cənab Prezident müşavirədə su ehtiyatlarından səmərəli istifadə etmək üçün müvafiq dövlət orqanlarının rəhbərlərindən ibarət komissiyanın yaradılması barədə göstəriş verdi.

Bu müşavirə bir daha onu göstərir ki, insan amili, onun sağlamlığı və rifahı Prezident İlham Əliyevin həyata keçirdiyi siyasətin mərkəzində dayanır. Ölkə rəhbəri bunun üçün lazım olan bütün tədbirləri sistemli şəkildə, vəziyyətə uyğun ardıcıllıqla və uğurla reallaşdırır.

***Eldar İBRAHİMOV,***
***Milli Məclisin deputatı***

# 300 min muzdlu işçiyə 215 milyon manatlıq dəstək

### Prezident İlham Əliyevin təşəbbüsü ilə hazırlanan dövlət dəstəyi proqramlarına əsasən pandemiyadan zərər çəkmiş sahibkarlıq subyektlərinə yardımlar edilir

Bu gün koronavirus pandemiyası dinindən, irqindən, yaşından və sosial mənsubiyyətindən asılı olmayaraq, hamı üçün problemə, bəşəri bəlaya çevrilib. Dünyanın bu infeksiya ilə mübarizəsi hələ ki, bir nəticə vermir. Amma koronavirus artıq ölkələrin iqtisadi durumuna da ciddi təsir göstərməkdədir. Dünya dövlətləri əgər bir tərəfdən yoluxmanın və insan tələfatının qarşısını almağa çalışırlarsa, digər tərəfdən də makroiqtisadi sabitliyin qorunub saxlanması üçün qabaqlayıcı tədbirlər həyata keçirirlər.

Hər zaman qətiyyətli və uzaqgörən siyasəti, qlobalmiqyaslı təşəbbüsləri ilə Azərbaycanı bütün çətin sınaqlardan üzüağ çıxaran Prezident İlham Əliyev bu ağır dövrdə də genişmiqyaslı iqtisadi-sosial paketini təqdim edərək həm xalqın sosial rifah halını yaxşılaşdırmaq, həm də iqtisadi sabitliyi qoruyub saxlamaq üçün mühüm addımlar atır. Dövlət başçısının yeni iqtisadi və sosial paketi çərçivəsində hazırlanan dövlət dəstəyi proqramları da bu prosesin tərkib hissəsidir.

## Makroiqtisadi sabitliyin və məşğulluğun təmini

Beynəlxalq təşkilatlar Azərbaycan Prezidentinin bu təşəbbüsünü bir çox ölkələr üçün də nümunə kimi göstərirlər. Elə dövlət başçısı da Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının fövqəladə Zirvə görüşündə həyata keçirdiyi tədbirlər və onun effektiv nəticələrini qardaş ölkələrin liderləri ilə paylaşdı.

Koronavirus pandemiyasının dünya ölkələrinin iqtisadiyyatına zərbə vurduğunu və Azərbaycanda makroiqtisadi sabitliyin təmini, məşğulluqla bağlı problemlərin həll edilməsi, həm də makroiqtisadi və maliyyə vəziyyətinin sabit saxlanılması üçün 2,5 milyard manat və ya təqribən 1,5 milyard dollar vəsait ayrıldığını söyləyən cənab İlham Əliyev dövlətin hər zamankı kimi sahibkarlara göstərdiyi qayğıdan söz açdı.

Həyata keçirilən tədbirlərdən danışan dövlət başçısı qeyd edib ki, 600 minə yaxın insan bu vəziyyətdən daha çox əziyyət çəkir. Sahibkarlara müraciət olunub ki, iş yerləri ixtisar edilməsin. 44 min sahibkarlıq subyektində çalışan 300 mindən çox işçinin əməkhaqqının əhəmiyyətli bir hissəsini dövlət ödəyir. Həmçinin dövlət dəstəyindən 290 mindən çox mikro və fərdi sahibkar faydalanacaq:

"Ümumilikdə dövlət sektoru üzrə 900 mindən artıq işçinin, qeyri-dövlət sektoru üzrə isə 690 min işçinin əməkhaqqı saxlanılmaqla məşğulluğu təmin edilib. İşsiz şəxslərin sosial müdafiəsi üçün 50 min ödənişli ictimai iş yeri yaradılacaq. Qeydiyyata düşmüş işsizlər üçün birdəfəlik ödəmələrə başlanılıb. Banklar tərəfindən sahibkarlara yeni verilən 500 milyon manat və ya təqribən 300 milyon dollar həcmində kreditlərin 60 faizinə dövlət zəmanəti veriləcək. Zəmanət verilən kreditlər üzrə faiz dərəcəsinin yarısı dövlət büdcəsinin vəsaitləri hesabına subsidiyalaşdırılacaqdır. Dövlət zəmanəti olmayan 1 milyard manat, təqribən 600 milyon dollar həcmində mövcud bank kreditləri üzrə faiz dərəcəsinin 10 faiz bəndi subsidiyalaşdırılacaqdır. Bunun üçün dövlət büdcəsindən 50 milyon manat və ya təqribən 30 milyon dollar vəsait ayrılmışdır".

Dövlət başçısı vurğuladı ki, bu tədbirin əsas məqsədi pandemiya səbəbindən faizlərin ödənilməsində çətinliklərlə üzləşmiş sahibkarlara kömək etməkdir. Sosial təcrid tədbirləri nəticəsində əhali tərəfindən elektrik enerjisi sərfi artıb. Bunu nəzərə alaraq kommunal ödəmələrə güzəşt edilib. Bu proqramlar dövlətin dəstəyinin yalnız bir hissəsidir və hazırda digər dövlət dəstəyi mexanizmləri üzərində iş aparılır.

## Sahibkar da razıdır, muzdlu işçi də

Nazirlər Kabinetinin 2020-ci il 4 aprel tarixli qərarı ilə təsdiqlənən Tədbirlər Planına uyğun olaraq sahibkarlara maliyyə dəstəyinin ödənilməsi onların müraciətinə uyğun olaraq, İqtisadiyyat Nazirliyi tərəfindən formalaşdırılaraq təqdim olunan sifarişlər əsasında xəzinədarlıq orqanları tərəfindən gündəlik əsasda davam etdirilir.

Aprelin 14-nə nazirliyə muzdlu işçilərin əməkhaqqının müəyyən hissəsinin ödənilməsi üçün koronavirus pandemiyasından zərər çəkmiş 10 min 914 vergiödəyici və maliyyə dəstəyi almaq üçün 16 min 502 fərdi (mikro) sahibkar, cəmi 27 min 416 vergiödəyici müraciət edib. Muzdlu işçilərin əməkhaqqının müəyyən hissəsinin ödənilməsi layihəsi çərçivəsində müraciət etmiş 10 min 914 vergi ödəyicisində çalışan muzdlu işçilərin sayı 124 min 510 nəfərdir.

İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidməti tərəfindən bu müraciətlərdən 78 min 68 işçini əhatə edən 8487 vergiödəyicinin müraciətləri araşdırılaraq təsdiq olunub və ayrılacaq maliyyə vəsaitinin vergiödəyicilərin bank hesablarına köçürülməsi üçün Maliyyə Nazirliyinə təqdim edilib. Bu proqram üzrə indiyədək təsdiq edilmiş müraciətlər üzrə maliyyə dəstəyinin həcmi 33,78 milyon manat, o cümlədən birinci mərhələ üzrə ödənilməsi nəzərdə tutulan vəsaitin həcmi 16,9 milyon manat təşkil edir. Aprelin 13-nə Maliyyə Nazirliyinin Dövlət Xəzinədarlıq Agentliyi tərəfindən 2636 vergiödəyiciyə 24 min 463 nəfər muzdlu işçinin əməkhaqqı üzrə 5,31 milyon manat vəsaitin köçürülməsi təmin edilib.

Fərdi (mikro) sahibkarlara maliyyə dəstəyinin göstərilməsi proqramı çərçivəsində 16 min 502 vergiödəyicidən müraciət daxil olub. İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidməti tərəfindən 15 min 689 müraciət araşdırılaraq təsdiq edilib və maliyyə dəstəyinin bank hesablarına köçürülməsi üçün Maliyyə Nazirliyinə təqdim olunub. Bu proqram üzrə indiyədək təsdiq edilmiş müraciətlər üzrə maliyyə dəstəyinin həcmi 15,48 milyon manat təşkil edir. Aprelin 13-nə Maliyyə Nazirliyinin Dövlət Xəzinədarlıq Agentliyi tərəfindən maliyyə dəstəyi çərçivəsində 3,53 milyon manat vəsaitin 3041 fərdi (mikro) sahibkarın bank hesablarına köçürülməsi təmin olunub.

Qeyd edək ki, pandemiyanın zərər vurduğu fəaliyyət sahələrində və klasterlərdə çalışan 300 min nəfər muzdlu işçinin (əmək müqaviləsi olan) də əməkhaqqının müəyyən hissəsinin ödənilməsi üçün sahibkarlara dövlət tərəfindən 215 milyon manat həcmində maliyyə dəstəyinin göstərilməsi nəzərdə tutulur. Bu mexanizm çərçivəsində vergiödəyicilərin mövcud olan elektron kabinetləri vasitəsilə təqdim etdikləri müraciətlər əsasında, qısa müddət ərzində onların işçilərinə ödənilməli olan əməkhaqqının və ona müvafiq sosial sığorta haqlarının müəyyən hissəsi işəgötürənlərin bank hesablarına köçürüləcək.

Göründüyü kimi, təqdim edilən yeni təkliflər genişmiqyaslıdır və bu gün pandemiyadan zərər çəkmiş sahələrdə işləyən vətəndaşların maraqlarını nəzərə alır. Dövlət başçısının sərəncamına əsasən ölkədə məşğulluğun və sosial rifahın dəstəklənməsi istiqamətində hazırlanan proqramlar çoxşaxəlidir.

Hər zaman sahibkarların böyük hamisi kimi onlara xüsusi diqqət ayıran dövlət başçısı iş adamlarını, ölkə vətəndaşlarını koronavirus pandemiyasından, onun yaratdığı fəsadlardan qorumaq üçün bütün tədbirləri görür. Prezident çalışır ki, ölkəmiz hazırkı ağır dönəmdən ən az itkilərlə çıxsın. Bir neçə il öncə dünyanı bürüyən iqtisadi böhrandan Azərbaycanın o qədər də ziyan çəkməməsini şərtləndirən amillər məhz cənab İlham Əliyevin təşəbbüsü ilə hazırlanan proqramlar idi. Elə bu reallıqlar da onu deməyə əsas verir ki, dünyanı bürüyən pandemiya Azərbaycanın makroiqtisadi sabitliyinə o qədər də ciddi təsir göstərə bilməyəcək.

***Rəşad BAXŞƏLİYEV,***
***"Azərbaycan"***

# Qabaqlayıcı tədbirlər səmərə verir

## Siyasi partiyalar bəyanat qəbul ediblər

*Əvvəli 1-ci səh.*

1. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin bilavasitə təşəbbüsü və rəhbərliyi ilə Azərbaycan hökuməti tərəfindən həyata keçirilən:

a) COVID-19 pandemiyasının yayılmasının qarşısının alınması istiqamətində qabaqlayıcı tədbirləri;

b) virusa yoluxma hallarının və təhlükəsinin azaldılması məqsədilə hərəkətin məhdudlaşdırılması və xüsusi karantin rejiminin tətbiqini;

c) xəstəliyə yoluxanların müalicəsinin təşkili ilə əlaqədar operativ və kompleks işləri;

d) sərhədlərin bağlanması nəticəsində xarici ölkələrdə qalmış çoxsaylı Azərbaycan vətəndaşlarının, o cümlədən xaricdə təhsil alan tələbələrin dövlət hesabına vətənə qaytarılmasını;

e) əhalinin həssas təbəqələrinin sosial müdafiəsinin daha da gücləndirilməsi sahəsində əlavə tədbirləri;

f) aztəminatlı ailələrin üzvləri olan və ödənişli təhsil alan tələbələrin pandemiyaya qarşı mübarizə dövründə təhsil haqqını ödəməkdən azad edilməsini;

g) pandemiyanın yayılmasının qarşısının alınması məqsədilə tətbiq edilmiş məhdudlaşdırıcı tədbirlər nəticəsində əmək fəaliyyətini dayandırmış işçilərin sosial müdafiəsi ilə əlaqədar dövlət dəstəyi proqramını;

h) fəaliyyətini müvəqqəti dayandırmış kiçik və orta sahibkarlara dəstək çərçivəsində həyata keçirilən layihələri;

i) iqtisadiyyatın bütün sahələrinin pandemiyanın mənfi təsirindən qorunması istiqamətində çoxşaxəli proqramların işlənib hazırlanmasını;

j) makroiqtisadi sabitliyin qorunması yönündə görülən kompleks tədbirləri;

k) pandemiyaya qarşı mübarizə tədbirlərinin maliyyələşdirilməsi üçün böyük həcmdə dövlət vəsaitinin ayrılmasını;

l) COVID-19 pandemiyasına qarşı mübarizə tədbirlərinə əhalinin səfərbər olunmasını, o cümlədən Koronavirusla Mübarizəyə Dəstək Fondunun təsis edilməsini;

m) azadlıqdan məhrumetmə cəzasına məhkum edilmiş yaşı 65-dən yuxarı olan 176 nəfərin Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə əfv olunmasını müsbət qiymətləndiririk.

2. Təmsil olunduğumuz təşkilatların üzvlərini:

a) hökumətin həyata keçirdiyi zəruri və təxirəsalınmaz qabaqlayıcı və məhdudlaşdırıcı tədbirlərə etimadla yanaşmağa, müəyyən edilmiş karantin rejiminə tam riayət etməyə;

b) koronavirusa qarşı mübarizə tədbirləri çərçivəsində sosial məsuliyyət nümayiş etdirməyə;

c) pandemiyaya qarşı mübarizənin vacib şərti olan milli birlik və həmrəylik çağırışlarına qoşulmağa;

d) təşkilat vəzifələrinin yerinə yetirilməsi məqsədilə istənilən toplantılardan imtina etməyə, partiyadaxili fəaliyyətdə və ünsiyyətdə yalnız müasir informasiya texnologiyalarının imkanlarından istifadə etməyə səsləyirik.

3. Əhali arasında təşviş yaratmaq məqsədilə sosial şəbəkələrdə koronavirus xəstəliyi ilə əlaqədar şayiələrin, təxribat xarakterli məlumatların yayılmasını qətiyyətlə pisləyir və müvafiq səlahiyyətli orqanlar tərəfindən belə hallara qarşı qanun çərçivəsində ən ciddi tədbirlərin görülməsini xahiş edirik.

4. Xarici ölkələrdə yerləşdirilmiş və şübhəli məqsədlərə xidmət göstərən sosial media vasitələrində hökumətin COVID-19 pandemiyasının qarşısının alınması sahəsində tədbirlərinə etimadsızlıq yaratmaq niyyəti güdən və bununla da əhalinin sağlamlığının qorunması vəzifələrinin yerinə yetirilməsinə bilərəkdən ziyan vuran təbliğatı qətiyyətlə pisləyir, bu cür təhlükəli anti-Azərbaycan təbliğatına son qoyulmasını tələb edirik.

5. Koronavirusla mübarizə sahəsində zəruri məhdudlaşdırıcı tədbirlərin tərkib hissəsi kimi xüsusi karantin rejiminin tətbiq edilməsinin və onun insanların sağlamlığına ciddi təhlükə yaradılmasına səbəb olan kobud qanun pozuntusuna görə sanksiyalar tətbiq edilməsinin bəzi qruplar tərəfindən bilərəkdən siyasiləşdirilməsini yolverilməz hesab edirik.

6. Koronavirus xəstəliyinin yaratdığı indiki durumdan siyasi təbliğat məqsədləri üçün istifadə olunmasına, pandemiyanı siyasi mübarizə alətinə çevirmək, pandemiyadan milli maraqlardan uzaq, dar siyasi niyyətlər naminə faydalanmaq cəhdlərinə qəti etirazımızı bildirir, bu cür cəhdləri siyasi mədəniyyət və etika normaları ilə bir araya sığmayan hərəkət kimi qiymətləndiririk.

7. Bütün siyasi partiyaları, ictimai təşkilatları və vətəndaş cəmiyyəti qurumlarını COVID-19 pandemiyasının və onun yarada biləcəyi sosial-iqtisadi nəticələrin tezliklə aradan qaldırılması naminə Azərbaycan hökuməti tərəfindən həyata keçirilən tədbirləri dəstəkləməyə, həmin tədbirlərin uğurla həyata keçirilməsinə öz imkanları daxilində kömək göstərməyə dəvət edirik.

***Yeni Azərbaycan Partiyası***
***"Ana Vətən" Partiyası***
***Bütöv Azərbaycan Xalq Cəbhəsi Partiyası***
***Vətəndaş Həmrəyliyi Partiyası***
***Böyük Quruluş Partiyası***
***Demokratik İslahatlar Partiyası***
***Demokratik Maarifçilik Partiyası***
***Vəhdət Partiyası***
***Vətəndaş Birliyi Partiyası"***

## Vaxtında atılmış addımlar bəhrəsini verir

### Prezident İlham ƏLİYEV: "Əminəm ki, biz bu ağır vəziyyətdən də çıxacağıq, iqtisadiyyatımız, iş yerləri bərpa ediləcək"

Prezident İlham Əliyevin sədrliyi ilə hər rübün sosial-iqtisadi yekunlarına həsr olunan ənənəvi müşavirə bu dəfə videokonfrans şəklində keçirildi. Tədbirdə cari ilin ilk üç ayının göstəriciləri müzakirə olundu, COVID-19-la mübarizə şəraitində sosial-iqtisadi sahədə qarşıda duran təxirəsalınmaz və çoxşaxəli vəzifələr müəyyənləşdirildi.

2020-ci ilin yanvar və fevral ayları iqtisadi göstəricilərinə görə uğurlu olmuşdur. Belə ki, iki ay ərzində ümumi daxili məhsul 3 faizə yaxın artmışdır. Qeyri-neft sektorunda təxminən 7 faizə yaxın artım qeydə alınmışdır. Üç aylıq rəqəmlər isə ümumi daxili məhsulun 1,1 faiz, qeyri-neft sektorunda 3 faizdən bir qədər çox artdığını göstərir.

Doğrudur, artım var. Rüblük göstəricilərin bundan xeyli yüksək olmasına COVID-19 böyük maneə törətdi.

Koronavirus kimi dəhşətli pandemiyanın istənilən ölkənin sosial-iqtisadi həyatına mənfi təsiri şəksizdir. Təsadüfi deyil ki, artıq aparıcı beynəlxalq maliyyə qurumları bunu qeyd ediblər. Videokonfransdakı nitqində dövlət başçısı bu barədə demişdir: "Bu pandemiyadan yarana biləcək və yaranmaqda olan böhran 2008-2009-cu ilin böhranından daha da ağır olacaq. Bunu Beynəlxalq Valyuta Fondunun rəhbərliyi bildirmişdir. Eyni zamanda biz bilirik ki, Beynəlxalq Valyuta Fonduna və Dünya Bankına 150-dən çox ölkə yardım üçün müraciət etmişdir. Yəni dünya birliyinin mütləq əksəriyyəti artıq yardıma ehtiyac duyur və buna görə müraciət edibdir. Azərbaycanın adı bu siyahıda yoxdur".

Bu, ölkəmizin hazırkı vəziyyətdən şərəflə çıxacağına əminlik yaradır. Bu, bir daha göstərir ki, Azərbaycan dövlətinin həyata keçirdiyi düşünülmüş və uzaqgörən sosial-iqtisadi siyasət, geniş islahatlar öz bəhrəsini verir. Qazanılan nailiyyətlər indiki çətin şəraitdə xalqın sağlamlığına və rifahına xidmət edən mühüm addımlar atmağa imkan yaradır.

Hazırda dünyanı dolaşmaqda olan və ölkəmizdən də yan keçməyən pandemiya ilə mübarizə şəraitində Azərbaycan dövləti bütün addımlarını vəziyyətə uyğun şəkildə atır. Bu pandemiyanın nə qədər davam edəcəyi barədə proqnoz vermək çətindir. Ona görə də dövlətimiz çoxsaylı tədbirlər həyata keçirərək onları sosial-iqtisadi inkişafın davamlı olmasına yönəldir.

Prezident İlham Əliyevin bu il martın 19-da imzaladığı sərəncama əsasən pandemiyanın məşğulluğa, sahibkarlara və iqtisadiyyata mənfi təsirlərinin azaldılması üzrə təkliflərin hazırlanması məqsədilə yaradılan işçi qrupların təqdim etdiyi təkliflər üzrə Nazirlər Kabineti tərəfindən təsdiq olunmuş Tədbirlər Planından irəli gələn məsələlərin maliyyələşdirilməsi üçün dövlət büdcəsindən 1 milyard manat vəsait ayrılıb. Artıq bu vəsaitin maliyyələşdirilməsinə başlanıb. Dövlət fondları və digər maliyyə resursları səfərbər edilərək, ümumi maliyyə dəstək paketi 2,5 milyard manatdan çox olub. Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinə məşğulluq tədbirlərinə maliyyələşmə artıq açılıb. Eyni zamanda İqtisadiyyat Nazirliyinin Sahibkarlığın İnkişafı Fondu vasitəsilə sahibkarlara maliyyə dəstəyi tədbirləri həyata keçirilməkdədir. İpoteka Fondu vasitəsilə maliyyələşmənin açılması üçün də müvafiq tədbirlər görülməkdədir.

Aqrar sektorda işlər xüsusi karantin rejiminin tələblərinə uyğun qurulur. Xüsusilə kənd təsərrüfatı məhsullarının maşınlarla daşınmasının məhdudiyyətsiz həyata keçirilməsi qeyd olunmalıdır. Çünki bunun nəticəsində xüsusi karantin rejimi dövründə əhalinin kənd təsərrüfatı məhsulları ilə təminatında problem yaranmır.

Yeri gəlmişkən, respublika üzrə 2020-ci il üçün 1 milyon hektardan çox sahədə taxıl əkini aparılıb. 21 rayon üzrə 100 min hektar sahədə pambıq əkini proqnozlaşdırılır. Digər yazlıq əkinlər - tütün, şəkər çuğunduru, bostan-tərəvəz, kartof əkini üzrə tədbirlər həyata keçirilir. Taxıl biçininə hazırlıq işləri davam etdirilir.

Koronavirus iqtisadi fəallıqla bağlı böyük problemlər yaratsa da, vaxtında atılmış addımlar, xüsusilə sahibkarlara, biznesə verilən dəstək öz müsbət nəticəsini göstərəcək. İqtisadiyyatın müxtəlif sahələrində fəaliyyət göstərən iş adamları dövlətin verdiyi maliyyə imkanlarından bəhrələnəcəklər. Bu imkanları Azərbaycan dövləti yaradıb və hazırkı vəziyyətdə onlardan insanlara, o cümlədən iqtisadiyyatın inkişafına töhfə verən sahibkarlara kömək məqsədilə istifadə edir.

Videokonfransda Prezident İlham Əliyev ilin sonuna qədər sosial sahədə heç bir proqramın ixtisar edilməyəcəyini də bildirmişdir: "Əksinə, koronavirusla bağlı ümumi dəstək paketi 2,5 milyard manat nəzərdə tutulur. Ancaq bundan artıq olacaq. Təkcə lazımi avadanlıqların, ləvazimatların alınması üçün bu yaxınlarda Prezidentin Ehtiyat Fondundan 97 milyon manat ayrıldı. Bundan sonra da ilin sonunadək nə qədər lazımdırsa, hələ 150 milyon manatın ayrılması da nəzərdə tutulur. Bu, 2,5 milyard manatın içində deyil. Bütün sosial ödənişlər aparılır. Hesab edirəm ki, orta aylıq əməkhaqqının 28 faiz, orta pensiyanın təqribən 27 faiz artması da onu göstərir ki, bu istiqamətdə müsbət işlər görülür. İndi bizim orta aylıq əməkhaqqımız 712 manatdır, orta pensiya 295 manatdır. Yaşa görə pensiya isə 330 manata yaxındır. Yəni biz maaşları, pensiyaları ildən-ilə artırırıq".

Bu il bütün sosial infrastruktur obyektlərinin tikintisi də ixtisarsız icra ediləcək. Minimum 7 min məcburi köçkün ailəsi yeni mənzillərlə təmin olunacaq və ən azı 1500 şəhid ailəsinə yeni mənzillər veriləcək.

Koronavirusun yaratdığı gərgin vəziyyətdə dövlətin sosial-iqtisadi sahədə atdığı bu humanist və inamlı addımlar həmişə olduğu kimi, yenə də insanların sağlamlığına, rahatlığına və rifahına xidmət edir.

***Flora SADIQLI,***
***"Azərbaycan"***

## Azərbaycan qlobal böhrana qalib gəlmək üçün bütün qüvvələrini səfərbər edib

### Görülən tədbirlər pandemiyanın fəsadlarını azaldır və bu tendensiya müsbət istiqamətdə inkişaf edir

**Çinin Uhan şəhərindən dünyaya yayılan yeni növ koronavirus, COVID-19 infeksiyası hələ də ram edilməyib. Virusa qarşı peyvənd hazırlanmasına başlanılsa da, mütəxəssislər bunun başa gəlməsi üçün zaman lazım olduğunu söyləyirlər. Elə buna görə də hazırda bütün ölkələrdə peyvənd hazırlanana qədər bu virusa yoluxmamaq və ondan qorunmaq ən vacib məsələ kimi qəbul edilir.**



Azərbaycanda da koronavirusun geniş vüsət almasına imkan verməmək, vətəndaşların sağlamlığının qorunması üçün həyata keçirilən tədbirlərin əhatə dairəsi genişləndirilir. İnfeksiyaya yoluxmanın sürətini azaltmaq, insanların bir-biri ilə yaxın əlaqələrini minimuma endirmək məqsədi ilə ölkə ərazisindəki xüsusi rejim dövrü martın 31-dən aprelin 20-dək gücləndirilib. Aprelin 5-dən isə həyata keçirilən xüsusi karantin rejimi çərçivəsində ölkədə müəyyən olunan hərəkət məhdudiyyətlərinin tətbiqinə başlanılıb. Həmçinin aprelin 5-dən 20-dək yükdaşımaları istisna olmaqla, Azərbaycan Respublikası ərazisinə yerüstü və hava nəqliyyatı yolu ilə giriş-çıxış, o cümlədən yerli hava uçuşları tam şəkildə dayandırılıb.

Görülən izolyasiya tədbirləri qlobal pandemiyanı nəzarətdə saxlamağa imkan verir və yoluxmanın tempini aşağı salır. Həmçinin xəstəliyin erkən aşkarlanması üçün xeyli sayda testlərin edilməsi, yoluxan insanların sağaldılması, karantin müddətində aztəminatlı, kimsəsiz və yaşı 65-dən yuxarı olan tənha insanlara yardım edilməsi, koronavirusun birbaşa təsir etdiyi sahələr üzrə sahibkarlara dəstək verilməsi ölkəmizdə pandemiyanın fəsadlarını xeyli azaldır və bu tendensiya müsbət istiqamətdə inkişaf edir.

Dövlət tərəfindən görülən bütün bu tədbirlər, eləcə də əhaliyə göstərilən diqqət və qayğıya görə ölkənin müxtəlif yerlərindən Prezident İlham Əliyevə minnətdarlıq məktubları ünvanlanır.

#### "Biz birlikdə güclüyük!" - Heydər Əliyev Fondunun başladığı sosial aksiya davam edir

Koronavirus pandemiyası ilə əlaqədar xüsusi karantin rejiminin tətbiq olunduğu dövrdə dövlət tərəfindən həyata keçirilən tədbirlərə dəstək məqsədilə Heydər Əliyev Fondunun başladığı sosial aksiya davam edir. Fonddan verilən məlumata görə, "Biz birlikdə güclüyük!" şüarı ilə keçirilən aksiyanın məqsədi karantin rejimi dövründə aztəminatlı və digər həssas kateqoriyadan olan ailələri və onlara sosial yardım göstərmək istəyən şəxsləri bir araya gətirmək və bu işdə vətəndaş həmrəyliyini genişləndirməkdir.

Aksiya çərçivəsində müraciətlər əsasında ölkə üzrə qeyd edilən kateqoriyadan olan ailələrə ərzaq məhsullarından ibarət sovqatlar paylanılır.

Fondun "Regional İnkişaf" İctimai Birliyi tərəfindən 150 Çağrı mərkəzinə daxil olan müraciətlər əsasında sovqatların hazırlanması və onların ünvanlara çatdırılması təmin edilir. Aksiya çərçivəsində 100 mindən artıq sovqatın paylanılması nəzərdə tutulur.

Sovqatların regionlara çatdırılmasına və paylanılmasına qədər xüsusi şəraitdə saxlanılmasına "Aqrar Tədarük və Təchizat" Açıq Səhmdar Cəmiyyəti, ailələrə çatdırılmasına isə "Azərpoçt" Məhdud Məsuliyyətli Cəmiyyəti dəstək verir.

Aksiya karantin rejimi müddətində davam edəcək.

Ərzaq ehtiyacı olan aztəminatlı ailələr müraciətlərini "Regional İnkişaf" İctimai Birliyinin 150 Çağrı mərkəzinə edə bilərlər.

#### Sərnişindaşıma fəaliyyəti göstərən sürücülərdə yoluxma qeydə alınmayıb

Xüsusi karantin rejimi dövründə Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi yanında Dövlət Avtomobil Nəqliyyatı Xidməti tərəfindən fəaliyyətinə icazə verilən şəhərdaxili (rayondaxili) sərnişin daşımaları, həmçinin Bakı-Sumqayıt, Bakı-Abşeron və Sumqayıt-Abşeron avtobus marşrutları üzrə sərnişindaşıma fəaliyyəti göstərən sürücülər arasında koronavirusa yoluxma halı qeydə alınmayıb.

DANX-dən verilən məlumata əsasən, avtobusların salonlarında və dayanacaqlarda sərnişinlər tərəfindən sosial məsafəyə riayət edilməsinin təmin olunması məqsədilə xidmətin əməkdaşları gündəlik nəzarət tədbirlərini davam etdirirlər.

Bu gün Bakıda hərəkətin intensivliyinə və sıxlığına uyğun olaraq mütəxəssislərin tövsiyələri əsasında seçilən, şəhər əhəmiyyətli 150-dən artıq əsas küçə və prospektlərdə xüsusi kimyəvi maddələrlə əlavə gücləndirilmiş dezinfeksiya işləri aparılacaq. Paytaxtın kommunal strukturlarından verilən məlumata görə, bununla əlaqədar olaraq sakinlərdən ciddi zərurət yaranmadığı təqdirdə küçəyə çıxmamaları xahiş edilir.

#### Karantin rejimini pozanlar məsuliyyətə cəlb olunurlar

COVID-19 infeksiyasının yayılmasının qarşısının alınması məqsədi ilə tətbiq edilən xüsusi karantin rejiminin pozulmasına görə, 16.04.2020-ci il saat 00:00-dan 17.04.2020-ci il saat 00:00-dək olan müddət ərzində respublikanın avtomobil yollarında nəqliyyat vasitələri ilə hərəkətdə olan 2543 nəfər Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin 211-ci maddəsi ilə inzibati məsuliyyətə cəlb edilib.

Baş Dövlət Yol Polisi İdarəsindən bildirilib ki, ümumilikdə 01.04.2020-ci il tarixindən bu günədək respublikanın, o cümlədən paytaxtın avtomobil yollarında xüsusi karantin rejiminin pozulmasına görə 25402 hərəkət iştirakçısı inzibati məsuliyyətə cəlb edilib.

Respublikanın daxili işlər orqanlarının əməkdaşları tərəfindən həyata keçirilən nəzarət tədbirləri ilə aprelin 15-dən 17-dək olan müddətdə epidemiya əleyhinə rejimi pozan 6 iaşə obyektinin fəaliyyət göstərməsi faktı aşkarlanıb. Daxili İşlər Nazirliyindən verilən məlumata görə, həmin obyekt sahiblərinin hər biri inzibati qaydada cərimə edilib.

Ötən iki gün ərzində respublikanın şəhər və rayonlarında təşkil olunmuş xüsusi polis postlarından, o cümlədən həmin postlardan kənarda olan ara və köməkçi yollardan keçməyə cəhd göstərdiklərinə və karantin rejimini pozduqlarına görə ümumilikdə 8970 nəfərə İnzibati Xətalar Məcəlləsinin müvafiq maddəsi ilə cərimə tətbiq edilib, 23 şəxs isə inzibati qaydada həbs olunub, 1 cinayət işi üzrə 1 nəfər şübhəli şəxs qismində tutulub.

Ümumilikdə isə martın 17-dən bu günə qədər xüsusi karantin rejiminin pozulması ilə əlaqədar olaraq 9 cinayət işi üzrə 16 nəfər barəsində həbs qətimkan tədbiri seçilib, 252 nəfər inzibati qaydada həbs edilib, 56 871 nəfərə inzibati cərimə tətbiq olunub, 482 nəfərə xəbərdarlıq edilib.

#### Dünyanın koronavirus mənzərəsi

Son sutka ərzində dünyada koronavirus infeksiyasına 95 mindən çox insan yoluxub, təxminən 7 min nəfər bu virusun qurbanı olub.

16 aprel tarixli statistikaya görə, dünyada indiyədək 2 181 308 nəfər yeni növ koronavirusa yoluxub, 145 470 nəfər isə bu ölümcül virusun qurbanına çevrilib. Son gün ərzində 95 022 insanda koronavirus aşkarlanıb və ölənlərin sayı isə 6996 nəfər artıb.

Ən çox yoluxma və ölüm halları Avropa regionunda qeydə alınıb - 1 015 507 yoluxma və 92 224 ölüm. Sutka ərzində burada yoluxanların sayı 44 750, ölənlərin sayı isə 3905 nəfər artıb.

Şimali Amerikada virusa yoluxanların ümumi sayı 724 560 nəfər təşkil edir, indiyədək 36 709 nəfər də ölüb. Cənubi Amerikada vəziyyət nisbətən ürəkaçandır - 67 591 yoluxma və 3057 ölüm faktı.

Yoluxma sayı üzrə üçüncü yeri Çin, Koreya Respublikası və Yaponiyanın daxil olduğu Asiya qitəsi tutur. Son məlumata görə, burada 345 970 yoluxma, 12 426 ölüm faktı qeydə alınıb.

İndiyədək dünyada 547 069 nəfər müalicə üsulu ilə virusdan xilas olub.

Ən çox yoluxanlar ABŞ-dadır - 677 570 nəfər. Onun ardınca İspaniya (184 948), İtaliya (168 941), Fransa (165 027), Almaniya (137 698) və Böyük Britaniya (103 093) gəlir.

#### Ölkələr üzrə yoluxma və ölüm halları artır

İspaniyada son 24 saat ərzində yeni növ koronavirusa 5252 yoluxma qeydə alınıb və bununla da ölkədə yoluxanların sayı 188 068 nəfərə çatıb.

Fransada təsdiqlənmiş koronavirusa yoluxma hallarının sayı son bir gündə təxminən 17 min nəfər artaraq ümumilikdə 165 mini keçib. Respublika Baş Səhiyyə İdarəsinin baş direktoru Jerom Salomon bildirib ki, Fransada hazırda COVID-19 testi müsbət nəticə vermiş 114 295 nəfər var. Virus qurbanlarının sayı 17 920 nəfərdir, onlardan 11 mindən çoxu tibb müəssisələrində dünyasını dəyişib. Gün ərzində xəstəxanalarda 753 nəfər ölüb.

Kanadada son sutka ərzində koronavirusa yoluxanların sayı 1727 nəfər artaraq 28 379-dan 30 106 nəfərə yüksəlib. Ölkənin Səhiyyə Nazirliyi məlumat yayıb ki, bu müddətdə virusdan ölənlərin sayı 185 nəfər artıb və ümumilikdə 1195-ə çatıb. 9729 nəfər isə sağalıb.

Almaniyada daha 3380 nəfər koronavirusa yoluxub. Bununla da bu ölkədə virusa yoluxanların sayı 133830-a çatıb.

Son bir gündə Almaniyada koronavirusdan 299 nəfər ölüb. Ümumilikdə bu ölkədə virus qurbanlarının sayı 3868 nəfər təşkil edir.

Hindistanda da koronavirusa yoluxanların sayı artmaqda davam edir. Son sutka ərzində koronavirusa daha 1000 nəfər yoluxub və yoluxanların ümumi sayı 13387-yə çatıb. Hazırda Hindistanda 11201 nəfər koronavirusdan müalicə alır, 1748 nəfər sağalıb, 437 nəfər isə dünyasını dəyişib.

Belçikada son sutka ərzində 313 nəfər yeni növ koronavirusdan vəfat edib. Ölkədə koronavirusdan ölənlərin sayı 5136 nəfərə çatıb. Daha 1329 nəfərdə COVID-19 aşkarlanıb və ümumilikdə yoluxanların sayı 36 138 nəfərə yüksəlib.

#### Koronavirusun "beşiyi"ndə COVID-19-dan yeni ölüm faktları üzə çıxıb

Koronavirus pandemiyasının yarandığı Çinin Uhan şəhərində virusdan ölənlərin sayı təkrar nəzərdən keçirilib. Şəhərdə bundan əvvəl daha 1 290 nəfərin virusun qurbanı olduğu üzə çıxıb. Bununla da Uhanda koronavirusdan ölənlərin sayı 3 869 nəfər təşkil edib. Bundan əlavə, 325 yeni yoluxma qeydə alınıb.

Ümumilikdə Çində 82 692 nəfər koronavirusa yoluxub, 4 632 nəfər ölüb, 77 944 nəfər isə sağalıb.

Özbəkistanda koronavirusa yoluxanların sayı 1380 nəfərə çatıb. Hazırda Özbəkistanda 90 min nəfər karantindədir.

Gürcüstanda daha 22 nəfərdə koronavirusa yoluxma təsdiqlənib. Gürcüstan hökumətinin koronavirusla mübarizə çərçivəsində yaratdığı xüsusi internet saytında məlumat verilib ki, bununla da ölkədə koronavirusa yoluxanların sayı 370-ə çatıb. Bildirilib ki, hazırda ölkə üzrə karantində 5079 nəfər saxlanılır, stasionar müalicədə isə 558 nəfər var. Virusa yoluxmuş şəxslərdən 77-sı sağalıb, 3 nəfər isə vəfat edib.

İranda son sutka ərzində 89 nəfər yeni növ koronavirusdan vəfat edib. Bunu İranın Səhiyyə Nazirliyinin sözçüsü Kiyanuş Cahanpur deyib. O bildirib ki, ölkədə koronavirusdan vəfat edənlərin sayı 4958 nəfərə çatıb. Son sutka ərzində 1499 nəfər koronavirusa yoluxub, xəstəliyə yoluxanların ümumi sayı 79 494 nəfərdir.

İndiyədək virusa yoluxanların 54 064 nəfəri sağalıb. Hazırda virus daşıyıcısı olan 3563 nəfərin vəziyyəti ağır və ya orta ağırdır.

Ermənistanda koronavirusa yoluxanların sayı 1 201 nəfərə çatıb. Son sutkada 42 nəfərdə infeksiyaya yoluxma faktı aşkarlanıb. Ölkədə həmçinin bir nəfərin ölümü qeydə alınıb. Bu günədək Ermənistanda 19 nəfər koronavirusdan ölüb.

#### 17 ölkə Ümumdünya Səhiyyə Təşkilatına dəstək verib

Aralarında Almaniya və Fransanın da olduğu 17 ölkə koronavirusun yayılması və ABŞ Prezidenti Donald Trampın tənqidləri fonunda Ümumdünya Səhiyyə Təşkilatına (ÜST) dəstək verib.

Bu barədə Almaniyanın təşəbbüsü ilə 2018-ci ildə multirateralizmə (çoxtərəfliliyə) dəstək üçün təşkil edilən tanınmamış Alyansın 17 ölkəsinin XİN rəhbərlərinin iştirakı ilə keçirilmiş videokonfransın nəticələrinə dair birgə bəyanatda deyilir.

Nazirlər pandemiya böhranı ərəfəsində BMT-nin qlobal həmrəylik çağırışını dəstəklədiklərini qeyd edərək "xüsusi olaraq epidemiyanın qarşısının alınmasında ÜST-nin rolunu" vurğulayıblar. Videokonfrans zamanı tibbi ləvazimatlara çıxışın təmin edilməsi, dezinformasiya ilə mübarizə və səhiyyə sisteminin gücləndirilməsi kimi mövzular da müzakirə olunub.

Danışıqlarda Argentina, Belçika, Almaniya, Dominikan Respublikası, İrlandiya, Kanada, Meksika, Hollandiya, Norveç, Peru, Sinqapur, Finlandiya, Fransa, Çili, İsveç, Estoniya və CAR-ın xarici işlər nazirləri iştirak ediblər.

#### COVID-19-un dərmanını tapan mükafatlandırılacaq

Ümumdünya Səhiyyə Təşkilatının beynəlxalq birliyə xitabən "virusu nəzarətdə saxlamaq, dayandırmaq, onunla mübarizə aparmaq, yayılmasını əngəlləmək və təsirini azaltmaq üçün hər fürsətdən istifadə etmək" çağırışına cavab olaraq, İslam Dünyası Təhsil, Elm və Mədəniyyət Təşkilatı (İCESCO) COVID-19 ilə mübarizəyə dair mükafat elan edib.

Mədəniyyət Nazirliyindən verilən məlumata görə, mükafatın təsis edilməsində məqsəd bəşəriyyəti bürüyən qlobal sağlamlıq böhranı fonunda effektiv və davamlı həllər tapmaq üçün tibbi və elmi araşdırmaların stimullaşdırılmasıdır.

Mükafat olaraq 200 000 ABŞ dolları məbləğində mükafat məbləği və xüsusi medal nəzərdə tutulub.

Mükafata namizədliyini təqdim etmək üçün COVID-19-a qarşı effektiv dərman vasitəsi və ya peyvənd tapdığını iddia edən müstəqil tədqiqatçı, tədqiqatçılar qrupu və ya tədqiqat müəssisəsi Komitənin Katibliyinə müraciət göndərməlidir.

***Yasəmən MUSAYEVA,***
***"Azərbaycan"***

## Azərbaycan Respublikası Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin "Aztelekom" Məhdud Məsuliyyətli Cəmiyyəti

### *açıq tender elan edir*

Tender 1 LOT üzrə keçirilir.

LOT 1: - 5000 ədəd 6,5 metr hündürlüklü, kreozot məhlulu hopdurulmuş ağac dirəklərin satın alınması

**İştirak haqqı: 1500 manat**

Tenderdə iştirak etmək istəyənlər göstərilən məbləğdə iştirak haqqını aşağıdakı hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş tenderin əsas şərtlər toplusunu etender.gov.az vahid satınalma Portalından əldə edə bilərlər.

**Müəssisənin adı:**
**"Aztelekom" Məhdud Məsuliyyətli Cəmiyyəti**
**Hesab nömrəsi: AZ62AZPO 91015461200420100166**
**Müəssisənin VÖEN-i: 9900038501**
**Ünvan: AZ1122, Bakı şəh, Tbilisi prospekti -187**
**Bankın adı: Azərpoçt MMC PF 1**
**Kodu: 691011**
**Bankın VÖEN-i: 9900037711**
**Müxbir hesab: AZ76NABZ 01350100000000094944**
**S.W.I.F.T BİK: AZPOAZ22**

**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri vahid satınalma Portalında yerləşdirməlidirlər:

- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 (otuz) bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 60 (altmış) bank günü qüvvədə olmalıdır);*
- *vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi və sosial müdafiə orqanlarından arayış;*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında maliyyə hesabatı;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *tender təklifini və müqaviləni imzalamaq səlahiyyətinə malik olan şəxsin səlahiyyətlərini təsdiq edən sənədin (vəzifəyə təyin edilməsi barədə əmr və ya müvafiq səlahiyyətin verilməsi barədə etibarnamə) iddiaçı tərəfindən möhürlə təsdiq edilmiş surəti;*
- *iddiaçının ilkin qeydiyyat sənədlərinin müvafiq qaydada təsdiq edilmiş surətləri (iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsinin qeydiyyatdan keçdiyi ölkə və əsas fəaliyyət yeri göstərilməklə), ünvan və bank rekvizitləri;*
- *iddiaçının analoji işlər üzrə iş təcrübəsini təsdiq edən sənədlər;*
- *iddiaçının müştəri bazası haqqında məlumatlar;*
- *təklif olunan malların mənşə və keyfiyyət sertifikatları;*
- *tenderin əsas şərtlər toplusunda nəzərdə tutulan və tenderin əsas şərtlər toplusunun tələblərindən irəli gələn digər sənədlər.*

İddiaçı təqdim edəcəyi malların keyfiyyətini təsdiqləyən hər hansı digər məlumatları da təqdim edə bilər.

Azərbaycan Respublikasından olan iddiaçıların tenderə təqdim edəcəkləri bütün sənədlər Azərbaycan Respublikasının dövlət dilində tərtib olunmalıdır.

Tender proseduru "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun keçiriləcəkdir.

Tender təkliflərinin qiymətləndirilməsi zamanı onların bu sahədəki çoxillik təcrübəsi, yerli şirkətlərə göstərdiyi təchizat işinin keyfiyyəti, müqavilə imzaladıqları şirkətlər tərəfindən təqdim olunan tövsiyə məktublarının olması nəzərə alınacaqdır.

İddiaçılar tenderdə iştirak etmək üçün müvafiq sənədləri (tender təklifi və tender təklifinin bank təminatı istisna olmaqla) **08 may 2020-ci il saat 11:00-dək,** tender təklifini və tender təklifinin bank təminatını isə **19 may 2020-ci il saat 17:00-dək** vahid satınalma Portalında yerləşdirməlidirlər.

İddiaçıların təklifləri **20 may 2020-ci il saat 11:00-da** vahid satınalma Portalında açılacaqdır.

***Tender komissiyası***

## Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi

### *açıq tenderə dəvət edir*

Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin Aparatı üçün maşın və avadanlıqların satın alınması

Tender iştirakçılarına təklif edilir ki, https://www.etender.gov.az/ - dövlət satınalmalarının vahid internet Portalına (Portal) elektron imzaları vasitəsilə daxil olsunlar və tender haqqında ətraflı məlumatı əldə etsinlər. Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar. Tenderdə iştirak etmək istəyən təşkilatlar LOT üzrə müəyyən edilən məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra müsabiqə üzrə təkliflərini Portal vasitəsilə təqdim edə bilərlər.

**İştirak haqqı: LOT üzrə 200 (iki yüz) manat**

**Satınalan təşkilat: Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi**

**VÖEN: 1700093011**
**Bank: Dövlət Xəzinədarlığı Agentliyi**
**KOD: 210005**
**MÜXBİR HESABI: AZ41NABZ01360100000000003944**
**VÖEN: 1401555071**
**SWIFT BIK CTREAZ22**
**H/HESABI: AZ80CTRE00000000000002138501**
**Büdcə gəlirlərinin təsnifat kodu - 142340**
**Büdcə səviyyəsinin kodu - 7**

**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *tender təklifi (təkliflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (təminatın qüvvədə olma müddəti tender təklifinin qüvvədə olma müddətindən 30 bank günü çox olmalıdır);*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *tender iştirakçısının müəyyən etdiyi digər sənədlər.*

Sənədlər Azərbaycan dilində tərtib olunmalıdır (xarici dildə olan tender sənədləri Azərbaycan dilinə tərcümə olunmalıdır). İddiaçılar tender ilə bağlı sualları Portal vasitəsilə satınalan təşkilata ünvanlaya bilərlər. Tender proseduru "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun keçiriləcəkdir. İddiaçılar tenderdə iştirak etmək üçün ixtisas göstəricilərinə dair sənədləri 08.05.2020-ci il saat 15:00-a qədər və tender təklifi ilə bank təminatı sənədlərini 19.05.2020-ci il saat 15:00-a qədər Portal vasitəsilə təqdim etməlidirlər. İddiaçıların təklifləri 20.05.2020-ci il saat 15:00-da açılacaqdır. İddiaçılar açılışın nəticələri ilə Portal vasitəsilə tanış ola bilərlər.

**QEYD:** *Tenderdə iştirak, tenderin qiymətləndirilməsi və digər bütün prosedurlar yalnız elektron qaydada Portal vasitəsilə aparılır.*

***Tender komissiyası***

## BİLDİRİŞ

Dayanıqlı və Operativ Sosial Təminat Agentliyi publik hüquqi şəxsi (DOST Agentliyi) tərəfindən maliyyə-təsərrüfat fəaliyyətinin müstəqil surətdə yoxlanılması üzrə xidmətin satın alınması məqsədilə elan edilən açıq tenderdə iddiaçılardan daxil olmuş tender təkliflərinin qiymətləndirilməsi həyata keçirilmiş və müsabiqənin qalibi "UHY Audit" MMC müəyyən edilmişdir.

Qalib təşkilatla satınalma müqaviləsi imzalanmışdır.

***Tender komissiyası***

## BİLDİRİŞ

Dayanıqlı və Operativ Sosial Təminat Agentliyi publik hüquqi şəxsi (DOST Agentliyi) tərəfindən 7 aprel 2020-ci il tarixdə elan edilmiş kotirovka sorğusu metodu ilə keçirilən beynəlxalq və ölkə səviyyəli tədbirlərdə, bayramlarda, mükafatlandırma eləcə də yubiley mərasimlərində təbrik və xatirə məqsədilə verilməsi nəzərdə tutulan hədiyyələrin satın alınması üzrə müsabiqənin qalibi "LOTUS CO" MMC olmuşdur.

Qalib təşkilatla satınalma müqaviləsi imzalanmışdır.

***Tender komissiyası***

## BİLDİRİŞ

Dayanıqlı və Operativ Sosial Təminat Agentliyi publik hüquqi şəxsi (DOST Agentliyi) tərəfindən avadanlıqların və arxivasiya işinin təşkili üzrə xidmətin satın alınması məqsədilə elan edilən açıq tenderdə iddiaçılardan daxil olmuş tender təkliflərinin qiymətləndirilməsi həyata keçirilmiş və müsabiqənin qalibi "QUADRA" MMC müəyyən edilmişdir.

Qalib təşkilatla satınalma müqaviləsi imzalanmışdır.

***Tender komissiyası***

# ARDNF cari ilin birinci rübü üzrə gəlir və xərclərinə dair məlumat yayıb

**Azərbaycan Respublikası Dövlət Neft Fondunun (ARDNF) 2020-ci ilin yanvar-mart ayları ərzində neft və qaz sazişləri ilə bağlı daxilolmaları 3 772,1 milyon manat təşkil etmişdir. Həmin daxilolmaların tərkibində mənfəət neftinin və qazın satışından gəlirlər 2 997,9 milyon manat olmuşdur.**

Bu gəlirlər fyuçers müqaviləsi şərtlərinə uyğun şəkildə xam neftin qiymətlərinin büdcədə nəzərdə tutulan qiymətdən daha yüksək olduğu dekabr, yanvar və fevral aylarına aid partiyaların satışlarından formalaşmışdır. Sözügedən aylar üzrə xam neftin ortaçəkili xalis mədaxil qiyməti 59 ABŞ dolları təşkil etmişdir. Eyni zamanda bu dövr ərzində bonus ödənişləri 767,8 milyon manat, tranzit gəlirləri 4,9 milyon manat, akrhesabı ödənişlər 1,5 milyon manat olmuşdur.

Cari ilin yanvar-mart ayları ərzində ARDNF-nin büdcə xərcləri 4 697,8 milyon manat təşkil etmişdir. Bu müddət ərzində xam neftin qiymətlərinin kəskin şəkildə aşağı düşməsinə baxmayaraq, ARDNF tərəfindən makroiqtisadi və fiskal tarazlığın qorunması, icmal və dövlət büdcəsi qarşısında öhdəliklərinin yerinə yetirilməsi ilə bağlı funksiyalarının icrası təmin edilmişdir. Belə ki, ölkənin valyuta bazarında xarici valyutaya artan tələbin qarşılanması məqsədi ilə 2020-ci ilin yanvar-mart aylarında ümumilikdə 2 771,8 milyon ABŞ dolları məbləğində xarici valyuta satılmış, bunun müqabilində 4 712,1 milyon manat vəsait satın alınmışdır. Qabaqlayıcı valyuta satışları hesabına dövlət büdcəsinə 4 631,0 milyon manat, o cümlədən vaxtından əvvəl 1 793,5 milyon manat vəsait transfer edilmişdir. Eyni zamanda 60,9 milyon manat məcburi köçkün ailələrinin məskunlaşdırılması və sosial-məişət vəziyyətinin yaxşılaşdırılması üzrə tədbirlərin maliyyələşdirilməsinə yönəldilmişdir. Bu müddət ərzində ARDNF-nin idarə edilməsi ilə bağlı xərcləri isə 5,9 milyon manat təşkil etmişdir.

Ötən rüb ərzində ARDNF-nin aktivlərinin yenidən qiymətləndirilməsi ilə bağlı qısamüddətli bazar dəyəri dəyişkənliyindən yaranan mənfi fərq 2 148,6 milyon manat olmuşdur. Valyuta məzənnələrinin dəyişməsindən yaranan fərq isə ARDNF-nin büdcədənkənar xərci kimi 281,1 milyon manat təşkil etmişdir.

Məlum olduğu kimi, koronavirus pandemiyası cari ilin ilk rübü ərzində dünya iqtisadiyyatı üçün olduqca ciddi təhdidlər yaratmışdır. Belə ki, bütün dünya ölkələri üzrə tələb-təklifdə olduqca ciddi geriləmələr müşahidə olunur, işsizliyin səviyyəsi artır, nüfuzlu beynəlxalq maliyyə qurumları ilin sonu üçün ümumdünya iqtisadi artımında ciddi yavaşlamanın olacağını proqnozlaşdırırlar. Nəticə etibarilə qeyd edilənlərin təzahürü kimi beynəlxalq maliyyə bazarlarında, o cümlədən inkişaf etmiş ölkələrin fond birjalarında ciddi dalğalanmalar müşahidə olunur. Bu müddət ərzində dünya səhm indekslərinin dəyərində təxminən 20-25 faizlik enmə müşahidə edilmişdir. Vəsaitlərinin aktivlər üzrə bölgüsündə səhm investisiyalarının əhəmiyyətli hissəni təşkil etdiyi bir çox analoji suveren fondlar üçün bu təqribən mənfi 14-16 faizlik gəlirliliyə səbəb olmuşdur.

Bütün bunlar təbii ki, ARDNF-nin investisiya portfelinə də təsirsiz ötüşməmişdir. Qeyd etdiyimiz kimi, ARDNF-nin investisiya portfelinin 80 faizdən çoxunun yüksək likvid və daha az qiymət dəyişkənliyi ilə xarakterizə olunan sabit gəlirli qiymətli kağızlar və qızıldan ibarət olması mümkün təsirləri ciddi şəkildə azaltmağa imkan yaratmışdır.

Beləliklə, vaxtından əvvəl transfert ödənişləri, habelə ARDNF-nin investisiyalarının bazar dəyərində qeydə alınan qısamüddətli dəyişkənlik nəzərə alınaraq 2020-ci ilin birinci rübünün sonuna ARDNF-nin aktivləri 41 349,5 milyon ABŞ dollarına bərabər olmuşdur.

***"Azərbaycan"***

# Dövlət Sərhəd Xidməti hərbi qulluqçusunun cəsur davranışı

Neftçala rayonunun Bankə qəsəbəsində fərdi yaşayış evində baş verən yanğın zamanı Dövlət Sərhəd Xidmətinin (DSX) hərbi qulluqçusu öz vətəndaşlıq borcunu layiqincə yerinə yetirib.

DSX-nin Mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, aprelin 14-də yanğın baş verən ərazinin yaxınlığında müvəqqəti yaşayan DSX-nin Sahil Mühafizəsinin hərbi qulluqçusu kiçik gizir Əliyev Vasif Asif oğlu yanğını görən kimi dərhal hadisə yerinə hərəkət edib. FHN-in Yanğınsöndürmə komandası yanğının genişlənməsinin və digər evlərə keçməsinin qarşısını alarkən, həyatı üçün təhlükəyə baxmayaraq fədakarlıq göstərərək yanan evə daxil olan sərhədçi köməksiz vəziyyətdə qalan qəsəbə sakini 1987-ci il təvəllüdlü Seyfullayev Famil Fədail oğlunu xilas edib.

Xilasetmə prosesində tüstüdən zəhərlənərək xəsarət almış kiçik gizir V.Əliyev təcili yardım maşını ilə Salyan Rayon Mərkəzi Xəstəxanasına aparılıb və reanimasiya şöbəsinə yerləşdirilib. Hazırda vəziyyəti yaxşıdır.

# Rusiya Ermənistana təzyiqi artırır

## Kreml Yerevana satdığı qazın qiymətini qaldırır

Ermənistanda sosial-iqtisadi durum yenidən çətinləşməyə doğru gedir. Belə ki, işğalçı ölkə üçün daha bir problem də Rusiyadan gəlməkdədir. Kreml Yerevana satılan qazın qiymətində dəyişiklik etmək niyyətindədir. Halbuki Ermənistan son bir ildə qazın qiymətinin aşağı salınması üçün Rusiyaya minnətçi düşmüşdü. Amma buna rəğmən Ermənistanda hələ ötən ilin əvvəlindən Rusiya qazı bahalaşıb. Qazın min kubmetri 150 dollardan 165 dollara yüksəlib. Amma Moskva qiymətlərin bir qədər də artmasını istisna etmir.

Ümumiyyətə, Rusiya üçün Ermənistana satılan qazın qiymətinin 200 dollara çatdırılması əsas məqsəddir. Buna rəğmən Yerevan qazın qiymətinin aşağı salınmasını istəsə də, lakin Kreml birmənalı şəkildə bu istəyə qarşı çıxır.

Hesab edilir ki, Moskva istəyinə nail olacaq. Məsələ bundadır ki, Ermənistan ərazisində təbii qazı çatdıran yeganə şirkət "Qazprom Ermənistan"dır. Rusiyanın "Qazprom" şirkətinin törəmə müəssisəsi olan bu qurum hələ də ziyanla işlədiyini bəyan edir. "1in.am" saytı yazır ki, sözügedən məsələ Rusiya Prezidenti Vladimir Putin və Ermənistan baş naziri Nikol Paşinyan arasında telefon söhbəti zamanı yenidən müzakirə olunub: "Kremlin mətbuat xidmətinin yaydığı məlumatda deyilir ki, danışıq erməni tərəfinin təşəbbüsü ilə baş tutub. Qeyd edilir ki, danışıq zamanı Putin və Paşinyan ikitərəfli əməkdaşlığın aktual məsələlərinə, həmçinin Avrasiya İqtisadi Birliyi xətti ilə qarşılıqlı əlaqə məsələsinə də toxunublar. Bundan əlavə, gələcək təmasların qrafiki razılaşdırılıb. Düzdür, Putinin sonradan yenə Paşinyanla nə dərəcədə təmasda olacağı sual altındadır. Çünki son həftələrdə belə təəssürat yaranır ki, erməni tərəfinin Moskva ilə təmasları yalnız Baş Nazir Mişustinlə məhdudlaşır. Bu, əlbəttə, erməni-rus münasibətlərinin səviyyəsini əhəmiyyətli dərəcədə aşağı endirir. Yeri gəlmişkən, bu durum son günlərdə bizim ekspert dairələrində aktiv müzakirə olunur, hətta müəyyən spekulyasiyaya məruz qalır".

Bildirilir ki, Putinlə telefon danışığı barədə rəsmi Yerevanın və Moskvanın yaydığı məlumatlarda, ən azı vurğularda əhəmiyyətli fərq var. Halbuki Ermənistan hökumətinin mətbuat xidmətinin yaydığı məlumatda qeyd edilir ki, tərəflər həmçinin işğalçı ölkədə təbii qazın verilməsilə bağlı məsələləri də müzakirə ediblər. Diqqətçəkəndir ki, Nikol Paşinyan "Facebook" sosial şəbəkəsində 4 saatlıq birbaşa efirdə olan zaman Rusiya Prezidenti ilə arasındakı telefon danışığının mahiyyətinin bir sıra təfərrüatları haqqında məlumat verib.

Baş nazir qeyd edib ki, bu gün bizim qaz sistemindən effektli istifadə ilə bağlı problemimiz var, bunu həll etməliyik. O deyib ki, baş nazirin müavini Mqer Qriqoryan qazın qiymətinin endirilməsi üçün hökumətin adından "Qazprom"a müraciət edib. Putinin nə cavab verdiyi isə aydın deyil, çünki baş nazir bu barədə hər hansı bir təfərrüat verməyib. Ancaq mövcud qeyri-müəyyənlikdən çıxış edərək nəticə çıxarmaq olar.

Vurğulanır ki, əgər Kreml özünün yaydığı məlumatda qaz məsələsini gündəlik məsələsi hesab etmirsə, fərz etmək olar ki, Moskva da rəsmi Yerevanın prinsipial hesab etdiyi bu məsələni - sərhəddə verilən qazın qiymətinin aşağı salınmasını müzakirə etmək niyyətində deyil. Əlbəttə, Moskvanın belə yanaşması özlüyündə AİB-nin mövcudluğunu mənasız edir. Lakin o da faktdır ki, Rusiyada bənzər strukturları böyük dövlətçilik gündəliyinə xidmət etmək lazım olduqda xatırlayırlar. Məqalədə qeyd olunur ki, beləliklə, qazın tarifi məsələsi kölgədə qalmaqda davam edir və hətta Nikol Paşinyanın "Facebook"dakı canlı yayımı da bu məsələyə aydınlıq gətirməyib.

Belə vəziyyətdə Rusiyanın qazın qiymətini artırması tamamilə gözlənilən sayılır. Yerevan elə bu səbəbdən bəyan edir ki, ölkə İran qazının alınması imkanlarını nəzərdən keçirir. Yeri gəlmişkən, bunu ondan əvvəlki hökumət də istisna etmirdi. Amma ABŞ və Rusiya Yerevanın bu niyyətinə qarşıdır.

Digər tərəfdən, İran da artıq buna müsbət baxmır. Çünki İranın istəyinin əksinə olaraq Ermənistan İsraildə səfirlik açmağa hazırlaşır. Buna Tehranın sərt reaksiyaları artır. İran parlamentinin sədrinin beynəlxalq məsələlər üzrə müavini Hüseyn Əmir Abdullahiyan qeyd edir: "Ermənistanın bu addımı Fələstin xalqının mənafeyi ilə təzaddadır, eləcə də bölgənin təhlükəsizliyi və sabitliyinə mənfi təsir göstərəcək". O, Ermənistanın İsraildə səfirlik açmaq planını qınayıb və rəsmi İrəvanı bu addımı atmamağa çağırıb.

***Elçin CƏFƏROV,***
***"Azərbaycan"***

## BİLDİRİŞ

Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən İstismarda olan printerlərin katriclərinin dolumu xidmətlərinin satın alınması üçün keçirilən açıq tenderdə "COPY" MMC qalib olmuşdur.

Qalib təşkilatla müvafiq satınalma müqaviləsi bağlanmışdır.

***Tender komissiyası***

## ALLAH RƏHMƏT ELƏSİN!

"Azərenerji" ASC-nin rəhbərliyi və kollektivi Bakıxan Nəsirova həyat yoldaşı

**KƏMALƏ XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Azərbaycan Meliorasiya və Su Təsərrüfatı ASC-nin rəhbərliyi və kollektivi Tərtər Rayon Suvarma Sistemləri İdarəsinin rəisi Zahid İbrahimova anası

**MİNAYƏ İBRAHİMOVANIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Ünvan



AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə
e-mail:
secretary@azerbaijan-news.az
az.reklam@mail.ru
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

Telefonlar

Qəbul otağı - 539-68-71,
Baş redaktor müavinləri - 538-86-86, 434-63-30, 538-97-96,
Məsul katib - 539-43-23,
Məsul katib müavinləri - 539-44-91,
Parlament və siyasət şöbəsi - 539-72-39, 539-84-41, 539-21-00,
İqtisadiyyat şöbəsi - 538-42-32, 538-35-55,
Beynəlxalq həyat, idman və informasiya şöbəsi - 432-37-68,
Humanitar siyasət şöbəsi - 538-56-60, 539-63-82
İctimai əlaqələr şöbəsi - 539-49-20, 538-31-11,
Fotoillüstrasiya şöbəsi - 538-84-73,
Kompüter mərkəzi - 538-20-87,
Mühasibatlıq - 539-59-33

Qeydiyyat nömrəsi 1

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan" nəşriyyatında çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Gündəlik qəzet

Tiraj 7360
Sifariş 931
Qiyməti 40 qəpik